RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 120 (8999) CÜMƏ AXŞAMI, 9 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir

## Bu istiqamətdə görülən işlərin miqyası ilbəil artır

→ 2

# Qurtuluşa aparan yolun başlanğıcı



Müasir Azərbaycan dövlətçiliyinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan bütün siyasi hadisələri Azərbaycanın taleyində müsbətə doğru dəyişikliklərin əsasını qoymaqla tariximizdə yeni inkişaf mərhələsinin başlanğıcı olub.

Bu baxımdan 29 il əvvəl - 1993-cü il iyunun 9-da Heydər Əliyevin xalqımızın çağırışı ilə Naxçıvandan Bakıya gəlməsi müasir dövlətçilik tariximizin ən böyük siyasi hadisəsidir. Müstəqilliyimizin məhvolma təhlükəsi ilə üz-üzə qaldığı həmin təlatümlü günlərdə Ulu Öndərin başlatdığı xilaskarlıq missiyası bu gün qürur duyduğumuz güclü Azərbaycan dövlətinin qurulması ilə nəticələndi.

→ 5

## Mütərəqqi islahatlar uğurlu nəticələr verir

### İlham Əliyevin inkişaf siyasəti dövlətimizi qarşıda duran hədəflərə sürətlə çatdırır

Ötən həftə "Bakı Enerji Həftəsi" çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanın 2022-ci ildəki makroiqtisadi göstəricilərini də diqqətə çatdırdı.

Beləliklə, bu ilin ötən dövrü ərzində ölkədə ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində isə 15 faizdən artıq olub. Dövlət başçısının dediyi kimi, bütün bunlar islahatların və toplanılan gəlirlərin yönləndirilməsinin təzahürüdür.

→ 3

## Çili Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir

İyunun 8-də Milli Məclisin Sədri Sahibə Qafarova Çili Respublikasının ölkəmizdəki səfiri Rodriqo Arkos ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri salamlayan Sahibə Qafarova Azərbaycanla Çili arasında diplomatik əlaqələrdən, münasibətlərimizin hazırkı vəziyyətindən danışıb. Qeyd olunub ki, Azərbaycan və Çili ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq edir. Həmçinin bildirilib ki, hər iki ölkə Qoşulmama Hərəkatının üzvləridir və bu, əməkdaşlıq üçün vacib platformadır.

Spiker deyib ki, parlamentlərarası münasibətlər ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin mühüm tərkib hissələrindən biridir.

→ 4

## Cənubi Qafqazın reallıqlarını Azərbaycan müəyyənləşdirir

### Ermənistan atəşkəsi pozaraq sərgilədiyi təxribatçı davranışla bölgədə yaranmış yeni geosiyasi proseslərin qarşısını ala bilməz

"...Ermənistan istəsə də, istəməsə də bunu bütün dünya qəbul edir. Biz Dağlıq Qarabağ münaqişəsini həll etmişik".

Mayın 27-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində çıxışı zamanı qətiyyətlə bəyan etdiyi kimi, sözügedən bu münaqişə tarixə qovuşub və artıq beynəlxalq aləm də bu reallığı qəbul edir. Beynəlxalq birlik Azərbaycanın Cənubi Qafqazda sülhün qarantı olduğu gerçəyini anlayır...

→ 5

# Uğurlarımız BMT-nin diqqət mərkəzindədir



## Ölkəmiz "Davamlı inkişaf məqsədləri indeksi"ndə 5 pillə irəliləyib

→ 5

## "Formula-1"in Azərbaycan modeli

### Bakı motoidman fanatları üçün unudulmaz yarış məkanına çevriləcək

Mötəbər idman yarışlarına evsahibliyi etmək hər bir ölkənin arzusudur. Amma hər ölkənin bütün dünyanın izlədiyi, sayı minlərlə ölçülən idmançıların iştirak etdiyi tədbiri təşkil etməyə, birdən-birə on minlərlə turisti qarşılamağa imkanı çatmır. Hətta bir çox inkişaf etmiş ölkələr belə bu baxımdan müəyyən tələblərə cavab vermir.

→ 10

## Qoy ağaclarımız kəsilməsin!..

### Yaşıl parklar məkanına çevrilməkdə olan Bakını bu gözəllikdən məhrum edənlər inzibati cəza deyil, cinayət məsuliyyəti daşımalıdırlar

Son illərdə Bakının dünyanın gözəl şəhərlərindən birinə, yaşıl parklar və bağlar məkanına çevrilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə həyata keçirilən abadlıq-quruculuq işləri nəticəsində paytaxtımızın gündən-günə gözəlləşdiyi hər kəsə məlumdur.

→ 7

## Dünyanın təhlükəli qida dərdi...

### Hər il bu səbəbdən həyatını itirən 420 min insanın 125 mini uşaqlardır

Getdikcə daha da qloballaşan dünyada əsas problemlərdən biri olan qida təhlükəsizliyi bəşəriyyəti təhdid edir. Dünyada ərzaq-istehsalat-təchizat zəncirinin daha da mürəkkəbləşdiyi, qida ilə bağlı risklərin insanların sağlamlığı ilə yanaşı, dünya iqtisadiyyatına vurduğu mənfi təsirlər problemləri daha da qloballaşdırır.

→ 12

## Meymunçiçəyinin yayılma coğrafiyası böyüyür

### Azərbaycan da xəstəliyin diaqnozunu müəyyənləşdirəcək testlər sifariş verib

Mayın 7-də ilk dəfə İngiltərədə aşkarlanan meymunçiçəyi virusu 1 aydır ki, yayılmaqda davam edir. Xəstəliyin yayılma tezliyi sürətli olmasa da, artıq bir çox ölkədə görünməkdədir. Ümumdünya Səhiyyə Təşkilatının son məlumatına görə, infeksiya 30-a yaxın ölkədə aşkarlanıb.

→ 12

# İlham Əliyev Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir

## Bu istiqamətdə görülən işlərin miqyası ilbəil artır





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Səbail rayonunda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlət başçısına parkda görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, paytaxtın Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Prezident İlham Əliyev yeni parkdan paytaxtın mənzərəsini seyr etdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb. Dövlət başçısının təşəbbüsü ilə paytaxtın Səbail rayonunda salınan "Çəmbərəkənd" parkı da onlardan biridir. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.











## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Gününün 104-cü ildönümü münasibətilə Laos xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Əminəm ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Zati-alinizə möhkəm cansağlığı, səadət, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, Azərbaycan xalqına isə xoşbəxtlik və firavanlıq diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

## R.T.Orucovun Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 21.7-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Rəşad Temraz oğlu Orucov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2022-ci il*

## Ə.Q.Məmmədyarovun Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 21.7-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Əliyar Qəhrəman oğlu Məmmədyarov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2022-ci il*

## Azərbaycanın müdafiə naziri Türkiyənin milli müdafiə naziri ilə görüşüb




Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə "Efes-2022" beynəlxalq təlimini izləmək üçün qardaş ölkədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 8-də İzmir şəhərində türkiyəli həmkarı ilə görüşüb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilib, keçirilən birgə təlimlərdə hərbçilərimizin qazandığı təcrübənin əhəmiyyəti qeyd olunub.

## Azərbaycan və Qırğızıstan müdafiə nazirlərinin ikitərəfli görüşü keçirilib

İyunun 8-də İzmir şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Qırğızıstan Respublikasının müdafiə naziri general-leytenant Baktıbek Bekbolotov arasında ikitərəfli formatda görüş keçirilib.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkələrimiz arasında hərbi, hərbi-təhsil və qarşılıqlı əməkdaşlığın müxtəlif sahələri, eləcə də maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789; 2020, № 6, maddə 664, № 7, maddə 851, № 11, maddə 1335; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 548) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.43-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.44-cü maddə əlavə edilsin:

"1.0.44. **inteqrasiya təlimli təhsil müəssisəsi** - sağlamlıq imkanları məhdud şəxslərlə sağlam şəxslərin birgə təhsil alması üçün xüsusi şərait yaradılmış ümumi təhsil müəssisəsi.".

2. 4.0.29-cu maddədə "pedaqoji işçilərə" sözləri "müəllimlərə" sözü ilə, "pedaqoji işçilərin" sözləri "müəllimlərin" sözü ilə əvəz edilsin.

3. 12-ci maddə üzrə:

3.1. 12.14.6 - 12.14.13-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"12.14.6. inteqrasiya təlimli ümumtəhsil məktəbi;

12.14.7. xüsusi ümumtəhsil məktəbi;

12.14.8. ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbi;

12.14.9. internat tipli lisey;

12.14.10. internat tipli gimnaziya;

12.14.11. inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbi;

12.14.12. internat tipli xüsusi ümumtəhsil məktəbi;

12.14.13. internat tipli sanator ümumtəhsil məktəbi;";

3.2. aşağıdakı məzmunda 12.14.14-cü maddə əlavə edilsin:

"12.14.14. digər məktəblər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2022-ci il*

# "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 535-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 535-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718; 2020, № 7, maddələr 868, 895, № 9, maddə 1139, № 12 (I kitab), maddə 1469; 2021, № 2, maddə 124; № 12, maddə 1365; 2022, № 2, maddə 103) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.16-cı bənddə "ümumtəhsil internat məktəbləri" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbi" sözləri ilə və "inteqrasiya təlimli internat tipli təhsil müəssisələri" sözləri "inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbi" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 8.36-1-ci və 8.36-2-ci bəndlər əlavə edilsin:

"8.36-1. təhsilverənlərin etik davranış qaydalarını təsdiq edir;

8.36-2. müəllimlərin işə qəbulu və yerdəyişməsi qaydalarını təsdiq edir;".

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039; № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 aprel tarixli 1641 nömrəli, 13 aprel tarixli 1662 nömrəli və 31 may tarixli 1707 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.6.15-ci yarımbəndində "ümumtəhsil internat" sözləri "ümumi təyinatlı internat tipli ümumtəhsil" sözləri ilə, "təhsil müəssisələrinə" sözləri "ümumtəhsil məktəblərinə" sözləri ilə və "xüsusi məktəblər və internat məktəblərinə" sözləri "xüsusi ümumtəhsil məktəblərinə və internat tipli xüsusi ümumtəhsil məktəblərinə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 535-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2022-ci il*

# "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü maddəsinə uyğun olaraq, inklüziv təhsilin təşkili qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 477; 2012, № 12, maddə 1270; 2017, № 7, maddə 1330; 2018, № 10, maddə 2019; 2020, № 7, maddə 876, № 11, maddə 1362; 2021, № 6 (I kitab), maddə 568; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 may tarixli 1678 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "11.1-ci," sözlərindən sonra "11-1.3-cü," sözləri əlavə edilsin;

3.2. 2.2-1-ci bəndə "1.0.17-ci" sözlərindən sonra ", 11-1.3-cü" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2022-ci il*

# "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 442; 2008, № 7, maddə 602; 2011, № 2, maddə 71; 2015, № 2, maddə 83; 2017, № 7, maddə 1258; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 664, № 7, maddə 828, № 11, maddə 1335; 2021, № 6 (I kitab), maddə 543, № 8, maddə 895) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.13-cü maddədən "təyinatlı" sözü çıxarılsın;

1.2. 7.0-cı maddəsində "xüsusi məktəblər və xüsusi internat məktəblərində, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələrdə, ümumtəhsil internat məktəblərinin xüsusi təhsil" sözləri "xüsusi ümumtəhsil məktəblərində, internat tipli xüsusi ümumtəhsil məktəblərində, inteqrasiya təlimli ümumtəhsil məktəblərinin xüsusi bölmələrində, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin xüsusi" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 11-1-ci maddə əlavə edilsin:

"Maddə 11-1. **İnteqrasiyalı təhsilin təşkili**

11-1.1. Təhsil müəssisəsində psixoloji-pedaqoji və tibbi göstərişlərə (əks göstərişlərə) uyğun təhsil almaq üçün lazımi xüsusi şərait varsa, həmin müəssisənin xüsusi siniflərində sağlamlıq imkanları məhdud şəxslər üçün inteqrasiyalı təhsil təşkil edilir.

11-1.2. İnteqrasiya təlimli təhsil müəssisəsinin rəhbərliyi şəxslərdə fiziki çatışmazlıq, əqli və (və ya) psixi ləngimələrə görə təlim və ya peşə təhsili, yaxud konkret bir peşə (ixtisas) üzrə məhdudiyyət barədə əks göstəriş yoxdursa, onların qəbuluna etiraz edə bilməz.

11-1.3. İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.";

1.4. 12.2-ci maddə ləğv edilsin.

**Maddə 2.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830, № 11, maddələr 1329, 1335, № 12 (I kitab), maddə 1420; 2021, № 2, maddə 108, № 6 (I kitab), maddə 547, № 11, maddə 1209) 14.5.2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"14.5.2. ümumi təhsil müəssisələri (ibtidai, ümumi orta və tam orta ümumtəhsil məktəbləri, lisey, gimnaziya, inteqrasiya təlimli ümumtəhsil məktəbi, xüsusi ümumtəhsil məktəbi, ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbi, internat tipli lisey, internat tipli gimnaziya, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbi, internat tipli xüsusi ümumtəhsil məktəbi, internat tipli sanator ümumtəhsil məktəbi və digər məktəblər);".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 may 2022-ci il*



# Mütərəqqi islahatlar uğurlu nəticələr verir

### İlham Əliyevin inkişaf siyasəti dövlətimizi qarşıda duran hədəflərə sürətlə çatdırır

**Ötən həftə "Bakı Enerji Həftəsi" çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanın 2022-ci ildəki makroiqtisadi göstəricilərini də diqqətə çatdırdı.**

Beləliklə, bu ilin ötən dövrü ərzində ölkədə ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində isə 15 faizdən artıq olub. Dövlət başçısının dediyi kimi, bütün bunlar islahatların və toplanılan gəlirlərin yönləndirilməsinin təzahürüdür.

### Pandemiyanın yaratdığı çətinliklər geridə qalıb

Son illər dünyanın bütün ölkələrində iqtisadi baxımdan çətinliklər yaşandı. Koronavirus pandemiyası səbəbindən sərhədlərin bağlanması, xaricə gediş-gəlişin dayanması, turizmin kəskin azalması öz növbəsində bir çox dövlətlərin iqtisadiyyatlarına mənfi təsir göstərdi. Ən böyük iqtisadi azalmalar isə bir çox ölkələrdə iqtisadi fəaliyyət sahələrinin öz işini dayandırması səbəbindən baş verdi.

Pandemiya Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşmədi. Lakin əvvəlki dövrlərdə olduğu kimi respublikamız bu böhrandan da üzüağ çıxdı və pandemiyanın iqtisadiyyatda dərin fəsadlara yol açmasına imkan verilmədi. Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, pandemiya ilə əlaqədar iqtisadi göstəricilərin azalmasına, neftin qiymətinin dəfələrlə aşağı düşməsinə baxmayaraq, Azərbaycan dövləti bütün sosial proqram və layihələri həyata keçirməkdə davam etdi.

2020-ci ilin bütün ölkələr üçün iqtisadi sahədə ağır il olmasına baxmayaraq, Azərbaycan bu vəziyyətdən daha az itkilərlə çıxdı. Ötən il hələ dünyada cərəyan edən məlum pandemiya şəraitində Azərbaycan iqtisadiyyatı artım dinamikasına köklənməklə mühüm göstəricilərə imza atdı. Belə ki, Azərbaycanda 2021-ci ildə əvvəlki illə müqayisədə 5,6 faiz çox ümumi daxili məhsul istehsal olundu. İqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 7,2 faiz artdı. Sənaye müəssisələri tərəfindən 2021-ci ildə 5,2 faiz çox məhsul istehsal olundu. Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 20 faizə yaxın çox oldu. Valyuta ehtiyatlarımızda artım 2,2 milyard dollar təşkil etdi. Azərbaycanın ticarət əlaqələrinin müsbət saldosu 9,4 milyard dollar oldu. "Bu göstəricilərlə hər bir ölkə öyünə bilər. Amma bizim üçün bu, təbiidir. Çünki Azərbaycan xalqı görür ki, uzunmüddətli, düzgün strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadi inkişaf göz önündədir", - deyə Prezident İlham Əliyev bildirib.

Makroiqtisadi uğurlar həm də ondan xəbər verir ki, Azərbaycan pandemiyanın yaratdığı çətinlikləri artıq geridə qoyub və 2021-ci il bu baxımdan mühüm mərhələ ili oldu.

### Savaşdan yüksəlişə

Bütövlükdə 2021-ci il Azərbaycan üçün növbəti uğurlu mərhələ kimi tarixə düşdü. Dünyada davam edən və yeni formaları meydana çıxan müxtəlif böhranlar şəraitində Azərbaycanın ili uğurla başa vurması həyata keçirilən siyasətin düzgünlüyündən xəbər verdi ki, bu da respublikamızda gedən iqtisadi proseslərin və islahatların məntiqi nəticəsi kimi tarixə düşdü.

Bütün bunlar həm də ondan xəbər verir ki, makroriqtisadi artım yüksək templə davam etdiriləcək və ölkəmiz 2022-cu ildə də iqtisadi sferada uğulara nail olacaq. Göründüyü kimi, iqtisadi artım nəiniki davamlıdır, hətta daha sürətlidir.

Azərbaycanın iqtisadi sferada nail olduğu artımlarla bağlı başqa bir mühüm məqam ondan ibarətdir ki, respublikamız bütün bu uğurlara müharibədən dərhal sonra nail olub. Dünya təcrübəsi göstərir ki, müharibədən çıxmış dövlətlər iqtisadi sahədə irəliləyişlərə dərhal nail ola bilmirlər, bunun üçün uzun illər lazım gəlir. Tarixdə müharibədən çıxmış bir dövlətin qısa zamanda iqtisadiyyatda artıma nail olunmasına rast gəlinməyib.

Azərbaycanın müharibədən çıxmış ölkə kimi nail olduğu iqtisadi artımı ondan xəbər verir ki, respublikamızda münbit iqtisadi mühit yaranıb. Eyni zamanda müsbət iqtisadi göstəricilərin Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin fonunda əldə edilməsi bir daha Prezident İlham Əliyevin iqtisadi strategiyasının dövlətimizin qarşısında qoyduğu məqsədləri layiqincə təmin etdiyini göstərir. Bütövlükdə ötən ilin sosial-iqtisadi yekunları göstərdi ki, Azərbaycan öz daxili imkanları hesabına qısa zamanda yüksəlişə nail olmağı bacaran dövlətdir.

Onu da qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı inkişaf-2022" hesabatında Azərbaycan mümkün 100 baldan 73,5 bal toplayaraq 163 ölkə arasında 50-ci pillədə qərarlaşıb. Ölkəmiz 2021-ci il üzrə hesabatdakı mövqeyi ilə müqayisədə (55-ci yer) 2022-ci ilin hesabatında 5 pillə irəliləyərək dünyada hər üç ölkədən ikisini qabaqlayıb və bu göstəriciyə əsasən Cənubi Qafqaz regionunda liderdir.

Bütün bunlar respublikamızda gedən düzgün iqtisadi proseslərin və həyata keçirilən mütərəqqi islahatların nəticəsidir. Başqa cür desək, bütün bu iqtisadi uğurlar şəffaflaşmanın, korrupsiya ilə mübarizənin, bürokratik əngəllərin aradan qaldırılmasının, maliyyə nizam-intizamının təmin edilməsinin, investisiya mühitinin daha da sağlamlaşdırılmasının bəhrələridir. Göründüyü kimi, Prezident İlham Əliyevin inkişaf siyasəti dövlətimizi qarşıda dayanan bütün hədəflərə uğurla çatdırır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Çili Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir

**İyunun 8-də Milli Məclisin Sədri Sahibə Qafarova Çili Respublikasının ölkəmizdəki səfiri Rodriqo Arkos ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfiri salamlayan Sahibə Qafarova Azərbaycanla Çili arasında diplomatik əlaqələrdən, münasibətlərimizin hazırkı vəziyyətindən danışıb. Qeyd olunub ki, Azərbaycan və Çili ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq edir. Həmçinin bildirilib ki, hər iki ölkə Qoşulmama Hərəkatının üzvləridir və bu, əməkdaşlıq üçün vacib platformadır.

Spiker deyib ki, parlamentlərarası münasibətlər ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin mühüm tərkib hissələrindən biridir. Çili Milli Konqresinin Senatında Azərbaycan parlamenti ilə dostluq qrupunun fəaliyyət göstərməsi təqdirəlayiqdir. İnanırıq ki, yeni seçilmiş Deputatlar Palatasında da belə bir qrup formalaşacaq.

Milli Məclisin Sədri qarşılıqlı təmasların, səfərlərin məlumatlılığın artırılması, xalqlarımızın bir-birini daha yaxından tanıması baxımından əhəmiyyətindən danışıb, Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib.

Görüşdə 44 günlük Vətən müharibəsindən danışan Sahibə Qafarova Azərbaycanın sülh və sabitliyin tərəfdarı olduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanın Vətən müharibəsində qələbəsi ilə regionda yeni reallıqlar yaranıb. İnanırıq ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri tam olaraq yerinə yetirəcək və tezliklə iki ölkə arasında sülh sazişi imzalanacaqdır. Sülh sazişinin imzalanması bütün region ölkələrinin inkişafı baxımından əhəmiyyətli olacaq.

Çilinin ölkəmizdəki səfiri Rodriqo Arkos ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb. O, bu baxımdan bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinin hər iki tərəf üçün faydalı olacağını qeyd edib. Səfir ölkəsinin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini dəstəklədiyini diqqətə çatdırıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi və yeni əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ortaq dəyərlər əlaqələrin inkişafı üçün mühüm zəmindir



İyunun 8-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycanda səfərdə olan İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının üzvləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətini salamlayan Ziyafət Əsgərov İranda qatar qəzasında həlak olanların ailələrinə başsağlığı verib, ölənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyib. Ziyafət Əsgərov Azərbaycan və İran arasında mehriban qonşuluq və yaxın əməkdaşlıq münasibətlərindən söz açaraq ortaq dini və mədəni dəyərlərin iki ölkəni birləşdirdiyini qeyd edib.

Müstəqillik illərində Azərbaycanın İranla münasibətlərinin inkişafında Ulu Öndər Heydər Əliyevin rolunu xüsusi vurğulayan Ziyafət Əsgərov bu siyasəti davam etdirən Prezident İlham Əliyevin xidmətləri sayəsində ikitərəfli əlaqələrimizin keyfiyyətcə yeni mərhələyə daxil olduğunu bildirib. O, dövlət rəhbərlərinin siyasi iradələri ilə imzalanan sənədlərin münasibətlərimizin inkişafı üçün güclü hüquqi baza yaratdığını diqqətə çatdırıb və birgə səylərlə həyata keçirilən regional layihələrin xalqlarımızın rifahına xidmət etdiyini vurğulayıb.

Ziyafət Əsgərov Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərinə görə İran rəhbərliyinə təşəkkürünü bildirib, işğal dövründə Ermənistan tərəfinin törətdiyi dağıntıların miqyası, təcavüzkarın islam dəyərlərinə və məscidlərə qarşı barbar münasibəti barədə danışıb.

İran İslam Respublikası İslam Şura Məclisinin nümayəndə heyətinin rəhbəri Hüseyn Nuşabadi səmimi qəbul üçün təşəkkür edib. Hüseyn Nuşabadi Azərbaycan və İranın ortaq tarixi və mədəni dəyərlərə malik olmasını əlaqələrin inkişafı üçün gözəl bir zəmin kimi dəyərləndirib. O, İranın Azərbaycanla hər sahədə daha sıx əməkdaşlıq əlaqələri qurmaq niyyətində olduğunu vurğulayıb, əlaqələrin genişləndirilməsi potensialı, bu işdə parlamentlərin verə biləcəyi töhfələrlə bağlı fikirlərini açıqlayıb.

Görüşdə nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində birgə səylərin əhəmiyyəti vurğulanıb, regionda sülhün və iqtisadi inkişafın möhkəmlənməsinin vacibliyinə toxunulub, Azərbaycan və İran arasında bir çox sahələrdə, o cümlədən parlamentlər arasında əməkdaşlığın genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi müzakirə olunub.

Görüşdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvləri Aydın Mirzəzadə, Arzu Nağıyev, İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının üzvləri Yaqub Rezazadə, Seyid Əhməd Avayi, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Əlaqələrin daha da möhkəmlənməsi üçün geniş imkanlar var

İyunun 8-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Hüseyn Nuşabadinin başçılıq etdiyi İran İslam Respublikası İslam Şura Məclisinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Səməd Seyidov qonaqları salamlayaraq İranla münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini söyləyib. O, ortaq dəyərlərə malik xalqlarımızın dost və mehriban qonşuluq münasibətlərindən bəhs edib. Dövlətlərimiz arasında siyasi, iqtisadi, mədəni əlaqələrin daha da möhkəmlənməsi üçün geniş imkanların mövcud olduğunu deyib.

Ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin genişləndirilməsindən bəhs edən komitə sədri ticarət, nəqliyyat və enerji mübadiləsi ilə bağlı layihələrdən söhbət açıb. Qeyd edib ki, "Xudafərin" və "Qız qalası" Su-Elektrik stansiyalarının tikintisi və birgə istifadə edilməsi əməkdaşlığımızın parlaq nümunələridir.

Söhbət zamanı Səməd Seyidov münasibətlərimizin inkişafında parlamentlərin rolunu vurğulayıb, deputatlarımızın qarşılıqlı səfərlərinin əhəmiyyətindən danışıb. O, hər iki ölkənin qanunvericilik orqanlarında parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyət göstərməsini təcrübə və informasiya mübadiləsi baxımından önəmli hesab etdiyini deyib.

Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində zəfər əldə edib. O, torpaqlarımızın işğaldan azad olunduğunu, ərazi bütövlüyümüzün bərpa edildiyini söyləyib. Təəssüflə bildirib ki, Ermənistanın işğalı zamanı məscidlərimiz, tarixi və mədəniyyət abidələrimiz, digər infrastruktur obyektləri tamamilə məhv edilib. Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri sürətlə həyata keçirilir.

İran parlament nümayəndə heyətinin rəhbəri Hüseyn Nuşabadi səmimi söhbətə görə minnətdarlığını ifadə edib. O, İranın Azərbaycanla əlaqələrin inkişafında hər zaman maraqlı olduğunu bildirib, iki ölkə arasında parlament diplomatiyasının inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu söyləyib. Bu sahədə əlaqələrin möhkəmləndirilməsində deputatlarımızın qarşılıqlı səfərlərinin vacibliyindən bəhs edib.

Qonaq ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığın əhəmiyyətindən söhbət açıb. İran parlamentinin deputatı ölkəsinin qardaş, dost Azərbaycan Respublikasının ərazi bütövlüyünü daim dəstəklədiyini qeyd edib. Bildirib ki, İran İslam Respublikası Qarabağ bölgəsini daim Azərbaycanın ərazisi kimi görüb.

Görüşdə iştirak edən Milli Məclisin deputatı Sahib Alıyev Azərbaycan-İran münasibətlərinə dair fikirlərini bölüşüb.

Söhbət zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin və bu istiqamətdə birgə səylərin davam etdirilməsinin önəmi vurğulanıb.

Görüşdə İran nümayəndə heyətinin üzvləri Yaqub Rezazadə, Seyid Əhməd Avayi, İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

İyunun 8-də ədliyyə naziri Fikrət Məmmədov Lənkəran şəhərində Lənkəran, Astara və Lerik rayonlarından və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib. Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək onların ədliyyə fəaliyyəti barədə müraciətlərinə baxılıb, xüsusilə Vətən müharibəsi iştirakçılarının qayğılarına həssaslıqla yanaşılıb, qaldırılan məsələlərin bəzilərinin yerində həlli ilə bağlı tədbirlər görülüb, digərləri isə araşdırılması üçün nəzarətə götürülməklə nazirliyin qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri onların müraciətlərinə daim diqqət və həssaslıqla yanaşılmasına, yerlərdə qəbulların keçirilməsi ilə bağlı yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

***AZƏRTAC***

# XİN: Ermənistanın təxribatçı addımı beynəlxalq vasitəçilərin səylərinə kölgə salır

İyunun 8-də Ermənistanın Baş prokuroru Azərbaycan Respublikasının ərazisinə qanunsuz səfər edərək qondarma qurumun "nümayəndəsi" ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistanın Baş prokurorunun ərazilərimizə qanunsuz səfərini şərh edib. "Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşı atılan bu addım beynəlxalq hüququn fundamental norma və prinsiplərini pozmaqla yanaşı, postmünaqişə mərhələsində Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına, o cümlədən bölgədə sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində göstərilən səylərə ciddi xələl gətirir.

Ermənistan tərəfinin bu məsuliyyətsiz və təxribatçı addımı, bu ölkənin normallaşma prosesində səmimi olmadığını, o cümlədən beynəlxalq vasitəçilərin səylərinə kölgə saldığını bir daha nümayiş etdirir.

Bu təxribatçı addımın bütün məsuliyyəti Ermənistan tərəfinin üzərindədir", - deyə XİN-in şərhində bildirilib.

# XXV Avrasiya İqtisadi Zirvə toplantısının ilk günü başa çatıb

**İyunun 8-də İstanbulda işə başlayan XXV Avrasiya İqtisadi Zirvə toplantısının ilk günü başa çatıb.**






AZƏRTAC xəbər verir ki, tədbirdə ölkəmiz Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə, Energetika Nazirliyi və Ələt Azad İqtisadi Zonasının nümayəndələri tərəfindən təmsil olunur.

Dörddəbir əsr ərzində mütəmadi olaraq keçirilən, dövlət və hökumət başçılarının, parlamentarilərin və tanınmış ictimai xadimlərin qatıldığı mötəbər toplantının builki zirvəsində postpandemiya dövründə dünyada yaşanan sosial və iqtisadi problemlərin həlli yolları, eləcə də enerji və ərzaq təhlükəsizliyi məsələləri müzakirə edilir.

Toplantıda əvvəlcə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın tədbir iştirakçılarına müraciət məktubu oxunub.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın oxuduğu məktubda ilk növbədə toplantı çərçivəsində müzakirə olunacaq enerji, iqlim dəyişikliyi, qanunsuz miqrasiya kimi mövzuların hazırda dünya üzrə əsas problemlər olduğu bildirilib.

Açılış nitqi ilə çıxış edən "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver toplantıda postpandemiya dövründə dünya iqtisadiyyatının gələcəyi, inkişafı, eləcə də dünyada sülhün bərqərar olması istiqamətində atılacaq addımların müzakirə olunacağını deyib.

Toplantıda çıxış edən Türkiyənin sabiq Baş naziri, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım Qarabağın 30 illik işğalı dövrü ərzində bir milyondan artıq azərbaycanlının öz yurd-yuvasını tərk etmək məcburiyyəti qarşısında qaldığını xatırladıb. Binəli Yıldırım, nəhayət ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə bu problemin öz həllini tapdığını bildirib, hazırda Azərbaycan dövləti tərəfindən Qarabağda aparılan bərpa-yenidənqurma işləri haqqında danışıb.

Toplantı əsnasında Binəli Yıldırıma Azərbaycan ilə Türkiyə arasında dostluq, siyasi, iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə "Azərbaycanım" beynəlxalq jurnalının təsis etdiyi "Azərbaycanın dostu" qızıl ordeni təqdim olunub.

Sonra tədbir panel iclaslarla davam etdirilib.

"Yeni bir enerji iqtisadiyyatı" adı altında keçirilən "Qlobal iş birlikləri arasında əməkdaşlıq və ortaqlıq" mövzulu panel iclasda təqdimatla çıxış edən Ələt Azad İqtisadi Zonasının əməkdaşı Elşən Rəhimov təmsil etdiyi qurum barədə iştirakçılara geniş məlumat verib. Zonanın regionda yerləşməsi, unikal qanunvericiliyi, vergi, gömrük və biznes güzəştləri baxımından bütün üstünlükləri barədə edilən təqdimatda burada görülmüş və görüləcək işlər, eləcə də infrastruktur haqqında detallı danışılıb.

"Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə baş tutacaq toplantının ikinci günündə Şeyxülislam Allahşükür Paşazadə "Qida, ərzaq, əmtəə böhranı, müharibə Paris Anlaşmasını kölgələyəcəkmi?" mövzusunda panel iclasda əsas məruzəçi kimi çıxış edəcək, dünyada mövcud iqtisadi problemlərin mənəvi baxımdan dəyərləndirilməsinə dair fikirlərini bölüşəcək.

İki gün davam edəcək Zirvə toplantısı çərçivəsində "Yeni bir enerji iqtisadiyyatı", "Qlobal iş birlikləri arasında əməkdaşlıq və ortaqlıq", "Daha rəqəmsal dünyaya doğru", "Daha yaşıl bir dünyaya doğru" kimi bir sıra mövzularda panel iclaslar keçirilir.

Qeyd edək ki, Şeyxülislam Allahşükür Paşazadə tədbir çərçivəsində Avrasiya İqtisadi Zirvə toplantısının nüfuzlu iştirakçıları ilə görüşlər keçirəcək.

# Qurtuluşa aparan yolun başlanğıcı



**Müasir Azərbaycan dövlətçiliyinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan bütün siyasi hadisələri Azərbaycanın taleyində müsbətə doğru dəyişikliklərin əsasını qoymaqla tariximizdə yeni inkişaf mərhələsinin başlanğıcı olub.**

Bu baxımdan 29 il əvvəl - 1993-cü il iyunun 9-da Heydər Əliyevin xalqımızın çağırışı ilə Naxçıvandan Bakıya gəlməsi müasir dövlətçilik tariximizin ən böyük siyasi hadisəsidir. Müstəqilliyimizin məhvolma təhlükəsi ilə üz-üzə qaldığı həmin təlatümlü günlərdə Ulu Öndərin başlatdığı xilaskarlıq missiyası bu gün qürur duyduğumuz güclü Azərbaycan dövlətinin qurulması ilə nəticələndi.

Ümumiyyətlə, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəni başına götürmüş xaos, anarxiya, siyasi və iqtisadi böhran şəraitində xalqımızın Heydər Əliyevə üz tutması heç də təsadüfi deyildi. İnsanlar buna qədər Heydər Əliyevdən müdrik, Azərbaycanın və bütün xalqımızın maraqlarına xidmət edən rəhbərlik görmüşdülər. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan hələ sovetlər dönəmində geridə qalmış aqrar ölkədən qabaqcıl sənaye respublikasına çevrilmiş, dünyada tanınmağa başlamışdı. Heydər Əliyev həmin dövrdə ermənilərin Azərbaycana olan bütün əsassız və saxta iddialarının qarşısını almış, onların torpaqlarımızı qəsb etmələrinə imkan verməmişdi. Heydər Əliyev 1990-cı ilin 20 Yanvar faciəsi zamanı xalqımızın etiraz səsini bütün dünyaya çatdıran ilk şəxs olmuşdu. Və Heydər Əliyev 1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra Naxçıvanı erməni işğalından qətiyyətlə qorumuş, xilas etmiş, böyük uzaqgörənliklə sovet qoşunlarının muxtar respublikadan çıxarılmasına nail olmuşdu.

Bütün bunlar müasir Azərbaycan dövlətçiliyinin Heydər Əliyevin adı ilə bağlı olan qürurlu səhifələridir. Bu günümüzə işıq salan, gələcəyə doğru ən gözəl istiqaməti verən bu tarixi hadisələrin hər birinin müəllifi Ulu Öndərimizdir. Ona görə hələ 1993-cü ildə ölkəmizin uçuruma doğru getdiyi təlatümlü günlərdə xalqımız gözəl bilirdi ki, Azərbaycanı bu vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilər. Xalq Heydər Əliyevə inanır, böyük şəxsiyyətin müdrikliyinə, siyasi təcrübəsinə, uzaqgörənliyinə, dövlətçilik təfəkkürünə güvənirdi. Bu inam və güvən dövlətçiliyimizin qorunması naminə praktik müstəvidə real addımların atılması ilə hələ 1993-cü ilin isti iyun günlərindən əvvəl, 1992-ci ilin payızından özünü göstərməyə başlamışdı. Belə ki, həmin ilin noyabr ayında Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması dövlətimizin və hələ kövrək olan müstəqilliyimizin taleyindən narahat olan xalqımızın Ulu Öndərin ətrafında səfərbər olmaları idi.

Həmin dövrdə ölkədə baş alıb gedən siyasi böhran və anarxiya 1993-cü ilin ortalarına doğru daha xaotik vəziyyət yaratmışdı. Faktiki olaraq respublikamızda hakimiyyətsizlik idi. Həmin il iyunun 4-də Gəncədə baş verən hadisələr isə hərbi-siyasi böhranı daha da dərinləşdirdi. Belə bir vəziyyətdə dövlətimizin və xalqımızın həqiqi liderə, güclü rəhbərə ehtiyacı vardı, ona görə cəmiyyətin bütün təbəqələrinin nəzərləri Naxçıvana yönəlmişdi. Xalqımızın böyük oğlu Heydər Əliyevin proseslərə müdaxilə etməsinin labüdlüyü həmin günlərdə bütün Azərbaycan ictimaiyyətinin siyasi istəyi idi. Hər kəs yaxşı anlayırdı ki, ölkədəki hərc-mərcliyin, itaətsizliyin, anarxiyanın, siyasi çəkişmələrin, Gəncədə başlanmış qardaş qırğınının, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünün qarşısını yalnız bu böyük insan aradan qaldıra bilərdi. Hətta hakimiyyətdə olanlar da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsində israrlı idilər.

1993-cü il iyunun 9-da Heydər Əliyevin olduğu təyyarə Bakı Hava Limanına endi. Müstəqilliyimizin və dövlətçiliyimizin taleyinin sual altında olduğu həmin həssas məqamda Heydər Əliyevin gəlişi xalqımızın ümidlərini cücərtdi. Heydər Əliyevin təyyarədən endiyi kadrları izlədikcə "Heydər baba, xalqı bu bəladan qurtar!" kimi şüarlarla Ulu Öndəri qarşılmağa çıxmış insanların əsl bayram əhvali-ruhiyyəsində olduğunu görürük. O zaman xalq sevinirdi. Çünki hər kəs ölkəni çətin vəziyyətdən ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə qəlbən inanırdı.

Məhz Heydər Əliyevin sayəsində həmin vaxt Azərbaycanda qardaş qırğınının qarşısı alındı. Məhz Heydər Əliyevin qətiyyəti sayəsində respublikamızla bağlı xarici siyasi dairələrin işə saldığı məkrli planların hamısı iflasa uğradı. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə parlamentdə təmsil olunan bütün siyasi qrupların məhz Ulu Öndərin xilaskarlıq missiyasına olan ümid və inamlarının göstəricisi idi.

Beləliklə, Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəlişi və 6 gün sonra Ali Sovetin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. Heydər Əliyevin banisi və qurucusu olduğu müasir Azərbaycan dövləti bu gün onun ideyaları ilə yüksəlir, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər də Heydər Əliyevin ideyalarının möhtəşəm təntənəsidir.

Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanı qurtuluşa aparan yolun başlanğıcı oldu. Bu gün Azərbaycanın əldə etdiyi hər bir uğur isə göstərir ki, 29 il əvvəl başlanan Heydər Əliyev siyasətinin alternativi yoxdur.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# Uğurlarımız BMT-nin diqqət mərkəzindədir

## Ölkəmiz "Davamlı inkişaf məqsədləri indeksi"ndə 5 pillə irəliləyib



Azərbaycan Birləşmiş Millətlər Təşkilatının (BMT) bir çox qurumları ilə fəal və faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirməkdədir. Bu sırada BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), İnkişaf Proqramı (BMT İP), Sənaye İnkişaf Təşkilatı (UNIDO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Ümumdünya Ərzaq Proqramı (ÜƏP), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik kimi qurumlarla münasibətləri qeyd etmək olar.

Eyni zamanda onu da demək lazımdır ki, BMT-nin xüsusi qurumları qismində İnkişaf Proqramı və Sənaye İnkişafı Təşkilatı ilə bizim xüsusi əlaqələrimiz ildən-ilə inkişaf edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Rəşad Hüseynov şərhində belə yazır: "BMT-nin illik açıqlanan "Dayanıqlı İnkişaf Hesabatı" hər bir ölkənin 2030-cu ilədək müəyyən edilmiş dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün hansı mövqedə olduğunu qiymətləndirən vacib sənəddir. Hesabat Dayanıqlı İnkişaf üzrə 2030-cu il gündəliyində nəzərdə tutulmuş 17 ümumbəşəri inkişaf məqsədlərinin nəticələrini özündə əks etdirir".

Rəşad Hüseynov məlumat verir ki, 2022-ci il üçün hazırlanmış hesabat sənədində ölkəmiz ötən illə müqayisədə 5 pillə irəliləmiş və mümkün 100 baldan 73,5-ni toplayaraq 163 ölkə arasında "Davamlı İnkişaf Məqsədləri (DİM) indeksi" üzrə 50-ci yerdə qərarlaşmışdır. Bu göstəriciyə görə, Azərbaycan Cənubi Qafqaz regionunda (Gürcüstan 51-ci yer, Ermənistan 66-cı yer) liderdir və dünya üzrə hər üç ölkədən ikisini geridə qoyur. Müqayisə üçün demək olar ki, Şərqi Avropa və Mərkəzi Asiya regionunda bu indeks üzrə orta göstərici 71,6 baldır ki, bu da göründüyü kimi, Azərbaycanın göstəricisindən aşağıdır.

Hesabatda ölkəmiz BMT-nin "Yaxşı səhiyyə və rifah", "Keyfiyyətli təhsil", "Yoxsulluğa son", "Təmiz su və sanitariya", "Davamlı şəhərlər və icmalar", "Məsuliyyətli istehsal və istehlak", "İqlim dəyişikliyinə qarşı mübarizə və torpaq ekosisteminin mühafizəsi məqsədləri üçün tərəfdaşlıq" kimi Davamlı İnkişaf Məqsədləri (DİM) üzrə irəliləyişə nail olmuşdur. Hesabatda müəyyən edilmiş altməqsədlərə gəldikdə isə, qiymətləndirilən 83 məqsəddən 35-də (qismən və ya nəzərəcarpacaq) irəliləyiş əldə edilmişdir.

Hər bir ölkənin fəaliyyəti digər ölkələrin DİM-lərə nail olmaq imkanlarına müsbət və ya mənfi təsir göstərə bilər. Bu təsirləri müəyyən etmək üçün hesabatda eyni zamanda "Yayılma və ya təsir indeksi" hesablanır ki, bu da üç istiqamət üzrə qiymətləndirilir: ekoloji və sosial təsirlərin beynəlxalq ticarətdə təcəssümü, iqtisadiyyat və maliyyə, təhlükəsizlik. Bu qiymətləndirmə üzrə Azərbaycanın göstəricisi 97,3 bal olmuşdur.

BMT-nin müvafiq qurumları mütəmadi olaraq uğurlarımızı təhlil edir, nailiyyətlərimizi qeydə alırlar. Xatırladaq ki, 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 165 ölkə arasında 55-ci olmuşdur. Bu isə imkan verir ki, ölkəmiz gələcəkdə də BMT-nin ixtisaslaşdırılmış təsisatları ilə əməkdaşlığı onların əhatə etdiyi bütün prioritet sahələr üzrə yüksələn xətt üzrə inkişaf etdirsin.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın tranzit ölkə kimi beynəlxalq əhəmiyyəti artıb

## Getdikcə daha çox ölkə trans-Xəzər marşrutunu seçir

Rusiya-Ukrayna münaqişəsi dünyada təkcə ərzaq təminatına mənfi təsir göstərməyib. İki ölkə arasındakı gərginlik həm də beynəlxalq logistikaya ciddi zərbə vurub. Asiyadan Avropaya və geriyə daşınan bir çox yüklər Rusiya ilə Ukrayna ərazisindən keçdiyi üçün silahlı qarşıdurma səbəbindən bu mühüm nəqliyyat marşrutu iflic vəziyyətə düşüb.



Hadisələrin belə gedişi trans-Xəzər marşrutunun əhəmiyyətini daha da artırıb. Yüklərin Asiyadan Avropaya təhlükəsiz və qısa müddətdə daşınması bu nəqliyyat dəhlizi ilə yük göndərən və yük qəbul edən ölkələr üçün sərfəlidir. Bunun üçün həm etibarlı texniki təminat, həm də sərfəli tariflər mövcuddur. Bu üzdən trans-Xəzər marşrutu bir daha özünün etibarlılığını və əlverişliliyini sübut edir.

Bəs bu nəqliyyat dəhlizinin üstünlükləri nədir? Birincisi, yüklərin daşınmasında vaxt və qiymət baxımından tərəflər üçün əlverişlidir. Yəni yüklərin nəqli alıcılar üçün tez və ucuz başa gəlir. İkincisi, yüklərin mənzilbaşına vaxtında çatdırılması üçün bütün texniki imkanlar mövcuddur. Məsələn, Asiyadan Avropaya göndərilən yüklər Xəzər dənizinin üzərindən tez çatdırılması üçün güclü bərə donanması mövcuddur. Ən başlıcası isə, yüklərin bu marşrut üzərindən daşınması təhlükəsizdir. Odur ki, dünya trans-Xəzər marşrutunu ən etibarlı yükdaşıma vasitəsi hesab edir. Azərbaycan isə "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq marşrutlarının qovuşuğunda yerləşdiyindən bu marşrutda açar ölkə statusundadır.

Rusiya-Ukrayna münaqişəsi ilə əlaqədar Çindən Finlandiyaya gedən ilk blok qatar yükləri Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə yola salınıb. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Traceka) çərçivəsində Qazaxıstanın Kurik limanından "Ağdam" və "Naxçıvan" gəmi-bərəsi ilə daşınan 54 konteynerdən ibarət blok qatarının birinci hissəsi mayın 27-də Bakı limanına çatdırılıb. Bərə terminalına yan alan yüklərin boşaldılması əməliyyatı operativ formada - 1 saat 45 dəqiqə ərzində icra edilib. "Naxçıvan" gəmi-bərəsində də sənədləşmə işləri tamamlandıqdan sonra boşaldılan yüklər operativ şəkildə alıcılara göndərilib. Finlandiyanın "Nurminen Logistics" şirkətinə məxsus yüklərin əsas hissəsi avtomobil ehtiyat hissələri, plastik məhsullar, tekstil avadanlıqları və qeyri qida məhsullarından ibarətdir. Konteynerləşdirilmiş formada, platformalar üzərində daşınan bu yüklər Gürcüstanın Poti limanına yola salınaraq oradan Qara dəniz vasitəsilə gəmi-bərələrlə Avropaya, Ruminyanın Konstansa limanına göndərilib. Daha sonra isə blok qatar son təyinat ünvanı olan Finlandiyaya çatdırılacaq. Qeyd edək ki, bir müddət əvvəl "Nurminen Logistics" şirkətinin rəhbər heyəti Bakı Beynəlxalq Dəniz Ticarət Limanına səfər edib, texniki imkanlarla tanış olduqdan sonra blok qatarın məhz bu marşrutla daşınmasına qərar vermişdi.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) regionda davamlı inkişaf məqsədlərini dəstəkləmək üçün Bakı limanı ilə əməkdaşlıqda maraqlıdır. Bu məqsədlə mayın 27-də AYİB-in Avrasiyada infrastruktur üzrə rəhbəri xanım Yelena Qordeyeva yeni tərəfdaşlıq imkanlarını araşdırmaq üçün Bakı limanına səfər edib. Səfər zamanı mövcud nəqliyyat dəhlizlərinin daha rəqabətədavamlı, yaxşı idarə olunan, yaşıl, inklüziv, dayanıqlı və inteqrasiyalı olmasına dəstək məqsədilə yeni layihələrə başlamaq və yeni əməkdaşlıq sahələrinin yaradılmasına dair strateji fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Bakı limanının yükaşırma qabiliyyətinin artırılması, yeni yaşıl liman qurğularının tikintisi, o cümlədən limanda birbaşa bərpaolunan enerji mənbələrinin formalaşdırılması ilə regional dayanıqlı iqtisadiyyatın inkişafına töhfə veriləcək.

Ümumiyyətlə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı xarici əlaqələrini genişləndirməyə xüsusi önəm verir. Xəbər verildiyi kimi, limanın əməkdaşları bu günlər Kanadanın Vankuver şəhərində keçirilən Beynəlxalq Limanlar və Limanlar Assosiasiyasının Dünya Limanları konfransında iştirak etmişlər. Limanın baş direktoru Taleh Ziyadovun rəhbərlik etdiyi nümayəndə heyəti həmçinin qlobal dəniz limanı sahəsində rəqabət qabiliyyətinin artırılması və dünyanın əsas liman regionlarının performansının yüksəldilməsi məqsədilə boşluqları bağlamaq (Close the Gaps) mövzusunda təşkil olunan və 400-dən çox aparıcı liman və tərəfdaşları yeni formatda bir araya gətirən IAPH 2022 tədbirinə qatılmışdır. Bundan əlavə, Bakı limanı sözügedən konfransın Vankuver Konqres Mərkəzində keçirilən "Yaşıl gəmiçilik dəhlizlərinin əlaqələndirilmiş və davamlı şəbəkəsini necə inkişaf etdirməli" adlı sesiyasına sponsorluq etmişdir. Sessiyada ekspertlər və tanınmış liman rəhbərləri Yaşıl Nəqliyat Dəhlizləri şəbəkəsinin necə formalaşacağı və hansı meyarların dənizdə karbon emissiyalarının azaldılmasına davamlı təsir edəcəyi barədə fikirlərini bölüşmüşlər.

Konfrans zamanı Bakı limanının nümayəndə heyəti ümumi dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına töhfə vermək məqsədilə mövcud və gələcək tərəfdaşlıq imkanlarını müzakirə etmək üçün IAHP-nin İcraçı direktoru Patrik Verhoeven, eləcə də müxtəlif ölkələrin liman rəhbərləri ilə görüşlər keçirmişdir. Məlumat üçün bildirək ki, IAPH Beynəlxalq Limanlar və Limanlar Assosiasiyasıdır. Assosiasiyanın dünyanın 90 ölkəsindən 200-dən çox üzvü var və təşkilat dünyada olan limanları və ya limanla əlaqəli fəaliyyət göstərən nüfuzlu biznesləri bir araya gətirir. Bakı limanı 2010-cu ildən IAPH-nin üzvü kimi qurumla strateji tərəfdaşlıq edir. Xatırladaq ki, Azərbaycan paytaxtı 2018-ci ilin mayında Mərkəzi Avrasiyada ilk dəfə keçirilən IAPH-nin Dünya Limanları Konfransına (IAPH 2018) evsahibliyi etmişdir. Bakı konfransında 65 ölkədən rekord sayda (400-dən çox) nümayəndə iştirak etmişdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Cənubi Qafqazın reallıqlarını Azərbaycan müəyyənləşdirir

## Ermənistan atəşkəsi pozaraq sərgilədiyi təxribatçı davranışla bölgədə yaranmış yeni geosiyasi proseslərin qarşısını ala bilməz

**"...Ermənistan istəsə də, istəməsə də bunu bütün dünya qəbul edir. Biz Dağlıq Qarabağ münaqişəsini həll etmişik".**

Mayın 27-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində çıxışı zamanı qətiyyətlə bəyan etdiyi kimi, sözügedən bu münaqişə tarixə qovuşub və artıq beynəlxalq aləm də bu reallığı qəbul edir. Beynəlxalq birlik Azərbaycanın Cənubi Qafqazda sülhün qarantı olduğu gerçəyini anlayır...

### İcrası mütləq olan öhdəliklər

Göründüyü kimi, 44 günlük Vətən müharibəsində Azərbaycan hərbi zəfərlə yanaşı, diplomatik qələbə də əldə edib. Bunun nəticəsidir ki, qalib tərəf olaraq postmünaqişə dövründə də bütün diplomatik danışıqların gündəliyini məhz ölkəmiz müəyyənləşdirir. Və bu gündəlik artıq aparıcı beynəlxalq təşkilatlar tərəfindən də əsas kimi götürülür.

2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə qazanılan diplomatik qələbələr ötən ilin 26 noyabrında Soçi bəyanatı ilə daha da möhkəmlənib və elə ötən ilin dekabrından Avropa İttifaqının vasitəçiliyi ilə başlayan "Brüssel prosesi"nin məqsədi də üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həllini tapması ilə bağlı olub.

Brüsseldə Avropa İttifaqının rəhbərinin, Azərbaycan Prezidentinin və Ermənistan baş nazirinin üçtərəfli görüşləri 2021-ci ilin dekabrından başlayıb. İlk görüş zamanı Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəliblər. Eyni zamanda kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi həmin vaxt geniş müzakirə olunub. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib və bildirilib ki, dəmir yolunun çəkilişinə tezliklə start verəcək. Görüş zamanı gömrük və sərhəd nəzarəti məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə də razılığa gəlinib. Bu ilin aprelində keçirilən ikinci görüş zamanı isə tərəflər Birgə Sərhəd Komissiyasının təşkil edilməsi məsələsini razılaşdırıblar.

### Proses Azərbaycanın milli maraq və mənafelərinə uyğun gedir

Aİ-nin vasitəçiliyi ilə mayın 22-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə əvvəlki üçtərəfli görüşlərdə olduğu kimi, ölkəmiz diktə edən tərəf oldu, tərəflərin razılaşdıqları bütün məsələlər "Brüssel prosesi"nin Azərbaycanın milli maraq və mənafelərinə uyğun getdiyinin əyani təzahürü oldu. Görüşdə kommunikasiya ilə əlaqədar nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurətindən bəhs olundu. Tərəflər Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəldilər. Budəfəki danışıqlarda ən çox müzakirə olunan məsələlərdən biri də iki dövlət arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı oldu. Baxmayaraq ki, Ermənistan tərəfi bu məsələ ilə bağlı üzərinə öhdəliklər götürmüş, amma real müstəvidə bu istiqamətdə heç bir addım atmamış və öhdəliyini pozmuşdu.

Amma işğalçı Ermənistan da anlamağa başlayıb ki, bölgədə sülhə mane olan bu cür məsuliyyətsiz davranış sərgiləməklə yaranmış yeni geosiyasi proseslərin qarşısını almaqda acizdir. O, Azərbaycanın reallıqlara, beynəlxalq hüquqa əsaslanan tələblərini qeyd-şərtsiz yerinə yetirməyə məhkumdur.

Ölkəmizin növbəti siyasi-diplomatik uğuru olan üçüncü Brüssel görüşünün nəticəsi kimi artıq Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiya formatında ilk görüş keçirilib. Mayın 22-də, əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində və iki ölkənin rəhbərlərinin müvafiq sərəncamları əsasında Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevlə Ermənistan baş nazirinin müavini Mher Qriqoryanın Ermənistan-Azərbaycan dövlətlərarası sərhədində Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiya formatında ilk görüşü keçirilib. Tərəflər delimitasiya və digər məsələlər üzrə komissiya çərçivəsində işləməyə hazır olduqlarını təsdiq ediblər. Komissiyanın birgə fəaliyyətinin təşkilati və prosedur məsələləri müzakirə edilib. Tərəflər dövlətlərarası sərhəddə görüşlərlə yanaşı, komissiyanın növbəti iclaslarının fərqli yerlərdə keçirilməsinin məqsədəuyğunluğu barədə razılığa gəliblər. Belə ki, ikinci görüşün Moskvada, üçüncü görüşün isə Brüsseldə keçirilməsi barədə razılıq əldə edilib.

### Ermənistanın ağılsız davranışı özü üçün ağır nəticələr doğura bilər

Bölgədə əbədi sülhün bərqərar olmasına müsbət töhfə verə biləcək bu cür irəliyəyönəlik addımlar atıldığı bir ərəfədə Ermənistan tərəfi yenə də öz bədnam və çirkin xislətini nümayiş etdirməkdən əl çəkmək istəmir. Buna bariz nümunə kimi, son zamanlar Ermənistan silahlı qüvvələrinin Kəlbəcər istiqamətində ordumuzun mövqelərini atəşə tutmasını misal çəkə bilərik. 2020-ci ilin 10 noyabrında üçtərəfli Bəyanatı imzalayaraq faktiki olaraq kapitulyasiyaya imza atan Ermənistanın bu ağılsız davranışı isə heç şübhəsiz özü üçün acı və ağır nəticələr doğura bilər. İşğalçı düşmən unutmamalıdır ki, Azərbaycanın "dəmir yumruğ"u yerindədir və hər an təcavüzkar düşmənin başını əzməyə hazırdır.

İstənilən halda Ermənistanın müxtəlif çirkin bəhanələr, iddialar və əməllərlə üçtərəfli razılaşmaların tələb etdiyi prosesləri ləngitmək cəhdləri iflasa məhkumdur. Ermənistan istəsə də, istəməsə də boynuna götürdüyü öhdəlikləri yerinə yetirəcək və Azərbaycanın qalib tərəf olaraq diktə etdiyi prinsip və tələblərə əməl etməyə məcbur olacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# REGİONLAR

**İndi kəndlinin işinin başından aşan vaxtıdır. Əkdiyini suvarır, biçir, yetişəni toplayır, satır. Bir cümləyə sığan bu işlər üçün isə o, aylarla zəhmət çəkir, torpağa alın təri axıdır.**

# Biçin başlandı. Bərəkətli olsun!




## Biləsuvarda arpa biçini sürət götürür

Şum aparanda, sahəyə toxum səpəndə, əkin işləri görəndə ürəyində tutduğu arzuların çin olması üçün Tanrıdan kömək, mərhəmət istəyir: "Allahım, sən özün zəhmətimi itirmə, məhsulumu bol elə!" - deyir. Böyük Yaradanın "Səndən hərəkət, məndən bərəkət" kəlamını yadına salaraq gördüyü işdən daha möhkəm yapışmağı unutmur.

Belə düşünənlər, doğrudan da, darda qalmır, birə-yüz məhsul götürür, ailəsinin firavan güzəranına nail olmaqla yanaşı, dövlətin qarşıya qoyduğu ərzaq bolluğu yaratmaq, idxaldan asılılığı minimuma endirmək, əhalinin məşğulluğunu təmin etmək kimi vəzifələrin icrasında yaxından iştirak edir, vətəndaşlıq borcunu yerinə yetirirlər. Əməyə belə münasibətin nümunəsini Biləsuvar ərazisinə daxil olan kimi görürsən. "Tarla gəmiləri" dediyimiz kombaynlar, pambıq cərgələrinin arasını yumşaldan kultivatorlar, alaq vuran qızlar, yonca kütləsini kipləşdirən texnikalar gün ərzində dayanmadan çalışırlar.

Rayonun hər yerində olduğu kimi, Əsgərabad kəndində də bu il bol taxıl yetişdirilib. Fermer Əlibala Buludovun biçin sahəsindəyik. Kombayn sahənin o biri başına gedib geri qayıdır. Dayandığımız yerə - zəminin bu biri başına çatmağa az qalmış "Şampo" markalı kombaynın yuxarı hissədəki işığı yanır. Bu işarə bunkerin dolduğunu bildirir. Yükünüözüboşaldan "KAMAZ"ın sürücüsü maşını bunkerdən taxılı qırağa çıxaran şinikin altına verir. Biçilmiş taxıl su kimi maşının yük yerinə axır.

Kombayncı kabinədən düşüb bizə yaxınlaşır. "İşiniz avand, məhsulunuz bol olsun!" - deyirik.

- Çox sağ olun. Arpanı mən biçsəm də, məhsulu bu kişi yetişdirib, - deyə əlini fermer Ə. Buludovun kürəyinə vurur. - Belə məhsul yetişdirmək lazımdır. Sahənin o başına gedib qayıdanda bunker doldu. Yolçu yolda gərək, sizin də vaxtınızı almayım, - deyərək kombayna tərəf addımlayarkən Biləsuvar Dövlət Aqrar İnkişaf Mərkəzinin aparıcı mütəxəssisi Mikayıl İmanov onun arxasınca səslənir:

- Heç demədin, təzə kombaynın necədir?

- Əladır, Mikayıl müəllim. Köhnə "Niva"larla müqayisədə yerlə göy qədər fərqi var. Kabinəsi rahat, kondisioneri işləyir, içəri bir qram toz-torpaq buraxmır. Döndərmək, manevr etmək də çox rahatdır.

Sahənin kənarındakı çinarın kölgəsinə çəkilirik. Onu da qeyd edək ki, dayandığımız yerin üç addımlığından İran İslam Respublikası ilə sərhəddəki buraxılış məntəqəsinə asfalt yol gedir. Qızmar günəş altında kölgəsinə sığındığımız çinara baxıb:

- Allah bunu əkənin atasını rəhmət eləsin! - deyirik. Sahibkar Ə. Buludov qısa şərh verir:

- Bu xoş söz rayonumuzun keçmiş başçısı Adil Məmmədova düşür. Burada işləyəndə həmişə iməciliklər keçirib ağaclar əkdirərdi.

Fermer Ə. Buludova bir neçə sualla müraciət edirik. Məlum olur ki, keçmiş sovetlər birliyi zamanında tikinti işçisi olub. Quruluş dəyişəndən sonra çaşbaş qalmadan ailəsi ilə birlikdə paylarına düşən 5 hektar sahəni əkib-becərməyə başlayıb. Çəkdiyi zəhmət hədər getməyib, elə ilk vaxtlardan yaxşı nəticə əldə edib. Bu uğur da yeni istək, işə həvəs yaradıb. İmkan düşdükcə torpaq alıb sahəni genişləndirib. Hazırda 7 min hektarı dəmyə olmaqla, 35 hektar torpaq sahəsi var. Onun 27 hektarında arpa əkib. İndiyədək biçdiyi sahənin hər hektarından 46 sentner məhsul götürüb.

Ümumiyyətlə, Biləsuvarda keçən ilin payızında cari ilin məhsulu üçün 35 min 793 hektar taxıl toxumu əkilmişdir ki, onun da 9 min 688 hektarı buğda, 26 min 105 hektarı arpadır. Vegetasiya dövründə suvarma, yemləmə, ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri, digər aqrotexniki tədbirlər vaxtında, habelə keyfiyyətlə həyata keçirilmişdir. Mütəxəssislərin hesablamalarına görə, bu il orta məhsuldarlıq keçən ildəkindən ən azı 2 sentner çox olacaq. İndi başlıca iş ağır zəhmət bahasına yetişdirilmiş məhsulu vaxtında və itkisiz toplamaqdan ibarətdir. Arpa biçinindən sonra buğda biçilməyə başlanacaq. Buğda isə çörəkdir.

Biləsuvar camaatı kənd təsərrüfatının mühüm sahəsi olan pambıqçılığa da çox bağlıdır. Kolxoz-sovxozlar ləğv olunanda belə, buranın əhalisi pambıqdan üz döndərmədi, onu əkib-becərdi. Bunun bir səbəbi pambığın yaxşı gəlir gətirməsi, alıcısının olması ilə bağlıdırsa, digər səbəbi başqa bitkilər üçün yaxşı sələf olmasıdır. Növbəli əkin sistemini tətbiq etməklə hər il sahələrdən yüksək məhsul əldə etmək mümkündür. Rayonda pambıqçılıqla məşğul olan 5 şirkət filialı fəaliyyət göstərir. Keçən il Biləsuvarda orta məhsuldarlıq 24,8 sentner olmuşdur. O vaxt fermerlər bu göstəricinin aşağı olmasının əsas səbəbini su qıtlığı ilə əlaqələndirmişlər.

Bu il isə vəziyyət fərqlidir. Çiyid səpinində havaların qeyri-münasib, yəni soyuq keçməsi nəticəsində çıxış müəyyən qədər ləngimişdir. Amma 7 min 117 hektarda əkin zamanı çiyidlə birlikdə torpağa ammofos gübrəsinin verilməsi, o cümlədən əlavə aqrotexniki tədbirlərin tətbiqi nəticəsində yaranan gerilik aradan qaldırılır. İndi pambıq əkən 957 nəfər torpaq mülkiyyətçisinin, fermerin hər biri gündəlik olaraq sahələrə baş çəkir, becərmə işləri aparır. Hazırda pambıq sahələrində 131 kultivator işləyir. Yüzlərlə adam alaq otlarını təmizləyir. İndiyədək 3 min 600 hektarda birinci, 500 hektardan çox sahədə isə ikinci kompleks becərmə işləri görülüb. Kultivasiya işləri aparılarkən karbomid gübrəsi də verilir. Xəstəliyə yoluxan sahələr müəyyənləşdirilərək təcili surətdə dərmanlanır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Naxçıvanlı tələbələr İtaliyada təcrübədə olublar

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Energetika mühəndisliyi ixtisasında təhsil alan tələbələr İtaliyada təcrübə keçiblər.



Universitetin Televiziya mətbuat və ictimaiyyətlə əlaqələr bölməsindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin hamiliyinə verilmiş Energetika mühəndisliyi ixtisasında təhsil alan tələbələrin təyin olunan proqram çərçivəsində təcrübə qazanmaları diqqətdə saxlanılır. Bu çərçivədə enerji istehsalı prosesləri, yeni texnologiyaların tətbiqi, alternativ və bərpaolunan enerji sahəsində qabaqcıl təcrübə öyrənilir, praktiki biliklərin artırılması üçün inkişaf etmiş xarici ölkələrin təcrübələrindən istifadə edilir. Görülən işlərin davamı olaraq Dövlət Energetika Xidmətindən 3 mühəndis və universitetin Elektroenergetika kafedrasında təhsil alan 6 tələbə və müəllim heyətinin İtaliyaya səfəri təşkil edilib.

Proqrama uyğun olaraq səfərin ilk günü Florensiya şəhəri ilə tanışlıq olub. Səfərin növbəti günündə tələbələr şəhərdə fəaliyyət göstərən "Fimer" şirkətinin təlim mərkəzində olub, yeni texnologiyalardan biri olan invertorlar haqqında mühazirə dinləyiblər. Qarşılıqlı sual-cavab əsasında təşkil edilən mühazirədə tələbələrin sualları ətraflı şəkildə cavablandırılıb. Həmin şirkətin ərazisində yerləşən Günəş-Elektrik Stansiyasına baxış zamanı tələbələr ərazidə quraşdırılan invertorlarla, günəş panelləri və yarımstansiyalarla tanış olub, bu barədə məlumatları maraqla dinləyiblər.

Səfərin üçüncü günündə Roma şəhərindən dəvət olunmuş professor tərəfindən günəş və külək enerji qurğularının iş prinsipi, quruluşu, quraşdırılması, onlar arasındakı məsafələr, panellərin günəşə nəzərən istiqamətləri və digər məsələlərlə bağlı tələbələrə ətraflı məlumat verilib. Onlar həmin şirkətə məxsus olan invertor istehsal edən müəssisədə də təcrübə keçiblər.

Tələbələr səfərin son iki günündə Romada İtaliyanın tarixini əks etdirən abidələrlə, incəsənət muzeyləri ilə tanış olublar.

## Mingəçevir Su Anbarında suyun səviyyəsi ötən illə müqayisədə 2 metr qalxıb

Bu il su ehtiyatı əvvəlki illərə nisbətən daha yaxşıdır. Çünki Mingəçevir Su Anbarında suyun səviyyəsi ötən illə müqayisədə 2 metrdən artıq təşkil edir.



Məlumatı Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə istinadən AZƏRTAC-a açıqlamasında yayıb. Bildirilib ki, 11 rayona xidmət edən ölkənin ən böyük magistral suvarma kanalı olan Yuxarı Qarabağ kanalı ilə suvarma suyu limitə və tələbata uyğun olaraq tam ödənilir.

"Eyni zamanda Araz çayına saniyədə 25 kubmetr su verilir ki, bu da çay ətrafında yerləşən Saatlı, Sabirabad, İmişli, Biləsuvar və Cəlilabad rayonlarının ərazilərində su çatışmazlığını aradan qaldırır", - deyə məlumatda qeyd olunub.

## Bərdənin Qarağacı-Mirzəcəfərli-Mollagüllər yolu yenidən qurulur

Respublika əhəmiyyətli Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 46-cı km-dən ayrılan və uzunluğu 8 km olan Qarağacı-Mirzəcəfərli-Mollagüllər avtomobil yolu IV texniki dərəcəyə uyğun yenidən inşa olunur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumatda bildirilir ki, tikinti işləri çərçivəsində müxtəlif həcmdə yol yatağının 10 metrə qədər genişləndirilməsi işləri aparılıb, qazma-dolma və kipləşdirmə işləri görülüb, yeni yol yatağı inşa edilib. 2 hərəkət zolaqlı olacaq yola 6 metr enində hərəkət hissə və hər bir istiqamət üzrə 2 metr enində çiyinlər daxildir.

Layihə çərçivəsində əkin sahələrinin suvarılması üçün zəruri yerlərdə müxtəlif diametrlərdə olan suötürücü boruların tikintisi, həmçinin mövcud suötürücü boruların bərpası və beton küvetlərin tikintisi işləri görülüb.

Daha sonra "İnşaat Norma və Qaydaları"na əsasən, optimal-qırmadaş və qum-çınqıl qarışımından ibarət yol əsasının tikintisi və yeni asfalt-beton örtüyünün döşənməsi işlərinə start verilib. Artıq yolun 5 km-lik hissəsinə 2 qat olmaqla yeni asfalt-beton örtüyü döşənib.

Layihəyə uyğun bütün işlər tam olaraq yekunlaşdıqdan sonra zəruri olan yerlərdə yol nişanı və məlumatverici lövhə quraşdırılacaq, yolcizgi və yolgöstərici xətlərin çəkilişi işləri aparılacaq.




Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin texnoloji ardıcıllıqla apardığı yenidənqurma işləri imkan verir ki, yaxın gələcəkdə yolboyu yaşayan vətəndaşların yolla bağlı qarşılaşdıqları problemlər birdəfəlik öz həllini tapsın, həmçinin vətəndaşların həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən kənd təsərrüfatı daha da inkişaf etsin.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Tovuzda daha bir aqropark yaradılır



**İlin sonunda istifadəyə verilməsi nəzərdə tutulan "Tovuzaqro" MMC, əsasən, ət məhsulları istehsalı üzrə ixtisaslaşacaq**

Tovuzda kənd təsərrüfatının inkişafı istiqamətində mühüm addımlar atılır. Fermer və torpaq sahibləri güzəştli şərtlərlə kredit, lizinq yolu ilə gübrə, texnika və damazlıq mal-qara almaqla dövlətin göstərdiyi bütün imtiyazlardan istifadə edir, əkin sahələrinin becərilməsində istifadə olunan yanacağın və motor yağlarının dəyərinin ödənilməsi, kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması üçün verilən subsidiyalardan yararlanırlar.

Bunun sayəsində hər il uğurlu göstəricilərə nail olan tovuzlular əldə edilən nailiyyətlərlə kifayətlənmir, daha yüksək göstəricilər hədəfləyirlər. Təkcə onu demək kifayətdir ki, son bir ildə rayon üzrə tərəvəz sahələrinin həcmi 1499 hektara çatdırılmış, həmin sahələrdən 26 min 404 ton məhsul götürülmüşdür. O cümlədən ümumi sahəsi 44 hektar olan istixanalarda 4396 ton məhsul istehsal olunmuş və il ərzində 4 milyon 317 manatlıq məhsul satılmışdır. Artıq investorların da rayona olan maraqları xeyli artmışdır. Bunu onların rayona 1 milyon 47 min manat sərmayə qoymaları da sübut edir.

Rayonda keçən il 21 min 117 hektar sahədə dənli bitkilər əkilmişdir. Onun 19 min 526 hektarı buğda olmuşdur. Buğdanın hər hektarda orta məhsuldarlığı 32,3 sentnerə yüksəlmişdir. Bu, əvvəlki illə müqayisədə 3 sentner çoxdur. Kartof istehsalı sahəsində də uğurlu göstəricilərə nail olunmuşdur. Keçən il 7 min 375 hektar sahədən 169 min tondan çox kartof götürülmüşdür.

Tovuzda torpaqlardan səmərəli istifadə edilməsi daim diqqət mərkəzində saxlanılır. Xüsusilə istifadəsiz qalmış torpaqların əkin dövriyyəsinə daxil edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu məqsədlə 2016-cı ildə yaradılan Tovuz "Aqro DAİR" MMC üçün Ceyrançöl ərazisindən 12 min hektar torpaq sahəsi ayrılmışdır. Elə həmin il 7 min hektar sahədə pivot suvarma qurğusu quraşdırılmışdır. Təsərrüfatın texnikaya olan tələbatı da təmin edilmiş, güzəştli qiymətlərlə 47 texnika alınmışdır. 120 nəfərin çalışdığı təsərrüfatda 4 elektrik yarımstansiyası istifadəyə verilmiş, 30 kilometr məsafədən su xətti çəkilmiş, bir neçə yerdə su anbarı inşa olunmuşdur. Kollektiv ilk dəfə ərazidə meliorasiya və irriqasiya işləri apararaq 10 min 200 hektarda buğda, 1300 hektarda yonca, 500 hektarda şəkər çuğunduru yetişdirmiş və elə birinci il yüksək məhsuldarlıq əldə etmişdir.

Ümumiyyətlə, Tovuz "Aqro DAİR" MMC yarandığı iki il müddətində xeyli inkişaf etmişdir. İndi təsərrüfatda 7 kombayn, 24 traktor, 3 qarğıdalısəpən, 2 gübrəsəpən və 2 silosbiçən var ki, bu da texnikaya olan bütün ehtiyacları ödəyir. MMC-nin ərazisində 1800 kvadratmetr sahəsi olan taxıl və 1500 kvadratmetr sahəsi olan gübrə anbarlarının tikintisinə başlanılmışdır.

Artıq Tovuzda ikinci aqropark yaradılır. "Tovuzaqro" MMC, əsasən, ekoloji cəhətdən təmiz heyvandarlıq məhsullarının istehsalı ilə məşğul olacaq. Bunun üçün Ceyrançöl massivində 550 hektar torpaq sahəsi ayrılmışdır. Hazırda ərazidə qızğın iş gedir. 1000 başlıq fermanın inşası və əkin sahələrində pivot suvarma qurğusunun quraşdırılması başa çatmaq üzrədir. Bu il aqroparkın ərazisində 100 hektarda arpa, 50 hektarda soya, 290 hektarda yonca, 100 hektarda qarğıdalı səpilmişdir. Əkin sahələrini suvarma suyu ilə təmin etmək üçün Kür çayından 3 kilometr uzunluğunda su, 3 kilometr məsafədən elektrik xətti çəkilmişdir.

"Tovuzaqro" MMC-nin əraziləri qısa vaxtda yaşıl örpəyə bürünüb. İnsanlar yorulmaq bilmədən çalışır, bol məhsul üçün əllərindən gələni əsirgəmirlər. Bir tərəfdə suvarma, bir tərəfdə tikinti-quraşdırma işləri gedir. Təsərrüfatda hələlik 100 nəfər çalışır. Lakin bu, son rəqəm deyil. Aqroparkın fəaliyyəti genişləndikcə, işçilərin də sayı artacaq. Gündə 3 dəfə pulsuz yeməklə təmin olunan kollektivin üzvləri əməkhaqqından razıdırlar.

Parkın texnika ilə təminatı da qaydaya salınır. Artıq 14 traktor və müxtəlif kənd təsərrüfatı texnikaları gətirilib. Taxıl qurutmaq və saxlamaq üçün 3 bunker quraşdırılıb. 4 tövlənin tikintisində isə işlər sürətlə davam edir. Həmçinin maşın və traktorların saxlanması üçün qaraj və təmir emalatxanası tikilir. Bu günlər 4 silos quyusu inşa edilərək onların doldurulmasına başlanılmışdır. Silosun basdırılması yeni texnologiya əsasında aparılır. Belə ki, yığılmış məhsul qurudulduqdan sonra basdırılır. Bunun üçün Türkiyənin "Most" şirkətinin istehsalı olan avadanlıqlardan istifadə edilir. Aqroparkda şirkətin nümayəndəsi Muhammad Köksanla görüşdük. Söhbət zamanı dedi ki, bu üsul çox səmərəlidir. Silos quru halda basdırılanda uzun müddət keyfiyyətini saxlayır.

"Tovuzaqro" MMC-nin direktoru Arzuman Əhmədov isə bildirdi ki, ölkədə sayca 17-ci olan park işə düşdükdən sonra burada 200 nəfərdən çox rayon sakini daimi işlə təmin olunacaq: "Parkın bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur. Çalışırıq ki, layihədə nəzərdə tutulmuş bütün işlər vaxtında görülsün. Aqropark fəaliyyətə başlayandan sonra qərb bölgəsində onun analoqu olmayacaq. Burada əkin sahələri ilə yanaşı, ən müasir ət kəsimi və baytarlıq məntəqələri olacaq. İstənilən şəxs istədiyi vaxt heyvanını gətirib burada kəsdirdikdən sonra baytarlıq sertifikatı ala biləcək. Bir sözlə, əhalini ekoloji təmiz ət məhsulları ilə təmin etmək üçün bütün şərait yaradılacaq. Hazırda heyvandarlıq üçün yem bazası yaradırıq. İndiyədək sahələrdən 365 ton arpa, 412 ton buğda, 150 ton ot tədarük etmişik. Bu günlər 300 hektarda yetişdirilmiş qarğıdalının biçininə başlanacaq".

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Mehmet HABERAL:

# "Azərbaycanın yanında olmağımızla qürur duyuruq"

Xəbər verildiyi kimi, bu ayın əvvəlində bir sıra ölkələrin alimlərinin və həkimlərinin iştirakilə Bakıda III Milli Nefroloji, Dializ və Transplantoloji Konqresi keçirilmişdir. Azərbaycan Nefroloqlar Cəmiyyətinin təşkilatçılığı ilə düzənlənən konqresdə nefroloqlar, hemodializ mütəxəssisləri və transplantoloqlarının məruzələri dinlənilmiş, elmin, tibbin bu sahələrdəki son yenilikləri müzakirə olunmuşdur.



Konqresdə Türkiyənin Başkənd Universitetinin və xəstəxanasının qurucusu, dünyaşöhrətli alim, həkim-transplantoloq, Dünya Orqan Transplantasiyası Dərnəyinin prezidenti, akademik Mehmet Haberal da iştirak etmişdir. Tədbir zamanı Azərbaycanın böyük dostlarından biri, fəaliyyətində ölkəmizi hər zaman önəmli sırada tutan məşhur alimlə söhbət etmək fürsətimiz oldu. Görkəmli elm adamı, türk dünyasının qüruru Mehmet Haberal Azərbaycana sevgisini ifadə etdi: "Hörmətlə andığım mərhum Heydər Əliyev deyirdi: "Biz bir millət, iki dövlətik". Mərhum dövlət başçıları Heydər Əliyevin, Süleyman Dəmirəlin zamanında da ölkələrimiz arasında münasibətlərə böyük əhəmiyyət verildiyini xatırladan Mehmet Haberal bildirdi: "Atatürk deyirdi ki, eyni kökdən gələn insanlarımızı yalnız buraxmayın. Biz eyni kökdən olan insanları, onların ölkələrini başqa ölkələrə möhtac etmərik. Təəssüf ki, hər zaman belə olmayıb. Amma sevindirici haldır ki, biz o məqama gəldik".

Mehmet Haberal dövlətlərimiz arasında mövcud olan dostluq, qardaşlıq münasibətindən məmnunluğunu dilə gətirdi. Dedi ki, bu gün Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev bütün dünyaya dostluğun, qardaşlığın nümunəsidirlər. Ölkələrimizin, millətimizin müqəddəratında əhəmiyyəti böyük olan bu dönəm hər birimizdən məsuliyyət tələb edir. Mehmet Haberal diqqətə çatdırdı ki, biz bərabər çalışmaq, bir-birimizə yardım etmək, güclü, qüvvətli olmaq məcburiyyətindəyik: "Bunun üçün çox çalışmaq zorundayıq. Mən 1993-cü ildə Başkənd Universitetini qurduqdan sonra dedim ki, mənimlə çalışacaqsınızsa, 7 gün 24 saat çalışmalısınız. Biz belə çalışırıq".

Mehmet Haberal Başkənd Universitetinin bütün imkanlarını başda Azərbaycan olmaqla, bütün Orta Asiya ölkələrinə açdıqlarını nəzərə çatdırdı: "Təbii ki, təhsil olduqca əhəmiyyətlidir. Qətiyyətlə deməliyik ki, cəmiyyətlər üçün 3 vacib məsələ var. Bunlardan biri sağlıq, digərləri təhsil və ədalətdir. Bunun üçün Başkənd Universitetini qurdum. Söhbətimizin əvvəlində dediyim kimi, Azərbaycan səhiyyəsinə və təhsilinə məmnuniyyətlə biz də öz töhfələrimizi vermək istəyirik".

Görkəmli alim Azərbaycanla bağlı planlarını uzun illər öncə həyata keçirməyə başlayıb. Zaman keçdikcə Azərbaycanla əlaqələri daha yüksək səviyyəyə çatdırmaq üçün əlindən gələni əsirgəməyib. Mehmet Haberal dedi: "Hikmət bəy (Orta Şərq Orqan Transplantasiya Cəmiyyəti (MESOT) Azərbaycan və Orta Asiya üzrə təmsilçi (2014-2020), Türk Dünyası Transplantasiya Dərnəyinin yaradıcı üzvü və Azərbaycan təmsilçisi, Dünya Transplantasiya Cəmiyyətinin üzvü azərbaycanlı həkim Hikmət İsmayılovu nəzərdə tutur - Z.F.) 1993-cü ildə Türkiyədə bizimlə bərabər çalışdı. Sertifikasiyasını ona mən özüm verdim. Sonra mən də, Bakıya gəldim. Burada dializ mərkəzi qurduq. Hikmət İsmayılovu mərkəzin rəhbəri təyin etdik. O, Bakıda çox yaxşı işlər həyata keçirir. 1993-cü ildən bəri biz Azərbaycanda bərabər çalışırıq. Xalqın maariflənməsinə, səhiyyənin inkişafına töhfə veririk. Əlbəttə ki, bu, yetməz. Dediyim kimi, biz daha çox çalışmaq zorundayıq. Çünki tibb elmi sürətlə inkişaf edir. Bu inkişafla ayaqlaşmaq üçün çox işlər görməyimiz zəruridir. Və birbirimizlə daha sıx münasibətlər qurmağımız vacibdir. Onun üçün mən buradakı dostlarıma deyirəm ki, siz həkimlərinizi göndərin, biz onları yetişdirib bura göndərək. Lazımdırsa, biz gələk, sizə yardımçı olaq və Azərbaycanın səhiyyədə və təhsildə inkişafına töhfə verək. Mənim bura gəlişimin ən əsas səbəblərindən biri budur - dostlarımızı dəstəkləmək və onlara yardımçı olmaq".

Mehmet Haberal ölkəmizə 1993-cü ildə gəlişini xatırladı və o dövrkü Azərbaycanla müasir Azərbaycanı müqayisə etdi: "Təbii 1993-cü ildəki Azərbaycanla indiki Azərbaycan çox fərqlidir. O zaman mənim gəldiyim Azərbaycanla müqayisədə indiki Azərbaycan olduqca önəmli nöqtəyə gəlib. Buna görə çox şadam. Amma təbii ki, hələ görüləcək işlər də çoxdur. Daha çox çalışmamız lazımdır. Buna görə deyirəm ki, Azərbaycandakı dostlarımız, Azərbaycan milləti bilsin ki, biz də bu yolda onlar üçün təhsildə və səhiyyədə əlimizdən nə gəlirsə, etməyə hazırıq. Bunu xüsusilə vurğulamaq istəyirəm".

Şöhrətli alim 2020-ci ildə Vətən müharibəsində nail olduğumuz və bu gün də sevincini, qürurunu yaşadığımız zəfərimizdən də söz açdı. Azərbaycanın, onun əzəli və ayrılmaz hissələrindən olan Qarabağın türkiyəli qardaşlarımız üçün çox əhəmiyyətli olduğunu qeyd etdi: "Azərbaycanın hər qarışı, hər çınqıl daşı bizim üçün olduqca önəmlidir. Bu ölkənin bütövlüyü naminə nə gərəkirsə, etməyə hazırıq. Necə ki, Cümhurbaşkanı Ərdoğan bunları etdi. 2020-ci ildə savaş əsnasında da dedi ki, Azərbaycan haradadırsa, biz oradayıq. Bunu söhbətimizin əvvəlində xatırlatdıq ki, biz bir millət, iki dövlətik. Ona görə də bu dövlətləri qorumalıyıq. Bu mənada, mən Azərbaycanı təbrik edirəm. Yəni öz torpaqlarına sahib çıxdılar və bu yolla davam edirlər. Əlbəttə ki, eyni vəziyyət bizim üçün də keçərlidir. Türkiyə dövləti bizim üçün müqəddəsdir və ona sahib çıxmaq bizim görəvimizdir. Eyni ilə Azərbaycan dövləti bizim üçün müqəddəsdir və onun yanında olmaq bizim görəvimizdir. Biz bunu edirik. Hər zaman Azərbaycanın yanındayıq. Çox şadam ki, 1993-cü ildən bu günədək Azərbaycan çox inkişaf etmişdir. Sizə bir örnək verəcəyəm. Mən 1990-cı illərdə bura gələndə Azərbaycanın hava limanı kiçik bir bina idi. İndi baxıram möhtəşəm hava limanı, hotellər tikilib. Təbii ki, iqtisadiyyatın inkişafı böyük əhəmiyyət daşıyır. Eyni zamanda səhiyyənin və təhsilin daha da tərəqqi etməsi vacibdir. Biz də bu məsələlərdə Azərbaycanın yanında olmağımızla, yardımçı olmağımızla qürur duyuruq. Bizim birliyimiz davam etməlidir. Bir-birimizə dəstək göstərməli, daha güclü olmalıyıq. Məsələ budur".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Gəncə Dövlət Universitetində "Açıq qapı" günü keçirilmişdir



Gəncə Dövlət Universitetində yaz semestr imtahanlarının gedişi ilə tanış olmaq üçün "Açıq qapı" günü keçirilmişdir.





Universitetdə təhsil alan tələbələrin valideynlərinin, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə keçirilən "Açıq qapı" gününün iştirakçıları imtahan otaqlarını gəzmiş, yaradılan şəraitlə tanış olmuş, övladlarının kompüterdə test suallarına cavab vermələrini müşahidə etmişlər.

Universitetin tədris işləri üzrə prorektoru Şahin Xurşudov "Açıq qapı" gününün iştirakçılarına ali təhsil ocağında imtahanların obyektiv və şəffaf keçirilməsi üçün yaradılan şəraitlə, eləcə də imtahanların gedişi zamanı tələbələrin şikayətlərini və narazılıqlarını araşdırmaq üçün yaradılmış "Apellyasiya komissiyası"nın və "İmtahan qərargahı"nın fəaliyyəti ilə bağlı ətraflı məlumat vermişdir.

"Açıq qapı" günündə 20-yə yaxın valideyn iştirak etmişdir. Gəncə şəhərindən və ətraf rayonlardan gəlmiş valideynlər Saleh Abbasov, Vasif Verdiyev, Teymur Kərimli, Asif Tağıyev və başqaları imtahanların gedişindən razı qaldıqlarını söyləmiş, övladlarının biliklərinin obyektiv və şəffaf qiymətləndirilməsi üçün göstərilən qayğıkeşliyə görə universitet rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər. Qarabağ qazisi Mehdi Kərimov universitetdə təhsil alan iki övladına göstərilən qayğıkeşlikdən danışmış və razılığını ifadə etmişdir.

Tədbir iştirakçıları 44 günlük Vətən müharibəsində universitetin şəhid və qazi olmuş tələbələrin şəkillərindən ibarət guşəyə baxdıqdan sonra Ümummilli Lider Heydər Əliyevin büstü önündə xatirə şəkli çəkdirmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Qoy ağaclarımız kəsilməsin!..

## Yaşıl parklar məkanına çevrilməkdə olan Bakını bu gözəllikdən məhrum edənlər inzibati cəza deyil, cinayət məsuliyyəti daşımalıdırlar

**Son illərdə Bakının dünyanın gözəl şəhərlərindən birinə, yaşıl parklar və bağlar məkanına çevrilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilir.**

Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə həyata keçirilən abadlıq-quruculuq işləri nəticəsində paytaxtımızın gündəngünə gözəlləşdiyi hər kəsə məlumdur. Amma bəzən bu tədbirlərə kölgə salanlar da olur. Müxtəlif şəxslər tərəfindən ağaclar, yaşıllıqlar qanunsuz şəkildə məhv edilərək yerində iaşə və digər xidmət obyektləri tikilir və ya parklanma yerləri salınaraq qeyri-qanuni şəkildə gəlir əldə edilir. Belə hallar yaşandıqda isə dövlət başçısının dərhal reaksiyasının şahidi oluruq. Prezidentin tapşırığı ilə kimlərsə tərəfindən zəbt olunan ərazilərdə öz məqsədləri üçün istifadə hallarının qarşısı dəfələrlə alınıb və həmin ərazilərdə parklar, sakinlərin asudə vaxt keçirməsi üçün istirahət yerləri salınıb.

Nəsimi rayonu, Bülbül prospekti, 18-30 ünvanında ağacların qanunsuz kəsilməsi nəticəsində parklanma yerinin yaradılması və piyada səkisinin daraldılması barədə sosial şəbəkələrdə yayılan problemin də Prezidentin tapşırığı ilə həllini tapması deyilənlərin bariz təcəssümü oldu. Dövlət başçısının tapşırığına uyğun olaraq qeyri-qanuni parklanma yerinin dərhal sökülməsinə və piyada səkisinin əvvəlki vəziyyətinə gətirilməsinə başlanıldı. Eyni zamanda məsələ ilə bağlı müvafiq araşdırmalar aparıldı və məlum oldu ki, qanunsuz parkinq Kinematoqrafçılar İttifaqı tərəfindən yaradılıb.





### Qanunsuz ağac kəsilməsinə görə cəzalar sərtləşdirilməlidir

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov qəzetimizə açıqlamasında bildirib ki, Nəsimi rayonunda ağacların kəsilərək qanunsuz parklanma yerinin salınması hər kəsi hiddətləndirdi. Məsələ bu səviyyəyə çatdırılmamalı və dərhal ona müdaxilə olunmalı idi.

Deputat hesab edir ki, cəmiyyətdə təbiətə baxış dəyişməyənə, ağaclara canlı kimi baxılmayana qədər bu proses davam edəcək. Bu sahədə maarifləndirmə tədbirlərinə ehtiyac var. Cəmiyyətdə ekoloji mədəniyyət səviyyəsinin yüksəlməsi gələcək nəslin ekoloji tərbiyəsindən və ekoloji biliklərə necə yiyələnməsindən asılıdır. Bu isə bütün insanlarda bəşəri mədəniyyəti təcəssüm etdirən sivil inkişaf formasını və təhsil mühitinin formalaşmasını, eyni zamanda bütün xalqlardan mədəni inkişafın əsas istiqaməti kimi ekoloji təhsilin fasiləsiz inkişaf strategiyasını, konsepsiyasını, proqramını hazırlamağı və həyata keçirməyini tələb edir. İbtidai sinif müəllimləri tərəfindən azyaşlı məktəblilərə bu sahədə təbliğat aparılmalıdır ki, onların təbiətə münasibəti dəyişsin.

Sadiq Qurbanov Ümummilli Lider Heydər Əliyevin sözlərini xatırlayaraq deyir: "Ulu Öndər bildirirdi ki, Bakıda bir ağacı əkib böyütmək bir övladı böyütməyə bərabərdir, çünki Bakıda ağac əkmək çətindir. Hesab edin ki, bir ağac kəsən mənim qollarımı kəsir".

Komitə sədri qeyd edir ki, bir ağacın böyüməsi üçün illər tələb olunur və bir hektar meşə, kol və yaşıllıq sahəsi ildə 4,6-6,5 ton karbon qazı udur, 3,5-5 ton oksigen ixrac edir. Ağaclar əkilən sahənin hər hektarından bir ildə insan üçün xeyirli olan 30 kiloqrama qədər efir yağı buraxılır. Yaşıl massivlərdə hər ağac bir il ərzində orta miqdarla 30-40 kiloqram, böyük çətiri olan ağac isə 68 kiloqrama qədər toz və digər bərk hissəciklər udur. Orta ölçülü bir ağac gün ərzində üç adamın tənəffüsü üçün lazım olan miqdarda sərbəst oksigen sintez edir. Eyni zamanda ağac və kol bitkiləri havanı tullantı qazlarından təmizləyir, həm də səs-küy udma xüsusiyyətinə malik olduğundan insan üçün ziyanlı səsləri tənzimləyir.

Sadiq Qurbanov hesab edir ki, ağac kəsən şəxslər daha ağır cəza almalıdırlar: "Ev, hər hansı obyekt tikənlər əvvəlcədən cərimə məbləğini hesablayaraq planını qurur. Buna görə, qanunsuz ağac kəsilməsinə görə inzibati cəza deyil, cinayət məsuliyyəti yaranmalıdır".

Deputatın fikrincə, təbiətə münasibəti hüquqi norma ilə yanaşı, əxlaq normasına çevirməliyik. Bunun üçün də kütləvi informasiya vasitələrində daim təbliğat, maarifləndirmə işi aparılmalıdır.



### Dövlət tərəfindən yaşıllaşdırma tədbirləri görülür, amma bəziləri...

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, Ekologiya Standartlarının Monitorinq Fondunun prezidenti Rauf Sultanov qəzetimizə açıqlamasında deyib ki, dünya miqyasında iri şəhərlərdə parkların salınması, təbii şəraitin yaradılması, ağacların əkilməsi, qorunması prosesləri dövlət səviyyəsində həyata keçirilir. Azərbaycanın böyük şəhərlərində bu istiqamətdə işlər görülsə də, müəyyən neqativ proseslər də baş verir.

Ekoloq qeyd edir ki, tikinti-inşaat işləri ilə əlaqədar bəzi ərazilərdə yaşıllıqlar tədricən məhv edilir: "Məsələn, Neftçilər metrosu ərazisi həmişəyaşıl küknar ağacları ilə əhatə olunmuşdu. İndi orada bu ağaclar yoxdur, hamısı obyekt sahibləri tərəfindən məhv edilib. Belə hallara dərhal reaksiya vermək lazımdır. Heç kimin ağacları kəsməyə ixtiyarı yoxdur. Bu, Bakıda adi prosesə çevrilib".

Ekspert bildirir ki, Bakının 3,5 milyon əhalisinin oksigenə olan tələbatını ödəmək üçün ağacların, yaşıllıqların çox olması lazımdır. O, Ekologiya Standartlarının Monitorinq Fondunun və Dövlət Yol Polisinin iştirakı ilə aparılan monitorinqdən də söz açıb. Monitorinqlər nəticəsində aydınlaşıb ki, Səməd Vurğun bağının ətrafında maşınların sıx olduğu yerdə havada karbon oksidin miqdarının 6-7 faiz olduğu halda, bağın içərisində bu göstərici normaya yaxın - 0.4 faizdir. R.Soltanov vurğulayır ki, avtomobillərdən çıxan karbon oksid 10 günlərlə havada asılı vəziyyətdə qalaraq insan sağlamlığına ziyan vurur.

Professor bildirir ki, Azərbaycanda olan 500-600 minə qədər avtomobilin çoxu Bakı şəhərindədir. Maşınların dayanması üçün yer olmadığından kimlərsə, müəyyən ərazini zəbt edərək ağacları kəsir və orada öz məqsədi üçün parklanma yeri salır. Həmin ərazidə maşın saxlayanlardan isə qeyri-qanuni şəkildə ödəniş tələb edilir. Bu, dövlət qanunlarına ziddir. Bu zaman dövlət tərəfindən belə halların qarşısı alınır, həmin yerlərdə yaşıllıqların salınması üçün işlər görülür.

Bakı dünya miqyasında tanınmış, mədəni, müəyyən xüsusiyyətləri ilə fərqlənən, cəlbedici şəhərdir. Şəhərdə ekoloji təmiz nəqliyyat vasitələrinə üstünlük verilməlidir. Məsələn, velosiped, motosiklet kimi vasitələrin yollarda maneəsiz hərəkəti üçün şərait yaradılması ən önəmli məsələlərdən biridir. Hər bir şəhərin mədəniyyətini göstərən əsas meyarlar var ki, bunlardan birincisi, sanitar qovşaqların tələb olunan normalara uyğun formalaşması, kiçikhəcmli nəqliyyat vasitələrindən geniş istifadə, yollarda tıxacların azaldılmasıdır. Düzdür, bu istiqamətdə tədbirlər görülür, amma kifayət etmir, hələ çox işlər görülməlidir.

Qeyd edək ki, Prezidentin tapşırığına uyğun olaraq artıq qanunsuz parkinqin sökülmə işləri başa çatıb və səki tam bərpa edilib. Eyni zamanda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinə daxil olan şikayətin araşdırılması nəticəsində bəlli olub ki, Nəsimi Rayon Bələdiyyəsi tərəfindən ərazidə qəzalı vəziyyətdə olan safora ağacının götürülərək yerində yeni ağacın əkilməsi üçün rəy verilsə də, rəyin tələblərinə əməl olunmayıb. Nəticədə Nəsimi Rayon Bələdiyyəsinin rəhbərliyi vəzifəli şəxs qismində 5000 manat məbləğində cərimələnib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 10 oktyabr (Cümə axşamı günü) tarixli XI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 3 məhərrəmülhəram sənə 1337. 10 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## HÖKUMƏT QƏRARDADI

**Ərazi Nəzarətindən**
Əmr nömrə 44
Altıağac meşəliyinin 2-ci dərəcə meşəbəyisi V.T.Vartanov təşrini-əvvəlin [oktyabrın] 1-dən xaric edilir.

*Ərazi naziri:*
*X[osrov bəy] Sultanov*

**Əmr nömrə 46**
Nəcəf bəy Vəzirov Azərbaycan Cümhuriyyətinin Baş Meşəbəyi müfəttiş[i] və müvəqqəti Meşə naziri təyin edilir.

*Ərazi naziri:*
*X[osrov bəy] Sultanov*

**Ədliyyə Nəzarətindən əmr**
6 təşrini-əvvəl [oktyabr] 1918
Bakı nahiyə məhkəməsinin üzvləri Pyotr Karpoviç Baturin, İvan Osipoviç Viquro, Qriqori Andreyeviç Ter-Mikaelyans, Adam İvanoviç Dzerjanski və Nikolay Avraamoviç Pastuxov höku-mətin 24 haziran [iyun] 1918 tarixli qanunu mövcibincə [qanununa görə] 20 temmuz [iyul] 1918 tarixindən vəzifələrindən xaric olunurlar.

*Ədliyyə naziri əvəzinə:*
*T[eymur bəy] Makinski*

## TELEQRAF XƏBƏRLƏRİ

**Almaniyada**
1 – Almaniyada hüsula gələn siyasi təcəddüdlərin [yeniliklərin] iki müxasim [düşmən] zümrəsi arasında etilaf [uzlaşma] hüsuluna səbəb olacağı zənn olunur.
2 – Almaniyada mövcud siyasi firqə rüəsası [siyasi partiya liderləri] yeni vəziyyət qarşısında mövqelərini təyin etmək üzrə Berlinə gəlməkdədir.
3 – Baş Vəkil [Baş Nazir] Prins Maks Baden proqramını yaxında Məclisə tövdi edəcəkdir [təhvil verəcəkdir].

* * *

**Müttəfiqlərin Sibirya siyasəti**
Japon qəzetələrində İngiltərə ilə Fransanın Sibiryanı kontrol altında bulundurmaq istədiklərini yazırlar.

* * *

**Bolşeviklərin hərəkatı**
Bolşeviklər idareyi-ürfiyyə [hərbi rejim] ilə böyük Rusiyanı idareyi-əsgəriyyə [hərbi üsuli-idarə] altına almaq istədikləri Stokholmdan bildirilir.

* * *

**Bolqariyada**
Almaniyada təhsildə bulunan bolqar tələbəsi, Malinovun siyasətini təqbih etmişlərdir [pisləmişlər].

**Osmanlı "Milli" ajansı**
Kopenhaq – 29 eylül [sentyabr]. Prus[siya] Hərbi Nəzarəti nümayəndəsi Reyxstaqın Baş Komitəsinin gizli iclasında demişdir ki, almanlar martın 15-i - haziranın [iyunun] 15-i kimi müharibələrdə 500000 nəfər tələfat vermişdir. Ağustosun-temmuzun [iyulun] 15-dən eylülün 15-ə kimi geri çəkilməyi əsnasında 45000 məqtul [öldürülmüş], 155000 məcruh [yaralı], 50000 nəfər əsir vermişdir.
Berlin – 26 eylül. Elzas-Lotaringiyanın bir para cəhətlərinin [yerlərinin] təxliyyəsi barəsində verilən düşmən əxbarını [xəbərlərini] təkzibindən ötrü rəsmi surətdə elan edilir. Ən yaxın zamanda Elzas-Lotaringiya təxliyyəsi barəsində şayiat dəvəran etməyə [şayiələr dolaşmağa] başlanmışdır. Bundan naşi [buna görə] elan edilir ki, uzaq məsafədən başlanan Mayns və başqa mövqelər bombardmanı [əsnasında] əhalinin həyat və əmlakını mühafizədən ötrü, düşmənin mərmiləri erişəcək mövqeləri təxliyyə etmək məcburiyyətində qaldıq. Bu təxliyyə məsələsi nizam üzrə aparılır.

## MÜHARİBƏ MEYDANINDA

**Təbliği-rəsmi**
1 – Bütün cəbhələrdə vəziyyət təbəddül etmədi [dəyişmədi].
2 – Qərb cəbhəsi müharibələrində 26 eylüldə [sentyabrda] düşmənin 54 təyyarəsi ilə 10 sabit balonu düşürülmüşdür.
3 – Bir ingilis səfineyi-ticariyyəsi [ticarət gəmisi] ilə bir torpidosu müsadimə edərək [toqquşaraq], torpido qərq olmuşdur.

*"Milli"*

**Gürcüstan Teleqraf Acentəsindən**
Qərb cəbhəsində.
Berlin – 26 sentyabr. Axşam verilmiş hərbi xəbər.
Şampanda və Arqon ilə Maas arasında geniş cəbhədə başlanmış firəng-ingilis atəş hazırlığı 11 saat davam etdikdən sonra müvəffəqiyyətə nail olmayaraq sükuta məcbur olmuşdur. Düşmən bizim xəttimizi yarmaq istəyirmiş. Bizim xətlərdən ötrü başlanmış mübarizə davam edir.

* * *

"Borba" nam Tiflis qəzetəsində təşrini-əvvəlin [oktyabrın] 2-dən hərb cəbhəsindən alınmış şu teleqraflar dərc edilmişdir:
Berlin – 29 sentyabr. Hərbi xəbər. İngilislər belçikalılar ilə bərabər təərrüzləri [hücumlarının] dairəsini genişlədərək Flandriya və Kambre üzərinə yürümüşlər. Firəng və amerikalılar isə Şampanda Arqon ilə Maas miyanında [arasında] yeni təərrüzlər yapmışlar.
Kronprins [Vəliəhd şahzadə] Ruprext ordusu dəniz kənarından başlayaraq Lisə kimi bütün gecəni atəş ilə keçirdi. Şu toqquşma Diksmyoyde ilə Veyfvegen miyanında güclənib, səhər zamanı müdafiə şəklini aldı. Diksmyoyde ilə Veyfvegendən cənuba ingilis və belçikalılar təərrüzlər yapırdılar.
Düşmən bizim bir para xəndəkləri tutmaq müvəffəqiyyətinə nail olduğundandır ki, topçu xətlərimizə çatmışlar. Günortadan sonra düşmən işbu xətt üzərinə təərrüzdə davam edirdi: Diksmyoydedən cənubdakı dəmiryolu təpəsi, Klerken, Hutulst, Stadenreke, Stadenberq (bu ad dəyişmişdir). Bu xətt əleyhinə açılan düşmən təərrüzləri axşama kimi müharibə meydanına keçirdiyimiz ehtiyat hissələri tərəfindən dəf edilmişdir. Vitşate hündürlükləri düşmənin dəfəatlı [təkrarlanan] hücumlarına məruz qalarsa da, bizim əlimizdə qalmışdır. Kambredən qərbə dün səhər tezdən biz öz xəttimizi açıq səhradan arxa xətt tərəfə, Kodridən qərbdəki Arle-Obinye və Kambre-Markuendən cənub-qərbə, əski xəttimiz Viller-Qüsleyn tərəfə çəkdik. Eylülün 27-dəki müharibədə Markuen kanalı kənarlarındakı xətlərimizi itirdiyimizdən naşi, bugünkü təbəddülatı [dəyişikliyi] yapmaq məcburiyyətində idik. Bu işi gecə yapdığımızdan naşi, düşmən tərəfindən heç bir təşəbbüsat görülmədi. Düşmən səhər təxliyyə etdiyimiz xətti dəhşətli atəş altına almışdır. Günorta zamanı düşmən böyük qüvvələr ilə təərrüz yaparaq, Kambredən şimal-qərb və qərbə tərəf xətləri təzyiq altına almağa başladı. Tərəfimizdən dəf edilmişlər. Habelə Markuendən cənuba tərəf başlanan təərrüz də tərəfimizdən saxladılmışdır.
Almaniya Kronprins ordusu. Elet-En arasında biz xəttimizi Uaza-Ena kanal arxası Elet üzərindəki Anizi-le-Şato, En üzərindəki Burje tərəfinə çəkdik. Düşmən tərəfindən iqdamat [təşəbbüs] müşahidə olunmamış.
Berlin – 29 sentyabr. Bir neçə gün zərfində layihə üzrə hazırlanan qoşun hərəkatı düşmən tərəfindən heç bir iqdamat olunmadan qövldən feilə [sözdən işə] gətirilmişdir. Syuippdən qərbə bizdən ötrü müvəffəqiyyətli surətdə pişdar [ön qüvvələr] toqquşmaları davam edirdi. Syuipp ilə Ena arasında, Arqon ilə Maas miyanında [arasında] düşmən güclü təərrüzlər yapmışdır. Bu təərrüzlər xüsusən dün düşməndən ötrü dəhşətli olaraq böyük tələfata səbəb olmuşdur. Bizim bir çox başqa-başqa hissələrdən mürəkkəb qoşunlarımız işlərinin müşküllüyünə baxmayaraq, şücaətlər ibraz edərək [göstərərək] düşmən təərrüzlərini qəhrəmananə bir surətdə dəf etmişlər. Syuipp ilə Ena miyanında firənglər altı dəfə tanklar köməyilə təərrüz yapsalar da, dəhşətli müharibələrdən sonra geri atılmışlar. Düşmənin yeganə müvəffəqiyyəti məhəlli əhəmiyyəti haiz [lokal əhəmiyyətə sahib] Sommpini işğal etməkdən ibarətdir ki, bizim müdafiə xəttimizin içəri tərəfindədir. Arqonlarda düşmənin Er vadisindəki hərəkatından naşi, biz o xətlərimizi Binervilldən cənub-şərqə, Apremondan cənub-qərbə tərəf çəkmək məcburiyyətində olduq.
Amerikalılar hərbə yeni firqələr sövq edərək dəfaətlə Apremon-Sierj və Arqon yamacı bərabərindəki Brielə dəfaətlə təərrüzlər yapmışlar.
Onlar burada məhəlli əhəmiyyəti haiz bir para müvəffəqiyyətə nail olmuşlar. Sierjdən şərqə Apremon ətrafında bizim xətlərimizi Kumel və Feyn meşələrinə tərəf sıxmışlar. Burada düşmənin təərrüzatı [hücumları] bizim müdafiə xətlərimizə rast gələrək dayandırılmış və əlbəyaxa müharibəsindən sonra dəf edilmişdir. Biz əkstəərrüz yapmışıq.
Bizim hava donanmamız müvəffəqiyyətli hücumlar yaparaq düşmənə böyük tələfat vermişdir. Dünkü müharibələrdə düşmənin 150-dən ziyadə tankları tərəfimizdən təxrib edilmişdir [sıradan çıxarılmışdır]. Biz dün düşmənin 33 təyyarə, 3 ədəd balonlarını vurmuşuq.
Berlin – 29 sentyabr. Hərbi xəbər. İprdən şərqə məhəlli toqquşmalar olmuş, Kambre ilə Sen-Kanten arasında güclü müharibələr davam edir. Geniş cəbhə boyu başlanmış ingilis təyziqatı müvəffəqiyyətə nail olmamışdır. Şampanda və Arqon ilə Maas arasında başlanmış firəngamerikalıların təərrüzatı dəf edilmiş, fəqət Ardelin hər iki kənarında düşmən bir qədər irəli soxulmuşdur.
Berlin – 30 sentyabr. Axşamkı hərbi xəbər. Flandriyada filcümlə [bütünlüklə] gün sakit keçmiş. Kambrenin hər iki tərəfində yenilənmiş ingilis təərrüzatı müvəffəqiyyətə erməyərək, böyük tələfatına səbəb olmuşdur. Axşam zamanı Le-Katledən qərbə müharibələr kəsbi-şiddət etmişdir [şiddətlənmişdir]. Şampanda firənglər xüsusi təərrüzlər yapırlar. Arqondan şərqə amerikalıların güclü təərrüzləri dəf edilmişdir.
Berlin – 30 sentyabr. Kronprins Ruprext və Boyn ordusu. Düşmən Flandriyada öz təərrüzatında davam edirdi. Eylülün 26-da düşmənin bizim sipərlərə soxulması bizi müdafiə xəttimizin sağ cinahı[nı] Handzeym arxasından geri çəkib Vitşate xəttini boşaltmağa məcbur etmişdir. Sol cinahda düşmənin Handzeym xətti, Zarren-Vest-rozebek xətləri əleyhinə açdığı təərrüzat tərəfimizdən dəf edilmişdir. Paşendeyl ilə Vossemolen arasında düşmən irəli soxulub, Morslede Dadizeleyə çatmışdır. Burada biz düşmənin təzyiqini dayandırdıq. Lis ətrafında Hautem tərəfindən Komen tərəf[ə] soxulmuş düşmən əks-hücumlarımız nəticəsi olaraq geri atılmışdır. Biz burada Lis ovasında müharibə ediriz. Kambre ilə Sen-Kanten arasında qızğın müharibələr davam edir. Düşmən şəhəri işğal etmək qəsdi ilə müharibəyə 18 firqə sövq etmişdir. Kambredən şimala tərəf 8 dəfə təkrar edilən təərrüzlər nəticəsiz qalmışdır. Tillo yaxınlığında biz müvəffəqiyyətli əks-təərrüzlər yapdıq. Kambre, Provil və Kattenir ətrafında düşmən möhkəmləşməyə müvəffəq olmuşdur. Biz burada şəhərin qərb tərəflərini Şelda arxasında tutub düşmənin dəhşətli hücumlarını dəf ediriz. Markuendən şimala kanal üzərindən edilən düşmən təərrüzləri Kambre-Masniyer yolu üzərində dəf edilmişdir. Markuendən cənuba düşmən bizi Masniyer-Krevekur kanalı tərəfinə sıxmışdır. Düşmən bizi Vaani və Bellikurdan təzyiq altına almış. Biz düşmənin kərratla [dəfələrlə] etdiyi təərrüzlərini tamamən dəf etdik. Bir neçə vaxt müqəddəm [əvvəl] [qeyb] etdiyimiz Viller-Qüsleyni yenidən işğala müvəffəq olduq. Düşmən tərəfindən tutulmuş yeni sipərlər, tərəfimizdən yapılan müvəffəqiyyətli əks-hücumlar nəticəsində işğal edilmişdir. Qonnelye və Viller-Qüsleyn ətrafında dəhşətli müharibələrdə iştirak edən firqələrimiz ehtiyat qitəatımız vasitəsilə əks-hücumlar yaparaq, Markuen tərəfindən üzərimizə yürüməkdə olan düşməni geriyə püskürtmüşdür. Bellikur ilə Bellenqliz[də] düşmən kanaldan irəliyə soxulmuş. Axşam zamanı düşməni işbu xətlərdə dayandırdıq. Bellikurun qərb tərəfləri, Qrikurdan şimala düşmən təərrüzçülərini dəf edən alaylarımız axşam zamanı buradan öz cinahlarını Leokur tərəfinə çəkməyə məcbur olmuşlar. Bizim üçün müvəffəqiyyətli olan dünkü müharibələrdə bizim bütün hissələrimiz iştirak etmişlər. İngilislər məhəlli əhəmiyyəti haiz müvəffəqiyyətə böyük tələfat müqabilində nail olmuşlar.
Alman Kronprins və Qalvits ordusu. Düşmən Uaza və Ena kanalı dairəsindəki təərrüzlərində davam edir. Buradakı pişdarlar [ön qüvvələr] toqquşmasında biz əsirlər aldıq. Syuipp ilə Ena arasında firənglər, Arqonun şərq yamacı üzərinə və Arqon ilə Maas arasında amerikalılar öz təərrüzlərində davam etməkdədirlər. Düşmən dün müharibə meydanına bir neçə yeni firqələr sövq etmişdir. Oberne ilə Sommpi arasında düşmən 9 dəfə təərrüz yapmışdır. Manr və Arbeyldən şərqə olan ərazi düşmən əlində qalmışdır. Biz axşam zamanı düşməni dəf etdikdən sonra Arbeyl, Seşo-Vukozvildən şimala olan Liridə duruyoruz.
Arqon meşələrinin şərq kənarlarındakı sipərlərimiz və Arqon ilə Maas arasındakı xətlərimizi amerikalılar zorlamışlar. Bunların təərrüzatı müvəffəqiyyətə nail olmamışdır. Lirinin vadilərində biz düşməndən Apremon ilə Montrebo meşəsini işğal etdik. Burada amerikalıları kilometrədən ziyadə geri püskürtmüşük. Dün biz 45 düşmən təyyarəsini vurduq.
"Pressbüro"nun 24 eylül [sentyabr] tarixindən verdiyi məlumata görə, eylülün 16-da bir çox qatil və canilər tərəfindən Reyn və Mozel nahiyələrində neçə Almaniya şəhər və kəndləri bombardman edilmişdir. Düşmən əksinə şəhadət [şahidlik] edərsə, yalandır. Onların məqsədi alman millətini və məxsusiyyətini məhv etməkdir. Bu maarif yolunda "mübarizə" edənlər Maynsdakı İohan kilsəsinin dağılması və Ştutqartda 6 qadının və 4 çocuğun öldürülməsi ilə fəxr edə bilərlər. Xüsusi mülklərə və hərbi müəssisələrə zərər dəyməmişdir. Bu "müharibə" zamanında düşmən 36 buçuq saat vaxt itirmişdir. Düşmənin 9 təyyarəsini vurmağa müvəffəq olduq. Böyləliklə düşmənin bu dəfəki hücumunun əhəmiyyəti olmadı. Bununla düşmən daha da bizim nifrətimizi qazanır. Alman milləti heç vaxt Mayns və Ştutqartdakı cinayətləri yadından çıxarmayacaqdır.

## SÜLH ƏTRAFINDA

**Avstriya və sülh**
Avstriya Məclisi-Məbusanında sülh haqqında müzakirat və münaqişat cərəyan etmişdir.

**Mütarikə [atəşkəs] barəsində şayiələr**
Etilaf dövlətlərinin Haaqadan verdiyi məlumatlarına görə, bu il qışın əvailində [əvvəllərində] dava meydanlarında sakitlik başlanan zaman müharib [savaşan] hökumətlər iki tərəfin qəbul edə biləcəyi şəraitlə [şərtlərlə] mütarikəyə başlanılacaqdır. Mütarikə əsnasında hərb və sülh məsələləri də danışılacaqdır.

**Sülh heyəti**
Bolqariya sülh heyətinin üzvləri bu günlərdə Strumçiyə Müttəfiq dövlətlərin müvəkkilləri yanına getmişlər.
Blok orduya etdiyi xitabında, hərbi və vətəndaş nizamının saxlanmasını tələb etmişdir.

**İngiltərə fəhlələri sülh istəyirlər**
Böyük İngiltərə Konfransında fəhlələr 2 milyon yarım səslə yarım milyon rəy müqabilində davanın uzadılmasına zidd bir qətnamə çıxarıb, davadan gözlənilən məqsədlərin elanını hökumətdən tələb etmişlərdir.

**Bolqariya və sülh**
Tiflisdə müntəşir [nəşr olunan] "Borba" qəzetəsi müxbirinin Londradan verilmiş "Bolqariya sülhdə iştirak edəcək" xəbərinin mənasını sorduqda, Almaniya nümayəndəsi doktor Tsuqmayer demişdir ki: "Avstriyanın rəsmi elanından sonra Bolqariyanın bu növ hərəkəti bizə aşkar olmalıdır. Əlbəttə Avstriyanın böylə hərəkəti öz müttəfiqlərinin rəyinə müvafiq olub onların sülhdə iştirak edəcəklərinə şübhə qalmayır. Almaniya və müttəfiqləri arasında heç bir ixtilaf yoxdur. Dobruca və Meriç məsələsindən naşi [ötrü] Türkiyə ilə Bolqariya arasında ixtilaf olmuş idiysə də, Tələt bəyin Berlin səfərindən sonra bu ixtilaf rəf olmuşdur [aradan qalxmışdır], zənn edirəm."

## BOLQARİYA HADİSATI [HADİSƏLƏRİ]

**Bolqariya inqilabı barəsində bolşevik məlumatı**
Moskva mətbuatında Berlindən 29 eylül [sentyabr] tarixindən böylə yazırlar: *"Bu günlərdə Almaniya parlament dairələrində dəvəran edən [gəzən] şayiələrə görə, Bolqariyada əsgər inqilabı vaqe olub, Bolqariyanın Əsgər Nümayəndələri Şurası Ferdinanda taxtdan düşməsini təklif etmişdir. Bundan naşi, Ferdinand Macaristana getmişdir.*
*Bolqariyadan alınan inqilab xəbərləri Berlin borsasında [birjasında] böyük həyacana səbəb olmuşdur. Böyük zavodların səhmləri 60 faiz aşağı düşmüşdür.*
*Hindenburq və Lüdendorf Berlinə gəlmişlər. Bu yaxınlarda Vilhelmin buraya qayıtması bəklənilir."*

* * *

**Hintsin rəyi**
Berlində Hints Reyxstaqın Baş heyətində irad etdiyi nitqində Bolqariya hadisatı barəsində demişdir ki, o, vəziyyəti ciddi sanıb, Bolqariya Hökumətinin qarşı çıxacağına əmindir. Hints güman edir ki, Almaniya tərəfindən Bolqariyaya göndərilən qüvvə məmləkətdə hərbi nizamın iadəsinə [bərqərar edilməsinə] müvəffəq olacaqdır və Bolqariyanın ittifaqdan çıxmağı hələ qəti surətdə deyildir.

## NƏZARƏTLƏRİMİZDƏ [NAZİRLİKLƏRİMİZDƏ]

**Ticarət və Səna'ət [Sənaye] Nəzarətində**
İdarə işlərinə yaxın bir kişinin [nəfərin] təsəvvürati-xüsusiyyəsi [şəxsi təsəvvürləri] ilə bərabər, bu işlərin əhvalından müxbirimizin aldığı məlumat bərvəchi-atidir [aşağıdakı kimidir]:
Şimdilik nəzarətlərin tədili və islah edildiyi [dəyişiklik və islahatlar aparıldığı] əsnada, daxili işimizin haqqında bir öylə fikir izhar etmək olmaz.
Xarici cəhətinə gəldikdə, arada bolşeviklərin bizə buraxdığı neft (mazut) məsələsi vardır ki, istər hökumət, istər mədən sahibləri bu məsələyə sakitanə baxammırlar. Bolşevik hökumətindən qalmış borcları vermək üzrə hökumət bunu bir rəhn [girov] kimi tələqqi [qəbul] edib, kəndi təhti-idarəsində [idarəsi altında] görmək istəyir.
Bundan maəda [başqa] hökumət, əski idarə və müəssisələri yenidən işə salıb, Bakı ticarət və səna'ətini [sənayesini] gözəl bir vəziyyət almaq üçün çalışacaqdır. Ola bilsin ki, yeni açılmış Azərbaycan Dövlət Bankası [Bankı] bu istehsalatı (yəni nefti) girov qoymaq yaxud başqa əməliyyat yapmaq vasitəsilə neft mədənlərini irəliki halına gətirəcəkdir. Bu növ ilə müəssisələr ehtiyacını hökumət bankası ödəmiş olduğu halda, Hacı-Tərxan vasitəsilə Rusiya Hökuməti ilə də əlaqəni eyiləşdirəcəyi [yaxşılaşdıracağı] təbiidir. Rusiya neft satışı üçün bir meydan olduğundan, bu məsələ haqqında hökumət[in] böyük bir ciddiyyət göstərəcəyinə qənaət hasil olunmuş.
Hala [hələlik] bu neft haqqında hökumət çabuqca sərhesab olmaq ilə bir sərmayə hazırlayacaqdır. Yaxud şu nefti sərvətdarlar miyanında [arasında] təqsim edərək [bölərək] onlara maddi bir müavinətdə [yardımda] bulunacaqdır. Ola bilsin ki, bir başqa yol ara[ya]caq olur.
Binaileyh bu xüsusda yollar pək çoxdur. Fəqət lazımdır ki, neft səna'əti, əskidən kəndisini göstərmiş Bakı Neftçiləri Şurası (Sovet Syezd) kimi bir idarə təhti-nəzarətində olsun.
Bu idarəyə bizim etimadımız kamil və ticarətimizin parlaq bir vəziyyət qəbul edəcəyinə ümidimiz də az deyildir.
İştə bundan maəda şimdilik bir şey demək olmasın gərək.

*M. H.*

## BAKI XƏBƏRLƏRİ

Dün Bakı valisi Məhəmməd Fəthi bəy Quba uyezdindən qayıdıb öz vəzifəsini icraya başlamışdır.

***

Maarif naziri əmr vermişdir ki, təşrini-əvvəlin [oktyabrın] 20-də hamı məktəblər tədrisə başlasın.

**General Mehmandarovun təyini**
General S[əməd] b[əy] Mehmandarov Heyəti-Vükəla Rəisi [Baş Nazir] yanında xüsusi məmur təyin olunmuşdur.
Gürcüstan nümayəndəsi
Dün Azərbaycan Hökuməti cənbində [yanında] Gürcüstan Cümhuriyyəti tərəfindən siyasi nümayəndə təyin olunmuş Kartsivadze Bakıya gəlib Xariciyyə nazirini ziyarət etmişdir.

**Gürcüstandan ötrü neft**
Azərbaycan Hökuməti qət etmişdir ki, ticarət və tranzit şərtnaməsi bağlanılacaqdır. Gürcüstan Hökumətinə üç gün müddətində hər gündə 13 vaqon neft və 2 vaqon cövhər göndərilsin. Yuxarıda yazılan şərtnaməni bağlamaq üçün bu günlərdə Bakıya Gürcüstan müvəkkili gələcəkdir.

**Çörəkçilərin istidası [xahişi]**
Məlum olduğu üzrə Bakı dəyirmançılarından Ağabala Quliyev bu vaxta kimi Bakı şəhərinin un və çörək işlərinə nəzarət edirdi. Keçən gün Bələdiyyə İdarəsinə gələn bir çox çörəkçilərin imzaları ilə imzalanmış ərizədən anlaşılmış ki, Ağabala Quliyev öz vəzifəsindən kənar edilmişdir.
Binaileyh [buna görə], çörəkçilər Quliyevin çörək və un işində olan təcrübəsini və camaat işlərində göstərdiyi məharət və xəbərdarlığını nəzərə alıb da Bələdiyyədən xahiş edirlər ki, mərqum [adı çəkilən] Quliyev dübarə öz vəzifəsinə iadə edilsin [qaytarılsın].

**Zibil (süpürüntü) yandıran buxarılar**
İdarənin qərarına binaən şəhərin müxtəlif mərkəzlərində iyirmi ədəd süpürüntü (zibil) yandıran buxarılar təmiri məsələsi təhti-qərara alındı. Bunun üçün 113 min rublə xərc ediləcəkdir.

**7 milyon rublə istiqraz**
Bələdiyyənin nəqdiyyə [maliyyə] cəhətcə işləri pək fəna olduğu barəsində İdarə tərəfindən dinlənib axırda qərar verildi ki, Türk Komandanlığından 7 milyon rublə Bələdiyyə məsarifi üçün istiqraz xüsusunda təşəbbüsatda bulunulsun.

* * *

Eylülün [sentyabrın] 30-da Şəhər İdarəsi rəisi İlyuşkinin məruzəsindən anlaşılmışdır ki, şəhərin maliyyə cəhətcə halı çox da yaxşı deyildir. Şəhərin 7 milyona kimi zərəri və 50 milyondan ziyadə borcu vardır. Şəhərin lazımi ehtiyacı, yeni xəstəxana, zibil arabaları, məmurların məvacibini verməkdən ötrü yeni mədaxil lazımdır.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 10 oktyabr (Cümə axşamı günü) tarixli XI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bu qədər müşkül halda olan maliyyə məsələləri həll olunana qədər, Şəhər İdarəsinin Maliyyə şöbəsi qət etmişdir ki, Azərbaycan Hökumətinə müraciət edib faizsiz milyon yarım borc istəsin.

* * *

Dəmiryolları naziri [müfəttişi] mühəndis Pərviz Mirzə hamı mövqif [stansiya] naçalniklərinə (Poylu mövqifinə kimi) müraciət edib, mövqiflərdə Bakı bon puluyla Nikolay və Kerenski pullarının bərabər qiymətlə işləməsini xahiş etmişdir.

**Kiçik zabitan [zabitlər] məktəbi**

Gəncədə kiçik zabitan məktəbi fəaliyyətə başlamışdır. Kimin aşağıda əsamisi zikr olunan [adları çəkilən] məktəblərdən şəhadətnamələri olanlar, məktəbə daxil ola bilər:

1) Gimnaziya;
2) Realnı məktəbi;
3) Ticarət məktəbi;
4) Kadet korpus məktəbi;
5) Edadi sənaye məktəbi;
6) Ərazi məktəbi;
7) Darülmüəllimin;
8) Ali darülmüəllimin;
9) Bəhriyyə [dənizçilik] məktəbi;
10) Ali-ibtidai məktəbi;
11) Şəhər məktəbləri;
12) İki sinifli xalq məktəbi;
13) Yunkerlər məktəbi;
14) Azad əsgərlik şəhadətnaməsi;
15) Əvvəlinci dərəcə şəhadətnamə;
16) Xalq müəllimi şəhadətnaməsi;
17) Sənət məktəbi;
18) Tiflisdəki Bağbanlıq məktəbi;
19) Ev müəllimi şəhadətnaməsi;
20) Bakıdakı Səadət məktəbi;
21) Tiflisdəki Ruhani məktəbi;
22) Tiflisdəki Əli və Məhəmməd ruhani məktəbi;
23) Hərbi feldşer məktəbi;
24) Ali sənaye məktəbi.

**Bələdiyyə Şurası**

Srağa gün Qasım Qasımovun təhti-sədarətində [sədrliyi altında] olaraq Bələdiyyə Şurasının iclası vüqu bulmuşdur. Əvvəlcə Bələdiyyə Şurası üzvü Roxlin və Bələdiyyə İdarəsi üzvü M[əlik bəy] Soltanovun öz vəzifələrindən istefaları ərizə[si] dinlənib, Şura tərəfindən qəbul edilmişdir.

Bə'dəhu [ondan sonra] məsailicariyyədən [cari məsələlərdən] hifzüssihhə [gigiyena] və su işlərinə baxan şöbələrə üzv intixabı [seçilməsi] məsələsi məhəlli-müzakirəyə qonuldu. İntixabat nəticəsində mühəndis İbad Əliyev su işlərinə baxan üzv 32 səs ilə intixab edilmişdir. Həmçinin Yaqub Mehdiyev Bələdiyyə rəisi müavinliyinə ildə 15 min rublə məvacib ilə intixab edildi.

**Bir buçuq milyon rublə istiqraz**

Bələdiyyə İdarəsi üzvü Pleskaçevskinin layihəsilə Bələdiyyənin məsarificariyyəsi [cari xərcləri] üçün Azərbaycan Hökumətindən bir buçuq milyon rublə istiqraz etmək əksəriyyəti-ara [səs çoxluğu] ilə təhti-qərara alındı.

Sonra Darüleytamın [yetimxananın] çocuqlara məxsus xəstəxanaya təbdil edilməsi [çevrilməsi] məsələsi bir çox mübahisata uğradı.

Axirüləmr [nəhayət] qərar verildi ki, upravanın layihəsi qəbul edilsin və Darüleytam çocuq xəstəxanasına təbdil edilsin. Bununla bahəm, Bələdiyyə İdarəsinə təklif edilir ki, Bələdiyyənin darüleytam idarələrinə ciddi nəzarət etsin.

## TİFLİS XƏBƏRLƏRİ

Tiflis qəzetələrində gürcü Daxiliyyə Nəzarətindən böylə xəbər verirlər.

Daxiliyyə Nəzarətinin cənbindəki [nəzdindəki] xüsusi heyət xəbər almışdır ki, sabiq gürcü bəy və knyazları sabiq zadəgan rəisi Baqration-Davidovun evində gizli müşavirələr yapırlar. Bu müşavirələrdə keçmiş inqilab zamanı onlara verilmiş zərərin Qori uyezdi kəndçilərindən alınması məsələsi müzakirə edilirmiş. Hökumətdən gizli xüsusi zadəgan dəstəsi təşkil edib, bu növlə kəndçilərdən zərərləri almaq qət olunubmuş. Bu dəstə 1905-ci ildən bəri Abduşelişvili tərəfindən təşkil olunub da, Qori uyezdində baş çıxaran "Qara zadəgan üzlüyü" məramnaməsi ilə tərtib ediləcəkmiş. Həmin firqənin sabiq üzvləri də bu yeni təşkilatda iştirak edəcəkmişlər. Daxiliyyə nazirinin əmrilə Georgi, David və Vasili Baqration-Davidovlar, Roman və İvan Bektabekovlar, Aleksandr Dekanozov, Yusif Tarkanov həbs edilmişlər. David Baqrationu həbs etdikdə, axtarış nəticəsində Varvara Baqration adına bir vəkalətnamə tapılmışdır. Bu vəkalətnamə mövcibincə [əsasında], 1907-ci sənədəki zərəri pul ilə və mal ilə yığmağa vəkil olunubdur. Varvaranın zəhmətinə görə ona "hərbi qənimətdən" böyük mükafat veriləcəkmiş. Bu qaragüruhun təşkili Gürcüstan Hökumətini gələcəkdəki iğtişaşdan xilas edir.

**Azərbaycan ilə Gürcüstan arasında mal mübadiləsi**

Gürcüstan Cümhuriyyəti Maliyyə Nəzarətindən Qərz [borc] şöbəsi dəftərxanasının naziri [müfəttişi] Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəsindən rica etmişdir ki, Azərbaycan Hökuməti indində [nəzdində] Gəncə quberniyasından Tiflisə kəndir yağı gətirmək barəsində təşəbbüsatda bulunsun. Bu yağ kağız pul təb'indən [çapından] ötrü ən lüzumlu bir şeydir.

Qəndin buğda və arpaya təbdil [mübadilə] ediləcək müqaviləsi icrasına məbni [əsasən], Tiflisdən Gəncəyə 4 vaqon qənd göndərilmişdir.

## ƏRBABİ-HİMAYƏNİN NƏZƏR-DİQQƏTİNƏ

7 yaşında bir oğlum iki sənədir ki, şikəst olmuşdur. İmdi həkimlərin dediyinə görə, uşağa gəzməkdən ötrü qoltuq ağacı lazımdır. Bu ağacın fiatı isə 900 rublədir. Bakı əhalisinə üzümü tutub rica edirəm ki, mənə köməkdə bulunsunlar. Allah eşqinə uşağa müavinətdə [yardımda] bulunsunlar.

Pozenovski küçə, ev nömrə 18.

Məhərrəm Məhəmmədrza oğlu.

## QUBERNİYA ƏHVALI (VİS-QUBERNATOR [VİTSE-QUBERNATOR] MÜSEYİB BƏY İLƏ MÜSAHİBƏ)

Bakı quberniyası xüsusunda bəzi məlumat almaq məqsədi ilə mühərririmiz Bakı Vali müavini Müseyib bəy ilə müsahibədə bulunmuşdur. Müseyib bəy cənabları bu xüsusda demişlər ki:

*"Bu gün Bakı quberniyasının bütün dairəsi bizim təhti-idarəmizdədir [idarəmiz altındadır]. Ancaq Lənkəran uyezdində Lənkəran şəhəri və ətrafı qeyd olaraq həlalik bizə təbəiyyət [tabeçilik] etmirlər. Oradakı müsəlləh [silahlı] dəstələr bu vaxta kimi müharibəsiz təhti-təbəiyyətimizə girməmişdir. Lakin bunu da demək gərək ki, bu sonku müzakiratdan anlaşılmış ki, Lənkəran qarnizonu da tərki-dava edib, bu günlərdə tərki-silah edəcəkdir. Quberniyanın sair uyezdlərində həyati-ictimaiyyə ən adi bir surətdə davam etməkdədir. Ərzaq cəhətdən ucuzluq və bolluq hər yerdə müşahidə olunur. Yolların sələmətliyi, uzaq kənd və qəsəbçələrdə olan sükun və rahatlıq və istirahət ən kafi dərəcədədir. Uyezdlərdə qəhətlik və bahalıq ancaq qənd, çay, manufaktur və neft kimi əşyada müşahidə olunur. Uyezdin mərkəzi şəhərlərində xəzinə idarələri, məhkəmələr və şəhər idarələri qərari-sabiq üzrə təşkil edilmişlər. Bəzi mərkəzlərdə kəndxudalıq əvəzində bələdiyyə idarələri təşkil edilmək xüsusunda da təşəbbüsatda bulun[ul]muşdur. Piyada və atlı qaraqollar [qarovullar] hər bir şəhərlərdə bərqərardır. Zəbtiyyə idarələrinə gəldikdə, bu işlər dəxi get-gedə təhti-intizama [intizam altına] alınmaqdadır. Polis idarələri hər bir lazımlı məhəllərdə açılıb, polis məmurları təyin edilmişlər. Polis dairələrində atlı və piyada zəbtiyyələr təşkil edilmişlər. Postaxana və teleqraflar öz sabiqki qaydaları üzrə işləyirlər. Bütün Kür çayı boyu, Qalaqayından başlamış Bankəyə kimi çay paraxodları işləməkdədir. Ərəş, Şamaxı və Cavad uyezdlərində bir çox kənd və qəsəbçələr var ki, əhalisi qaçıb bağ, bostan və əkinəcəkləri sahibsiz qalmışlar. Bu qaçqınlar vilayətimizdə görünən sülh və asayişi görüb əcələ ilə [təcili surətdə] bizdən izin hasil edirlər ki, öz vətənlərinə övdət etsinlər [qayıtsınlar].*

*Lənkərandakı müsəlləh qoşun ilə tərki-silah barəsində bizim müzakiratımız bu günlərdə xitam bulacaqdır. O zaman bütün quberniyada Azərbaycanın hökuməti-təmməsi [tam hakimiyyəti] bərpa ediləcəkdir."*

*Məhəmməd Sadiq*

## TÜRKİYƏDƏ YENİ İAŞƏ QƏRARNAMƏSİ

İstanbulda nəşr edilən "Vəqt" qəzetəsi mühərriri İaşə naziri Kamal bəylə görüşüb atidəki bəyanatı eşitmişdir:

*"İaşə qərarnaməsinin bu həftə intişar edəcəyinə [nəşr olunacağına] nəzərən, yeni qanunun tətbiqinə ağustos ayının ibtidasından [əvvəlindən] etibarən başlanacaqdır. İaşə Nəzarəti Məclisi-Vükəlaya daxil bulunacaq və yeni nəzarət müxtəlif şöbələrlə, mübayiat [tədarük] və tövziat [paylaşdırma] xüsusatıyla [məsələləri ilə] iştiqal etmək [məşğul olmaq] üzrə iki böyük dairəyə ayrılacaqdır. Yeni qanun başlıca üç mühim nöqtəni ixtiva [əhatə] etməkdədir. Bunlardan birincisi nəzarətin vəzaif [nazirliyin vəzifələri] qismi, ikincisi nəzarətə verilən səlahiyyətlər, üçüncüsü də mücazat [cəzalar] fəslini təşkil etməkdədir.*

*Vəzaif qismindəki məvadda [maddələrə] görə, İaşə Nəzarəti müamilati-ticariyyəyə [ticarət əməliyyatlarına] doğrudan-doğruya [birbaşa] bir müdaxilə icra etməyəcək, tacir ilə bir rəsmi dairə [qurum] kimi deyil, daha çox bir tacir kimi hərəkət edəcəkdir. Bu surətlə müəyyən əsaslar daxilində piyasada [bazarda] ticari bir rəqabət tövlidinə [yaranmasına] uğraşılacaqdır. Əşardan bir qaç misl yerinə yalnız bir misl alınacaq, digər ehtiyacat [ehtiyaclar] piyasadan peşin [nağd] para verərək mübayiə [satın almaq] surəti ilə tətmin [təmin] olunacaqdır. İdxalat və ixracat beynindəki [arasındakı] müvazinənin pozulmamasına çalışılacağı kimi, bunlar arasındakı nisbət daima göz önündə tutularaq, ona görə tədabir ittixaz olunacaqdır [tədbirlər görüləcəkdir]. Bunlar üçün yeni Nəzarətə [Nazirliyə] firqə əzasının da [partiya üzvlərinin də] təsvib etdiyi vəchlə [bəyəndiyi kimi] kafi dərəcə vasi [geniş] səlahiyyət verilmişdir. Qanunun mücazat [cəzalar] fəsli əski iaşə qərarnamələrinə nəzərən daha az mücazəti [cəzanı] istida [tələb] etməkdədir.*

*Yeni İaşə Nəzarəti aldığı vəsait və səlahiyyətlərə müqabil, əhali ilə bərabər, hərb məntəqəsi xaricində bulunan ordunun da iaşəsini dəröhdə etmişdir [öhdəsinə götürmüşdür]. Hərb məntəqəsi olan yerlər şimdilik yenə cəhəti-əsgəriyyə tərəfindən iaşə olunacaqdır."*

Kamal bəy məmurların pək acıqlı bir vəziyyətdə olduğunu və bunlara nə yapılmaq təsəvvüründə bulunulduğu[nu] istifsar edən [soruşan] mühərrirlərimizə cavabən: *"Hər halda ilk işim məmurların tərfihi-əhvalına [rifahını yüksəltməyə] çalışmaq, onların ac qalmasına meydan buraxmamaq və sui-istemalın [sui-istifadənin] önünü almağa uğraşmaq olacaqdır" deyə müqabilədə bulunmuşdur.*

Məmurlara hər ay müntəzəmən ərzaq verilməyə çalışılacaqdır. Yeni qərarnamənin tətbiqi ilə vəziyyətdə eyicə bir səlah [yaxşılaşma] hüsula gələcəyi qəviyyən [qüvvətlə] məmul olmaqla [ümid edilməklə] bərabər, həman bu qərarnamə nəşr edər-etməz, ortalığın sütliman [tamamilə, heç bir problem qalmadan] düzəlməyinə inanmaq da pək ziyadə safdillik [sadəlövhlük] olar. İaşə işi, böyük və çətin bir işdir. Məmləkətin mənabeyi-iqtisadiyyəsi [iqtisadi mənbələri] dörd sənəlik bir hərb ilə çox əskilmişdir. Xalq birdən-birə böyük şeylər bəklər və həman sülh zamanının övdətini [qayıtmasını] istər isə, təbii, bu qabili-icra [icrası mümkün] olammaz. Mə'həzə [bununla belə], Kamal bəyin təminatına görə, hər dürlü qeyrət sərf olunacaq, hər dürlü himmətdə bulunulacaq, qabili-icra olan şeylər sırasıyla, peydərpey [bir-birinin ardınca] möveyi-tətbiqə qonulacaqdır.

## XARİCİ XƏBƏRLƏR

Petroqradda

Petroqraddan Tiflis qəzetələrinə xəbər verirlər ki, bu az zamanda siyasi inqilab gözlənildiyindən, şəhər əsəbi bir vəziyyət almışdır. Əksinqilabın qarşısına hökumət tərəfindən ciddi tədbir görülür. Sərhəddə zirehli avtomobillər gəzişir. Bir çox soqaqlarda pulemyotlar qoyulmuşdur. Əhali evlərindən dışarı çıxmayırlar.

"Royter" acentəsinin nəşr etdiyi [yaydığı] məlumata nəzərən, Amerika dövlətinə xəbər verilmişdir ki, Petroqradda 12 yerdə yanğın vaqe olub, soqaqlarda qətl və qarət hökmfərmadır [hökm sürür].

Petroqraddan Nikolayevə xəbər verirlər ki, Kronştadt, Helsinqfors və Sveaborqda duran vaporlar Neva çayına girib, Petroqrad sahilində qərar tutmuşlar. Vaporlardakı toplar şəhərə doğru çevrilib, paytaxt atəş altında saxlanılmaqdadır.

* * *

Ermənistan Cümhuriyyətinin Daxili[yyə] naziri Erməni Şurasına layihə təqdim edib, teleqrafda "Markoni" aparatında erməni hərflərinin işlənməsini xahiş etmişdir. Bu layihə Şura tərəfindən qəbul olunub, bu il təşrinisani [noyabr] ayından işləniləcəkdir. Poçta müəssisələrində teleqraflar erməni və rus dillərində qəbul olunacaqdır.

* * *

Sabiq Şəhər rəisi Zoryan Axalsıxdan gəlmişdir. Onun dediyinə görə, türklərlə ermənilərin əlaqəsi pək gözəldir. Ərzaq məsələsi də artıq eyidir. Əkmək (çörək) girvənkəsi 60 qəpik, yağ 7 rublə yarım, patatesin (kartof) putu 4 buçuq [yarım] rublədir.

**Ermənistanda**

İrəvandan gələnlərin rəvayətinə görə, Erməni Cümhuriyyətindəki qaçqınların ədədi yarım milyona varmışdır. Bunların çoxusu ərzaq qəhətliyindən və müsri [yoluxucu] naxoşluqdan ölürlər. Burada ərzaq məsələsi artıq müşküldür. Xaricdən mal gəlməyir. Malların qiyməti o qədər artıqdır ki, bazardan bir şey almaq heç mümkün deyildir. Məsələn qəndin girvənkəsi 40 rublə, çay 120 rublə, əkməyin girvənkəsi isə 4 – 4 yarım rublədir. Meyvəcat Tiflisdəkindən bir az ucuzdur.

Müsəlmanlar İrəvandan və quberniyadan çıxmaqdadırlar.

**Hindistanda iğtişaş**

"Tayms" qəzetəsinin müxabiri [müxbiri] Kəlküttədən verdiyi məlumata görə, eylülün [sentyabr] 10-da Hindistan müsəlmanları arasında iğtişaş başlanmışdır. Buna səbəb İngiltərə qəzetələrinin birində yazılmış və müsəlmanları təhqir edici məqalə olmuşdur. Bəzi yerlərdə polis tərəfindən üsyançılara atəş açılmışdır. Üsyançıların başçısı ölüb, neçə nəfəri də yaralanmışdır.

**Rabindranat Taqorun həbsi**

Stokholmdan xəbər verirlər ki, Hindistanda polis tərəfindən təqib edilən məşhur hind ədibi Taqor həbs edilmişdir.

## ALMANİYANIN HƏRBİ VƏZİYYƏTİ

Berlindən 27 eylüldən [sentyabrdan] Gürcüstan Teleqraf Acentəliyinə verilən xəbərlərə görə, Reyxstaqın Baş Komitəsində general fon Versberq hərbi nazir əvəzindən Reyxskanslerin nitqindən sonra qərb cəbhəsi müharibələri haqqında işbu bəyanatda bulunmuşdur:

Hücumumuzu dayandırdıqdan sonra ümumi vəziyyət büsbütün dəyişdi. Biz hücumdan müdafiəyə keçmək məcburiyyətində qaldıq. Düşmənin əvvəlinci təzyiqi Manr xətti əleyhinə başlandı. Əvvəllərdə düşmən bir çox müvəffəqiyyətlərə nail oldu. Hazır durmuş ehtiyat hissələrimiz vasitəsi ilə təcili surətdə cəbhəmizi möhkəmləşdirməyə nail olduq. Xətlərimizi hərbi nöqteyi-nəzərindən En, Vel nəhrləri civarlarından geri çəkmək məsələsi gözəl surətdə tərəfimizdən icra edilmişdir. Ləvazimati-hərbiyyə və ərzaqın çox[u] tərəfimizdən işlənilmişdir. Düşmənin mükərrərən [təkrar-təkrar] yapdığı qanlı təərrüzləri [hücumları] tərəfimizdən dəf edilmişdir. Böyləliklə düşmənin əvvəlinci təərrüzləri bir qədər müvəffəqiyyətli olmuşdur. Şu təərrüzat hərbi əhəmiyyəti haiz kimi baxılarsa, müvəffəqiyyətsiz olmuş kimi tələqqi [qəbul] ediləcəkdir.

Ağustosun 8-də Anqr ilə Avru arasındakı ingilislərin təərrüzləri bizim komandanlığa gizli deyildi, fəqət düşmənin buradakı müvəffəqiyyətinə bir çox tankların iştirakı və havanın namüsaidliyi səbəb olmuşdur. Anqr ilə Avru arasında düşmənin bizim xətlərimizə soxulması Mondidyedən cənuba çəkilməmizə bais olmuşdur. Eylülün 10-da başlanmış buradakı düşmən təərrüzləri gecikmişdi. Eylülün 13-də düşmən Uaza ilə En arasında təərrüzə keçdi. Biz isə kanal və Elet arxasına çəkildik. Şimalda Karyo ilə Somma arasında ingilislər hücumlar yapdılar. Biz müharibəyə əvvələn hazırlanmış arxa xəttimizdə başladıq. Bura sipərlərinin də layiqli olduğunu düşününcə, əvvəlki möhkəm sipərlərimizə çəkildik. Biz çəkildiyimiz ərazi bir çox zamandan bəri müharibə meydanı olduğundan naşi xarabazara dönmüşdür. Burası ən yaxın zamanda düşmənin qoşunlarına belə fəna təsirlər bağışlayacaqdır. Yeni sipərlərdə düşmənin gələcək təərrüzlərini bəkləyəcəyiz. Düşmənin külli qüvvəsi təərrüzünə düçar olma[ma]q qəsdi ilə Epir ilə La-Base arasındakı xətdə geri çəkilməyə məcbur olduq.

Burada biz kanalı da buraxdıq. Eylülün 12-də ingilis-amerikalıların təərrüzləri Sen-Mişel xəttinə tərəf çevrildi. Buranı biz düşmən hücumundan əvvəl təxliyyə etmişdik. Əlbəttə ki, biz müdafiə etdiyimiz üçün bir çox əsir və qənaim [qənimətlər] verməklə böyük tələfata düçar olduq. Biz deyə bilərik ki, düşmən hücumun əvvəlinci günləri tələfatsız müvəffəqiyyətlər qazanmış, fəqət sonra isə düşmən külli tələfata düçar olmuşdur. Amerika qoşunları da bizi qorxuya salammaz, biz onlarla da bacaracağız. Bizi düşündürən məsələ, tank məsələsidir. Biz onlar əleyhində də layiqincə müsəlləh [silahlanmış] olduğumuz halda çıxacağız. Onların dəf'i texnika məsələsi olmayıb, əsəblər məsələsi kimi görülür. Düşmən əxbarı indi xüsusi bir aramlıq [təmkin] ilə oxunmalıdır. Düşmən bizim ruhumuzu öldürmək qəsdi ilə müvəffəqiyyətlərini böyüdürlər. Bizim qoşunlarımız öz komandanlarına layiqincə inanırlar.

## KONT ÇERNİNİN MÜHİM BİR NİTQİ

Məclisi-Əyanda sabiq Xariciyyə naziri Kont Çernin siyasəti-daxiliyyə ilə siyasəti-xariciyyə arasında ahənk lüzumundan bəhs edərək, siyasəti-xariciyyənin alman siyasəti olmasından dolayı izhari-məmnuniyyət eyləmiş [məmnuniyyətini bildirmiş] və bunun hökumətin, Almaniya ilə olan ittifaqı daha sıxı bir hala gətirməyə qeyrət etməsi ilə təzahür eylədiyini, halbuki şimdiyə qədər təqib edilən siyasəti-daxiliyyənin Avstriyanın qüvveyi-müqavimətinə toxunduğunu və düşmənləri hökmdarlıq əleyhindəki siyasətlərində təşci etdiyini [cəsarətləndirdiyini] söyləmiş və demişdir ki: *"Etilaf, Almaniyaya qarşı olan sarsılmaz sədaqətimizi görərək, bizi heç bir zaman bir sülhi-münfəridə [tək başına sülh] əqdinə sövq edəmməyəcəyini anlayınca, bizə qarşı kəndi iddialarınca təvəccöhkarənə olan [hüsn-rəğbət bəsləyən] tövr və vəziyyətini dəyişdirmiş, hökmdarlığımızı parçalamaq siyasətini təqibə başlamışdır. Avstriya-Macaristan hərbin davamı müddətincə Almaniyanın ya dostu və ya düşməni ola bilər. Fəqət Almaniyaya qarşı bitərəf bir vəziyyətdə bulunması qətiyyən mümkün deyildir."*

Xətib [natiq] bundan sonra Avstriya-Macaristan ilə İngiltərə arasında bir təzad və ixtilaf bulunmadığını və binaileyh Avstriyanın Almaniya ilə İngiltərə arasındakı müharibədə mütəvəssit [vasitəçi] rolunu oynağa namizəd bulunduğunu qeyd etmiş və alman Baş Vəkili [Baş Naziri] Kont Hertlinq tərəfindən Belçikaya dair vüqu bulan bəyanatiaxirəyi [axırıncı bəyanatı] böyük məmnuniyyətlə qarşılamış və: *"Bu mümtaz [seçilmiş] hökumət adamının etidalı [mötədilliyi], hərbin düşmənlərimizin xəyalpərvəranə niyyati-fütu-hatcuyanələrini [xəyalpərəstcəsinə fatehlik niyyətlərini] tərk etdikləri gün nəhayət bulacağı xüsusunda Almaniya üçün bir təminat təşkil eyləməkdədir. Almaniya Baş Vəkili kimi Lloyd Corc və Xariciyyə nazirimiz də bəyanatları vəchi ilə [bəyanatları üzrə] sülh təkliflərini tədqiqə amadədirlər [hazırdırlar]. Buna rəğmən, heç kimsə bir təklifdə bulunmaq istəməyir.*

*Bu vəziyyətdən çıxmaq, ancaq iki zümrənin sülh təkliflərini, bunları müqayisə və etilaf [uzlaşma] təmini imkanı tədqiq edə [axtara] biləcək bir bitərəf dövlətə tövdi [təqdim] etmələri ilə mümkün ola bilər. Əgər bir etilaf imkanı varsa, böylə bir təşəbbüsdə bulunmaq lazımdır."*

Xətib nəhayət lehlər [polşalılar] tərəfindən vüqu bulan tənqidatı [tənqidləri] rədd edərək, gərək Brest-Litovsk, gərək Bükreş [Buxarest] müsalihələrinin [barışıqlarının] bir barışma sülhü olduğunu və Rumıniyanın bu müsalihə fəsx [ləğv] edildiyi və Bessarabiya kəndisindən təkrar alındığı təqdirdə protestoya qərar vermiş olmasıyla da sabit bulunduğunu [təsdiqləndiyini] bəyan etmişdir.

**Qəzetələrin mütaliatı [oxunması]**

Qəzetələr Kont Çernin tərəfindən Əyan Məclisində sərd olunan [meydana qoyulan] bəyanatdan bəhs etdikləri sırada müşarünileyhin [adı çəkilən şəxsin] Avstriya-Almaniya ittifaqı haqqında hərarətli bir lisan ilə irəli sürüyü nəzəriyyatı ziyadəsilə təqdir və etilaf hüsulu [uzlaşma meydana gəlməsi] mümkün olub-olmadığını tədqiq etmək məqsədi ilə tərəfeyni-mühari-beyncə [savaşan tərəflərin] bitərəf bir hökumətə sülh şərtlərini təbliği xüsusundaki təklifi təsvib eyləyib [bəyənib], bundan başqa Məclisi-Əyanda xətiblərdən qismiəzəmi [çoxunun] Almaniya ilə qeyri-mütəzəlzəl [sarsılmaz] bir ittifaq əqdi [bağlanması] üçün idareyi-lisan etməsini [danışmasını] məmnuniyyətlə tələqqi edirlər.

**ELAN**

Balaqədeş Kərbəlayı Seyidəli oğlunun 3 yaşar, sarı kəhər, sol ayağı səkilli, sağ qulağı yarıq atı Bülbülə kəndindən kənar beş gün əqdəm [qabaq] çöldə otlağa buraxıldığı vaxt, itmişdir. Hər kəs tapılmasını Bülbülə kəndində Hacı Əmir Əmirova xəbər versə, 50 manat mükafat alacaqdır.

**Müdiriyyət:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri: Almaniyada***

*səh. 153. "Prins Maks Baden": Qəzetdə səhvən "Prens Maks Duya" kimi getmişdir.*

*"3 – Baş Vəkil Prins Maks Baden proqramını yaxında Məclisə tövdi edəcəkdir.": Burada "Məclis" deyərkən, Almaniya imperiyasının ali qanunverici orqanı olan Reyxstaq nəzərdə tutulur.*

***Müharibə meydanında:***
***Gürcüstan Teleqraf Acentəsindən***

*səh. 155. "Almaniya Kronprins ordusu. Elet-En arasında…": Kronprins Vilhelm Orduları Qrupu nəzərdə tutulur.*

*səh.157. "Alman Kronprins… ordusu.": Kronprins Vilhelm Orduları Qrupu nəzərdə tutulur.*

*"Pressbüro": burada söhbət Amerika Mətbuat Agentliyindən gedir.*

***Sülh ətrafında:***
***Bolqariya və sülh***

*səh. 158. "Meriç": Qəzetdə səhvən "Marin" kimi getmişdir.*

***Bolqariya hadisatı:***
***Bolqariya inqilabı barəsində bolşevik mətbuatı***

*səh. 159. "…Bolqariyanın Əsgər Nümayəndələri Şurası…": Bolqarıstan Fəhlə və Əsgər Deputatları Soveti nəzərdə tutulur.*

*"Ferdinand": 1908-1918-ci illərdə Bolqarıstan çarı olan I Ferdinand nəzərdə tutulur.*

*"Vilhelm": 1888-1918-ci illərdə Almaniya imperatoru olan II Vilhelm nəzərdə tutulur.*

***Nəzarətlərimizdə***

*səh. 160. "M. H.": bu imza Hənəfi Zeynallıya məxsusdur.*

***Bakı xəbərləri:***
***Gürcüstandan ötrü neft***

*səh. 160. "Cövhər": kerosin nəzərdə tutulur.*

***Türkiyədə yeni iaşə qərarnaməsi***

*səh. 164. "Kamal bəy": "Qara Kamal" adıyla tanınan Əhməd Kamal bəy nəzərdə tutulur.*

*"Əşar": Kənd təsərrüfatı məhsullarından onda bir nisbətində tutulan vergi.*

*"Firqə əzası": Burada söhbət hakim İttihad və Tərəqqi partiyasının üzvlərindən gedir.*

***Xarici xəbərlər***

*səh. 165. "Markoni": İtalyan mühəndis Qulyelmo Markoni [Guglielmo Marconi] tərəfindən icad edilən teleqraf cihazı.*

***Kont Çerninin mühim bir nitqi***

*səh. 167. "Məclisi-Əyanda…": Avstriya-Macarıstan Parlamentinin Əyan palatası (Herrenhaus) nəzərdə tutulur.*

*səh. 168. "Almaniya Baş Vəkili kimi Lloyd Corc və Xariciyyə nazirimiz…": Almaniya Baş Naziri Maksimilian fon Baden və Avstriya-Macarıstan Xarici İşlər naziri Ştefan Burian nəzərdə tutulur.*




# "Formula-1"in Azərbaycan modeli

## Bakı motoidman fanatları üçün unudulmaz yarış məkanına çevriləcək





**Mötəbər idman yarışlarına evsahibliyi etmək hər bir ölkənin arzusudur. Amma hər ölkənin bütün dünyanın izlədiyi, sayı minlərlə ölçülən idmançıların iştirak etdiyi tədbiri təşkil etməyə, birdən-birə on minlərlə turisti qarşılamağa imkanı çatmır. Hətta bir çox inkişaf etmiş ölkələr belə bu baxımdan müəyyən tələblərə cavab vermir.**







Bu da təbiidir. Çünki qlobal miqyaslı idman tədbirinə evsahibliyi üçün geniş komplekslər və beynəlxalq standartlara cavab verən infrastruktur olmalıdır. Azərbaycan bu baxımdan örnək sayılacaq ölkələrdən biridir. Çünki respublikamızda ilk növbədə ən müasir tələblərə cavab verən idman infrastrukturu və yarışların təşkili üçün təcrübə formalaşıb.

Bu həftəsonu start götürəcək və ölkəmizin sayca 6-cı dəfə evsahibliyi edəcəyi "Formula-1"in də artıq dünyada Azərbaycan modeli yaranıb. Məlumdur ki, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir.

Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rola malikdir. Bir çox ölkələr beynəlxalq tədbirlərə evsahibliyi etmək üçün rəqabət aparır. Belə yarış və tədbirlərin ev sahibləri illər belə müəyyən olunur. Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsiz mühitə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Bundan öncəki illərdə olduğu kimi, bu dəfə də Azərbaycan "Formula-1" yarışlarına adına layiq uğurla evsahibliyi edəcək. Dünyanın bütün qitələrinin telekanallarında yenə də "Bakı", "Azərbaycan" sözləri qürurla səslənəcək. "Formula-1" təqvimindəki ən yeni trekin yarışa hazırlığı yüksək səviyyədədir. Hər şey çox mükəmməl təşkil olunub. Bu il təşkilatçılar ötən illərə nisbətən daha hazırlıqlıdırlar. Mütəxəssislər hesab edirlər ki, ötən il Bakıda keçirilən yarış xoş sürprizlə yadda qalmışdı, bu il isə Azərbaycan Qran-prisi daha möhtəşəm olacaq.

Bakı Şəhər Halqası paytaxtımızın tam mərkəzindən və ən gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqamı qarşıya məqsəd qoyublar. "Formula-1" Azərbaycan Qran-prisi Azadlıq meydanından start götürəcək və həmin yerdə də başa çatacaq. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində olacaq.

Azadlıq meydanı yarışın başlayıb bitdiyi yer olduğu üçün trekin əsas hissəsini təşkil edəcək. Burada inşa olunan Paddok arenasında yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, "Formula-1" rəhbərliyinin ofisləri, eləcə də 22 iştirakçının hər biri üçün 2 ədəd olmaqla, 44 dayanacaq tikilib. Məhz bu ərazidə yarışın startı və finişi olacaq. Qaliblər isə pit binasının podium hissəsində mükafatlandırılacaqlar.

Azadlıq meydanının qarşısı həm də bolidlərin sürətlə hərəkət edəcəyi hissədir. Burada hərəkət zamanı çox gözəl mənzərə yaranacaq. Çünki bir yanda "Formula-1" Paddok Klubunun arxasında görünən Hökumət evi, digər tərəfdə isə start nöqtəsinə tərəf uzanan dənizkənarı yol və Dənizkənarı Milli Park diqqəti çəkir. Dənizkənarı Milli Park Bakının əvəzsiz incisi və maddi mədəniyyətimizin əsrarəngiz nümunəsi olmaqla yanaşı, şəhərimizin tarixi və müasir simasını təşkil edən xüsusi təbii kompleksdir. Həm də bulvar kimi tanınan bu ərazi son günlər "Formula-1" yarışlarını izləmək üçün paytaxtımıza gələn qonaqların da sevimli gəzinti və istirahət yerinə çevrilib.

Yarışın əsas izləyici tribunalarından olan Abşeron tribunası da Azadlıq meydanının qarşısında, bulvar ərazisində yerləşir. Bu tribunadan yarışın ən həlledici məqamlarını, start və finişi izləmək mümkündür. Bulvarı və Hökumət evini ötdükdən və 90 dərəcəli sol döngədən sonra pilotlar 300 metrlik məsafədə rus şairi A.S.Puşkinin adını daşıyan küçədən keçəcəklər. İkinci döngədən sonra bolidləri trekin Xaqani küçəsi boyu 1 km uzanan və uzunluğuna görə ikinci böyük sürətlənmə xətti sayılan hissəsi gözləyir. Sonra pilotlar yenidən kəskin döngə ilə qarşılaşacaqlar. Bu döngə pilotlara ötmə üçün əla şərait yaradacaq. Şəhər treklərində çox nadir hallarda iki uzun sürətlənmə xətti görmək olar.

Üçüncü döngədən sonra pilotlar sol tərəfə - Bülbül prospektinə doğru yol alırlar. 240 metrlik məsafəni düz keçdikdən sonra 90 dərəcəli sağ döngə ilə qarşılaşırlar. Bu düz yolun sol tərəfində gözəl mənzərəli Sahil bağı yerləşir. Daha sonra pilotlar Zərifə Əliyeva küçəsinə dönəcəklər, kiçik bucaqlı döngədən sonra 350 metr uzunluğunda məsafə qət edəcəklər. Növbəti 5-ci və 6-cı döngələr pilotları Neftçilər prospektinin əks istiqamətindəki yola yönəldir. Bura trekin iki fərqli hissəsinin yan-yana olduğu bölmədir. Təxminən 300 metr məsafədə "Formula-1" bolidləri eyni küçədə əks istiqamətlərdə hərəkət edəcəklər, onları yalnız baryerlər ayıracaq. Bununla trekin müasir Bakının mərkəz hissəsini göstərən görüntüləri sona çatacaq. Bakının bu əraziləri sanki Cənubi Avropanı - Barselona və Nitsanı xatırladır. Bu ərazidə çox sayda mağaza, restoran və kafelər yer alır. Həmçinin müasir memarlıq üslubunda tikilmiş bir neçə ticarət mərkəzi və gözoxşayan mənzərəyə sahib Xəzərin sahili trekə xüsusi gözəllik verir. Bəzi tribunalar da bu zonada yerləşir.

Yeddinci döngədən sonra pilotlar Əziz Əliyev küçəsi ilə İçəri şəhərin qala divarlarına tərəf yönələcəklər. Bolidlər 500 metrə yaxın məsafəni ensiz küçələrdə qət edəcəklər. Bu yerlərdə trek qismən səki hesabına genişləndirilib. Trekin ən çox çətinliyə malik hissəsi də buradan və qarşıdakı 8-ci döngədən sonra başlayır. Şəhər trekinin bu hissəsi artıq onun vizit kartına çevrilib. 8-ci döngədən sonra yol maksimal şəkildə daralacaq və bu hissədə pilotları kəskin yoxuş gözləyəcək. Pilotları sol tərəfdə İçəri şəhərin qala divarları və giriş qapısı, sağ tərəfdə isə yaşayış binaları əhatə edəcək.

Sonda qeyd edək ki, "Formula-1" yarışlarının 2022-ci il mövsümü 23 mərhələdən ibarət olacaq. Azərbaycan yarışların cari mövsümdə 8-ci mərhələsinə evsahibliyi edəcək. Mövsümün ilk yarışı martın 20-də Bəhreyndə keçirilib, son yarışı isə noyabrın 20-də Əbu-Dabidə təşkil olunacaq.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# "Formula-1" gündəliyi

## "Bakı "F-1" təqvimində uzun müddət qalacaq"



"Formula-1"in "Haas" komandasının rəhbəri Günter Ştayner ümid edir ki, komandası yaxşı nəticə uğrunda mübarizə aparacaq, bununla da Barselona və Monako mərhələlərindəki uğursuzluqlarının əvəzini çıxacaq.

Komanda rəhbəri deyir ki, Azərbaycan və Kanada mərhələləri ard-arda, iyunda keçirilir. Çətinlik isə ondadır ki, təyyarə ilə bir qitədən digərinə uçmaq lazımdır, bu isə uzun səyahətdir və komanda onu həyata keçirmək üçün böyük səylər sərf etməlidir. Uğurlu nəticə üçün kollektiv müntəzəm və effektli işləməlidir. Lakin cəmi bir neçə gün ərzində bütün avadanlığı bir trasa aparmaq və onu hazırlamaq, daha sonra söküb növbəti yürüşə yollanmaq lazımdır: "Bu, asan deyil. Hələ üstəlik, hansısa bolid zədə alıbsa, o halda vəziyyət daha da mürəkkəbləşir". O ümid edir ki, Bakıda belə bir vəziyyətlə qarşılaşmayacaqlar.

Bakı haqqında düşüncələrini dilə gətirən Günter Ştayner deyir: "Bakı haqqında ilk təəssüratım yadımdadır. Şəhərin gözəlliyi və orada əla trasın olması məni valeh etmişdi. Əvvəllər Bakı haqqında məlumatım yox idi, çünki oraya getməyi planlaşdırmamışdım. Lakin indi fikirləşirəm ki, bu tras "Formula-1" təqvimində uzun müddət qalacaq. Həqiqətən tras iki hissəyə bölünür: çox sürətli və olduqca dolanbac".

Onun fikrincə, İspaniyada avtomobillərin sazlanmasına optimal yanaşma tapmaqla, əhəmiyyətli irəliləyişə nail olunub və indi bu sazlama müxtəlif növ trasların öhdəsindən heç də pis gəlmir. Bakıda bunu düzgün həyata keçirmək lazımdır.

## Britaniya komandası qələbəyə inanır



"McLaren" komandasının yürüşçüsü Lando Norris "Formula-1" Azərbaycan Qran-prisini nikbinliklə gözləyir. İspaniya və Monako mərhələlərində həm rəqibləri həm də sağlamlığı ilə mübarizə aparan Lando artıq tam sağaldığını bildirib.

Britaniya komandası Bakı şəhər trasında həftəsonunun səmərəli olacağına ümid edir. Lando Norris deyib: "Bakıya gedəcəyimə görə sevinirəm! Daha bir şəhər trasında çıxış etmək çox xoşdur. Keçənilki yürüş göstərdi ki, hər şey ola bilər. Unikal trasda yeni nəslə aid maşınların özlərini necə göstərəcəyinə baxmaq çox maraqlıdır. Mən Bakıda iki dəfə yarışmışam və hər iki halda xal qazanmışam".

Lando Norris ümidvardır ki, bu trendi davam etdirə biləcək və bu il komandasına xal gətirəcək. Əvvəlki həftəsonunda yürüş olmaması onun istirahət etməyinə imkan verib. İki gərgin həftədən sonra qüvvəsini bərpa edib və növbəti mərhələlərdə nəyə nail ola biləcəyi özünə də maraqlıdır.

## Maqnussen səbirsizliklə yarışı gözləyir



Bakıdakı sürətli trasda güc qurğularının möhkəmliyi ön plana çıxır. "Formula -1"in "Haas" komandasının pilotu Kevin Maqnussenin fikrincə, o, həftəsonu "Ferrari" mühərriki sayəsində rəqabətqabiliyyətli səviyyədə çıxış edəcək.

O bu həftəsonunu səbirsizliklə gözləyir: "Bu traslar bir-birindən olduqca çox fərqlənsələr də, hansısa ortaq xüsusiyyətləri də mövcuddur. Bakı trası unikal uzun, düz və asta döngələrə malik maraqlı trasdır və adətən, yürüşlər zəngin hadisələrlə yadda qalır. Burada oyundan çıxma, sarı bayraqlar və təhlükəsizlik avtomobilinin görünməsi riski yüksəkdir".

Onun sözlərinə görə, tarixən bu trasda çoxlu qırmızı bayraqlar olur və bu da digər traslarla müqayisədə daha böyük, həm də əlavə imkanlar açır. Bu trasda mühüm olan gücdür, o da komandada var.

## "Bakıda şinlərin qızmaması çox vacibdir"



Monako mərhələsində olduğu kimi, "Formula-1" Azərbaycan Qran-prisində də komandalar ən yumşaq tərkibli üç növ şindən - C3, C4 və C5 şinlərindən istifadə edə biləcəklər.

"Pirelli" bölməsinin rəhbəri Mario İzola bu seçimin nə ilə bağlı olması barədə söhbət açıb: "Ciddə mərhələsi meydana çıxana qədər ən sürətli şəhər trası Bakıda idi. Lakin burada şinlərə düşən gərginlik çox yüksək deyil, çünki döngələrin heç birində şinlərə hədsiz böyük enerji təsir etmir. Bu, asfaltın abrazivliyinin və gərginliyin yüksək olmaması ilə bağlıdır. Məhz bu amillərin birləşməsi Monakodakı tərkibləri burada da tətbiq etməyə imkan verir".

Deyilənlərlə yanaşı, yüksək sürətin şinlərə göstərdiyi təsiri də nəzərə almaq lazımdır. Komandaların əsas vəzifəsi yükün qabaq və arxa şinlər arasında taraz bölünməsi olacaq. Bir tərəfdən, qabaq şinlər kifayət qədər qızmalıdır ki, trasın düzxətli uzun hissələrində temperatur düşdüyünə görə trasla ilişmə itirilməsin. Digər tərəfdən, sürət yığma hissələrində arxa şinlərin çox qızmaması vacibdir.

Bakıda asfaltın temperaturu daim dəyişir, buna görə həmin trasa xas olan spesifik texniki mürəkkəbliklər hamı üçün eynidir.

## Ralf Boşunqdan azarkeşlərə müjdə



"Formula-2" yarışlarında çıxış edən "Campos" komandasının İsveçrəli yürüşçüsü Ralf Boşunq İmoladakı yürüşdən sonra boyun nahiyəsində güclü ağrılar hiss etdiyinə görə Barselona və Monako mərhələlərini buraxmağa məcbur olub. Monako mərhələsi ərəfəsində Boşunqun özünü yaxşı hiss etməsi və starta çıxmağa hazır olması barədə məlumat vardı, lakin şəhər trasında məşqlərə başlayanda sağlamlığındakı problemlər yenidən özünü göstərib və həkimlər onun sağlamlığının bərpa olunması üçün özünü artıq gərginliyə məruz qoymamasını tövsiyə ediblər.

Boşunq buna məhəl qoymayaraq Bakıda yenidən sükan arxasına keçmək niyyətindədir. Sosial şəbəkələr vasitəsilə azarkeşlərinə müraciət edən Ralf təzə xəbəri belə bölüşüb: "Bakıda yürüşdə çıxış etməyə hazırlaşıram. Əvvəlki bir neçə gün ərzində həkimlər mənimlə məşğul oldular. Zədə çox ciddi idi və düzgün müalicə tələb edirdi. Bəzi məqamlarda hələ də ağrı hiss edirəm, lakin yürüşlərdə iştirak etməyimə icazə veriblər".

Ralf əvvəlki iki mərhələni buraxmalı olmasına baxmayaraq, şəxsi hesabda 11-ci yerdə qalır. Ötən bazar günü İmolada tutduğu 3-cü yer isə onun cari mövsümdə göstərdiyi ən yaxşı nəticə olub.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Marşallar - "F-1" könüllüləri yarışa hazırdırlar

**Artıq "Formula-1" Azərbaycan Qran-prisi həyəcanı başlayıb. Sürət həvəskarlarının səbirsizliklə gözlədikləri cari mövsümün 8-ci mərhələsinə də hazırlıq işlərinin ən yüksək səviyyədə görüldüyü diqqət mərkəzindədir. Planetin bir nömrəli avtomobil yarışının təşkilində və keçirilməsində bir sıra adamlar xüsusi rol oynayırlar. Onların arasında marşallar (könüllülər) da var. Onları "Formula-1" aləmində "Yarış rəsmiləri" də adlandırırlar.**









Ümumiyyətlə, dünyada marşallıq sevimli məşğuliyyət kimi qəbul olunur. İnsanlar müxtəlif yarışlarda marşallıq edərək həm maraqlı vaxt keçirir, həm də yarışı yaxından izləmək şansı qazanırlar. Beş il əvvəl Bakı Şəhər Halqası əməliyyat şirkəti tərəfindən təsis edilmiş "Baku Marshals Club" marşallıq fəaliyyətinin bütün istiqamətlərinə dair tədbirlər təşkil edir, müsahibələr və təlimlər keçirir, eyni zamanda beynəlxalq marşal klubları ilə sıx əməkdaşlıq qurur. Marşallar yerinə yetirdikləri vəzifələrə görə aşağıdakı növlərə bölünürlər:

Sektor marşalları trek xəyali olaraq sektorlara bölünür və hər bir sektora nəzarət bir sektor marşalına və onun bir, yaxud iki müavininə tapşırılır. Onlar trek üzrə təyin olunduqları sahədə əsas səlahiyyətli nümayəndə hesab olunur və burada baş verən bütün hadisələrə görə məsuliyyət daşıyırlar.

Trek marşalları halqa boyunca nəzarət postlarında yer alan əsas marşallardır. Onların bir çox vəzifələri var. Trek marşalları rəsmilər arasında ən çox məsuliyyət daşıyan şəxslərdir. Onların vəzifələrinə trekə daxil olub onu qalıqlardan təmizləmək, təhlükədə olan avtomobilləri itələmək və qəzadan sonra ərazini təmizləmək daxildir. Bu işi görə bilmək üçün zirəklik, komandada işləmək qabiliyyəti, dözümlülük və təcrübə tələb olunur.

Bayraq marşalları trek boyunca marşal məntəqələrində yarış iştirakçılarını bayraq vasitəsilə məlumatlandıran məsul şəxslərdir. Onların başlıca vəzifələri sürücülərlə bayraqlar vasitəsilə əlaqə qurub onları qarşıda olan təhlükə barədə məlumatlandırmaq, qəza anında mövqeyində qalaraq yolda baş vermiş təhlükə barədə xəbərdar etməkdir.

Rəqəmsal bayraq marşalları halqa boyunca müvafiq mövqelərdə yerləşdirilib digər bayraq marşallarının üzərinə düşən işi görürlər. Yeganə fərqləri bayraq əvəzinə displeydən istifadə etmələridir.

Start və finiş marşalları yarışı başlamaq və bitirmək üçün damalı bayraqlardan, elektron vaxt tablolarından və digər vasitələrdən istifadə edirlər. Onlar start və finiş xəttində müxtəlif bayraqları (qara bayraq, mexaniki bayraq və s.) göstərməyə görə cavabdehlik daşıyırlar.

Yanğınsöndürmə və xilasetmə marşalları yanğınsöndürmə üzrə geniş təcrübə əldə ediblər. Onlar tədbir zamanı bütün yanğın və xilasetmə işlərinə görə cavabdehlik daşıyırlar.

Tibbi marşallar xidmətinə həkim heyəti (həkimlər, orta təhsilli tibb işçiləri, tibb bacıları və s.), avadanlıq və nəqliyyat vasitələri, trekdə təxirəsalınmaz kömək, yaralıların daşınması, tibbi mərkəz, kommunikasiya sistemi, əvvəldən təyin olunmuş xüsusi xəstəxanalar daxildir.

Texniki təftiş marşalları gündəlik olaraq hər bir avtomobili, o cümlədən qəzaya uğramış avtomobilləri təftiş edərək onların təhlükəsizlik və uyğunluq tələblərinə cavab verdiyini müəyyən edirlər.

Pit və sıra düzülüşü marşalları hər bir tədbirdən əvvəl start düzülüşünü qururlar. Onların vəzifələrindən biri tədbir zamanı pit xəttindəki nəqliyyat vasitələrini və insanları yönləndirməkdir.

Bərpa üzrə marşallar heyətinə evakuator avtomobillərinin heyəti və onların köməkçiləri daxildir. Onların vəzifəsi tədbir zamanı və tədbirdən sonra sıradan çıxmış və hərəkətsiz qalmış avtomobilləri trekdən uzaqlaşdırmaqdır. Kommunikasiya üzrə marşallar rabitəçi və ya müşahidəçilər kimi tanınırlar. Onlar hər bir marşal postuna təyin edilir, baş verənləri müşahidə edir, yarışa nəzarət otağına xüsusi audio rabitə kanalları vasitəsilə məlumat ötürürlər.

Hüdudlar üzrə marşalların işi isə halqa boyu çətin vəziyyətdə qalmış sürücülərə kömək etmək və onları yubanmadan pitlərə aparmaqdır.

Logistika və marşalların təchizatı könüllülərinin vəzifəsi digər marşalları tədbirdən əvvəl və tədbir zamanı yemək, su, avadanlıq, dəftərxana ləvazimatı, radio qurğuları və geyimlə təmin etməkdir.

***"Azərbaycan"***




# Kitabın "doğum günü"

**Qədim insanların qayaların, mağara daşlarının üzərinə çəkdikləri heyvan, insan şəkilləri, həyat macəraları, ov və rəqs səhnələri həm də ilk yazı hesab olunur. Çünki çəkilən hər şəkildə bir kitaba dastan olacaq mənalar vardı. Arxeoloqlar məhz bu şəkillər vasitəsilə həmin ərazilərdə yaşayan tayfaların, qəbilələrin həyat tərzini müəyyənləşdiriblər.**

Yazının isə ən qədim nümunələri Mesopotamiyada yaranıb. Şumer sivilizasiyasında ilk dəfə eramızdan əvvəl təxminən III minillikdə "mixi" yazı adlanan piktoqrafik yazı ilə gil lövhələr üzərində işarələr qoyulurdu. Belə yazılardan adətən təsərrüfat hesablamaları aparılan zaman istifadə edilirdi.



Formal mətnlərdən əlavə ən qədim kitab nümunəsi "Gilqameş" dastanı hesab olunur. Mifik poemada Gilqameş adlı Şumer padşahından bəhs edilib. On iki gil lövhədən ibarət mətn boyunca padşahın səyahətə çıxması, onun canavarları öldürdüyü və ölümsüzlüyün açarını axtardığı təsvir olunub. Tarixi qəhrəmana sonda Tanrı kimi ilahi status verilib. Dastan kral Gilqameşin ölümsüzlüyə çatmaq üçün yeganə ölümsüz insanı axtarması ilə başlayır. O, bu işin sirrini öyrənmək üçün bir çox dəhşətli ağrı, təhlükə və çətinliklərlə qarşılaşır. Çox əziyyətlər çəkdikdən sonra Gilqameş, nəhayət, solğun bənizi ilə yeganə ölümsüz insana çatmağı bacarır.

Dastanın həkk edildiyi lövhələr 1849-cu ildə Austin Henry Layard adlı avropalı arxeoloq tərəfindən Assuriyanın paytaxtı Ninevadan (indiki İraq) tapılıb. Akkad dilində aşkarlanan qalıqlar uzun illər ərzində yerin altında qaldığına görə bəzi hissələri qırılıb, bəzi hissələri isə oxunmaz hala düşüb. Dastan tapılan zaman geniş müzakirələrə səbəb olub. Ancaq lövhələrdəki yazılar deşifrə edildikdən sonra Corc Smit adlı alim 12-ci lövhədə böyük daşqının təfərrüatlarını əks etdirən bir hissə tapıb. Bu daşqın haqqında məlumatlar Nuhun hekayəsi ilə oxşarlıqlara işarə idi. Bununla da poemanın təxminlərdən də xeyli əvvəllərə aid olduğu məlum olub.

Əsərin ümumilikdə 2 min 900 misradan ibarət olduğu deyilsə də, onun ən mühüm hissələri yoxdur. Şeir formatında olan dastanın cəmi 60 faizi məlumdur, bəzi sətirlərinin isə əvvəli və sonu yoxdur. Bəşəriyyətin ilk yazılı nümunələrindən olan "Gilqameş" günümüzə qədər gəlib çatmış dastanlar içərisində ən təsirlisidir. Kəşf edildiyi gündən Avropa alimlərinin böyük marağına səbəb olan əsər alman, ingilis və fransız dillərinə tərcümə edilib, bir çox kitab, tamaşa və filmə ilham qaynağı olub.

# Bəşəriyyətə töhfə

**Kitab çapının ixtirasının bəşəriyyət üçün əhəmiyyəti haqqında çoxcildli kitab yazmaq olar. Çünki insanlıq tarixində kitab çapının dəyəri çörəyin kəşfi qədər əsas və dönüş nöqtəsidir. İstənilən sahə üçün ən böyük töhfə olan bu yenilik Şərqdə və Qərbdə bir-birindən ayrılıqda inkişaf edib. Amma tarixi faktlarda ən erkən mətbəənin nə vaxt və kim tərəfindən yaradıldığı dəqiqliklə qeyd edilmir.**

Məlum olan ən qədim çap mətni eramızın birinci minilliyində Çində hazırlanıb. Tang sülaləsi dövründə təxminən 868-ci ildə Dunhuang şəhərində buddistlərin müqəddəs kitabı - "Almaz Sutra" çap edilmişdi. Kitab "blok çapı" kimi tanınan bir üsulla ərsəyə gətirilmişdi. Bu çap prosesi əl ilə oyma taxta blokların üzərində edilmişdi. Dunhuangda araşdırmalar zamanı bəlli olub ki, IX əsrdə mövcud olan təqvim, riyazi cədvəllər, uşaq tədris materialları, lüğətlər və almanaxlar da daxil olmaqla digər önəmli mətnlər bu üsulla çap olunub.

Hazırda istifadə olunan çap üsulunun tarixi isə tamamilə fərqlidir. İlk çap maşınının yaranması Qərbdən başlayır. Qoldsmit və ixtiraçı İohann Qutenberq 1440-cı ildə Fransanın Strasburq şəhərində çap etmək üçün təcrübələr aparırdı. Belə cəhdlərin nəticəsində Qutenberq inqilabi yolu tapır. O, metaldan olan qabarıq şəkildəki hərfləri tərs formada qoyub mətni çapa hazırlayıb. Bununla da hərflərlə kağız üzərində hər hansı mətni yığıb istənilən sayda çap etmək mümkün olub.



Ancaq ixtiranın geniş tətbiqi üçün Qutenberqə maddi dəstək lazım idi. Çap üçün lazım olan ləvazimatlar baha başa gəlirdi. Sonralar Qutenberq bu işi kommersiyalaşdırmaq üçün böyük addımlar atdı. Qısa müddətə məşhurlaşan ixtira əsrlər sonra dünyaya yayılaraq texnologiyanın inkişafını xeyli təkmilləşdirdi. Bu ixtira həm də dünyada insanların həyatına, əqlinə, savadına böyük təsir etdi.

# "Qırmızı kitab"ın yaranması

**"Qırmızı kitab" bir ölkə tərəfindən onun sərhədləri daxilində tapılan nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərini qeyd etmək və sənədləşdirmək üçün nəzərdə tutulan sənəddir. Bu kitab nəsli kəsilməkdə olan heyvan və bitki növləri üzərində tədqiqatlara yardımçı olur.**




İlk "Qırmızı kitab" 1961-1964-cü illərdə rus bioloqları tərəfindən hazırlanıb. Burada Sovet İttifaqında nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin ilk siyahısı tərtib edilmişdi. 1960-cı illərin sonlarında daha əsaslı tədqiqatlar aparıldıqdan sonra 1974-cü ildə ekoloji qiymətləndirmə əsasında nəsli kəsilməkdə olan növlərin mühafizəsini təmin edən qanunvericilik aktının tətbiqi barədə qərar qəbul olunub. Proses 1978-ci ildə ilk rəsmi "Qırmızı kitab"ın nəşri ilə nəticələnib. Həmin vaxtda siyahıda qeyd olunan heyvanlar ciddi şəkildə qorunub və onlarla rəftar sovet qanunları ilə tənzimlənib.

Sovet İttifaqı dağılandan sonra nəsli kəsilməkdə olan növlərlə bağlı qaydalar keçmiş sovet respublikalarının hər biri tərəfindən ayrılıqda müəyyənləşdirilib. Bununla belə bir çox ölkənin öz siyahılarını hazırlamaq və ümumi qaydaları tətbiq etməkdə kifayət qədər təcrübə və resursları olmayıb. Buna görə də nəsli kəsilməkdə olan növlərin mühafizəsi üçün ümumi ekoloji müqavilə bağlanılıb.

"Qırmızı kitab"da müxtəlif rəng kodlaşdırmaları mövcuddur. Belə ki, qara - nəsli kəsilmiş, qırmızı, narıncı - nəsli kəsilməkdə olan, yaşıl - təhlükəsiz və s. kimi növləri xarakterizə edir. Azərbaycanda isə "Qırmızı kitab" ilk dəfə 1989-cu ildə nəşr olunub. Qanunvericiliyə əsasən, kitabın hər on ildənbir nəşr olunması nəzərdə tutulsa da, ikinci nəşri 2013-cü ildə çapdan çıxıb. Ölkə ərazisində "Qırmızı kitab"da yer alan bitki və heyvan növlərinin müdafiəsi üçün qoruqlar, milli parklar salınıb.

## Maraqlı 7 fakt

- Harvard Universitetinin kitabxanasında insan dərisi ilə cildlənmiş dörd hüquq kitabı var.
- Bir ağacdan 50-yə qədər kitab hazırlamaq mümkündür.
- Ədəbiyyatda çap edilmiş ən uzun cümlə Viktor Hüqoya aiddir. "Səfillər" romanında 823 sözdən ibarət bir cümlə qələmə alınıb.
- "İncil", "Qurani-Kərim" və "Harri Potter" dünyada ən çox oxunan kitablardır.
- Dünyanın ən bahalı kitabı Leonardo da Vinçinin "Codex Leicester" (Lester əlyazmaları) kitabıdır. Da Vinçinin elmə aid yazılarının toplusu olan bu kitabı Bill Qeyts 30,8 milyon dollara alıb.
- Dünyanın ən çox kitab oxuyan xalqı islandlardır.
- İraqda küçələrdə kitab satıcıları "Oxucu oğurlamaz, oğru da oxumaz" şüarı ilə gecələr də kitabları çöldəki stendlərdə qoyurlar.

# İlk kitab sərgisi

**500 illik tarixə malik "Frankfurt" kitab sərgisi hər il ümumilikdə yarım milyona yaxın ziyarətçini cəlb edən dünyanın ən böyük kitab yarmarkası kimi tanınır. Bu sərgi həmçinin dünyada ilk kitab sərgisi olaraq da məşhurlaşıb. Deyilənə görə, ixtiraçı Qutenberqin mətbəəsindən ilk kitab çapdan çıxdıqdan bir neçə il sonra Frankfurtda bu təşəbbüsə başlanılıb.**



Həmin vaxtlar sərgidə istənilən yazıçı əsərini gətirib nümayiş etdirə və sata bilərdi. Lakin XVI-XVII əsrlərdə reformasiya hərəkatı sərgini əngəlləməyə başladı. Qadağan edilmiş, senzuraya məruz qalan kitabların ictimaiyyətə açıq şəkildə sərgilənməsi qəzəbə səbəb olmuşdu. Bununla da sonrakı dövrlər sərginin inkişafında zəifləmələr müşahidə edildi.

Yalnız İkinci Dünya müharibəsindən sonra - 1949-cu ilin sentyabrında "Frankfurt" 205 alman eksponentinin yarmarkasını təşkili ilə tarixini yenilədi. O vaxtdan bəri Frankfurt şəhəri belə nəhəng beynəlxalq tədbirə evsahibliyi edir. Buraya səyahət etməklə dünyanın məşhur naşir, yazıçı və müəlliflərini, hətta illüstrator və film istehsalçılarını da görmək mümkündür.

Sərginin digər bir özəlliyi isə hər il müxtəlif ölkələrin ədəbiyyatına diqqəti cəmləməkdir. Məsələn, 2018-ci ildə gürcü ədəbiyyatı diqqət mərkəzində saxlanılarkən, 2019-cu ildə Norveç ədəbiyyatına əsas yer verilib. Yarmarkada çap nəşrləri ilə yanaşı, audio kitablar və elektron kitablar da satışa çıxarılır.

# Kiçik xəzinələr muzeyi

**Kitabların normal ölçülərindən əlavə kiçik formada olmaları təəccüb doğuran faktlardandır. Ən erkən miniatür kitabların Orta əsrlərə aid olması isə daha heyrətləndiricidir. İlk miniatür nümunəni İohan Qutenberqin köməkçisi və davamçısı Peter Şoffer 1468-ci ildə çap edib. Bu, cib ölçüsündə olan "Diurnale Moguntinum" kitabı idi.**



Əsrlər boyu insanlar miniatür kitablara heyran olublar. Bəziləri isə onları toplayaraq kolleksiya yaradıb. Belə miniatür kitablardan ibarət hobbisini muzeyə çevirərək ictimaiyyətlə bölüşən şəxslərdən biri də Zərifə Salahovadır. O, İçərişəhərdə Şirvanşahlar sarayının yaxınlığında yerləşən dünyanın ilk "Miniatür Kitab Muzeyi"nin təsisçisidir.

Zərifə Salahova kolleksiyaçılığa olan həvəsinin ardınca getməyə başlayan vaxtdan 4 mindən çox miniatür kitab toplamağa nail olub. 2002-ci ildə isə kolleksiyası əsasında belə bir muzeyin qapıları ictimaiyyətə açıq elan edilib. Hazırda muzeydə 6 minə yaxın miniatür kitab eksponatı sərgilənir. Kitablar kateqoriyalarına görə fərqlənir. Romanlar, şeirlər, tarixi, dini məzmunlu əsərlər ziyarətçilər tərəfindən maraqla qarşılanır. Həmin kitabların oxunması üçün isə xüsusi lupalardan istifadə edilir. Hazırkı standartlara əsasən, miniatür kitablar 75x75 millimetr ölçüdən böyük olmamalıdır.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




# Fobos-Mars toqquşması

**NASA mütəxəssislərinin iddiasına görə, Marsın Fobos peyki dövretmə trayektoriyasını dəyişdirməsə, öz planeti ilə toqquşacaq. Lakin bu, elə də yaxın vaxtlarda baş verməyəcək. Başqa sözlə, bir neçə 10 milyon ildən sonra olacaq.**



Bu peyk Mars ətrafında dövr edən zaman onun qravitasiyası planetin daxili hissəsinə təsir göstərir. Nəticədə onun qabığında və mantiyasında olan dağ süxurları dəyişikliyə məruz qalır. Eyni zamanda Marsın qravitasiyası Fobosun trayektoriyasını dəyişir. Bu toqquşmanın yaxın gələcəkdə baş verməyəcəyinə baxmayaraq, alimlər əmindirlər ki, başqa variant yoxdur, gec və ya tez bu, baş verəcək. Toqquşmadan sonra isə Fobos parçalara ayrılacaq və onlar Marsın səthi üzrə paylanacaq. Başqa bir qrup alim düşünür ki, Fobos məhz Mars istiqaməti üzrə yolda parçalanacaq və nəticədə planetin ətrafında halqa yaradacaq.

Yeri gəlmişkən, Fobos artıq uzun müddətdir ki, alimlərin maraqlarını cəlb edir. Çünki o, qeyri-adi orbitə malikdir. Onun tərkibi və mənşəyi haqda isə hələ dəqiq məlumat yoxdur.

Öyrənilən bir də budur ki, kartofu xatırladan qəribə formalı Fobos Mars ətrafında planetin öz oxu ətrafında fırlanmasından daha tez dövr edir.

Buna görə də Marsda Fobosun doğuşunu və qürubunu sutkada iki dəfə müşahidə etmək mümkündür.

# "Vatsap"dan daha bir təklif




**"Vatsap" istifadəçiləri tezliklə öz hesablarından eyni anda iki fərqli smartfonda istifadə edə biləcəklər.**

Tərtibatçılar uzun müddətdir ki, messencerdəki hesabın bir neçə cihazda dəstəklənməsi üzərində çalışırdılar. "Vatsap"ın test versiyalarında bir istifadəçi hesabına ikinci smartfonun dəstəyinin əlavə edilməsi funksiyası artıq hazırdır. O, istifadəçinin öz hesabı vasitəsilə ikinci smartfondakı tətbiqə daxil olduğu zaman ortaya çıxacaq. Proses zamanı əsas smartfondakı messencerə daxil olmaq və "Link keçidləri" bölməsini seçərək xüsusi QR kodun skan edilməsi təklif ediləcək.

Bu funksiya yaxın müddətdə messencerin beta versiyasında aktivləşdiriləcək və daha sonra stabil versiyada istifadəyə veriləcək.

Ötən ilin iyulunda "Vatsap" ən çox tələb edilən funksiyalardan birini təqdim etmişdi. Söhbət 4 fərqli cihaz vasitəsilə 1 istifadəçi hesabının idarə olunmasından gedir. Bu funksiya dörd cihazda istifadə imkanını versə də, bir nüans var. Belə ki, dəstəklənən cihazlar arasında ikinci smartfon yoxdur. Məsələ burasındadır ki, istifadəçi öz smartfonundan əlavə olaraq, "Vatsap" hesabını messencerin veb versiyasında və kompüterlə "Feybuk Portal" adlı smart ekran üçün nəzərdə tutulmuş tətbiqində istifadə edə bilər. Lakin şirkət bildirir ki, yaxın zamanda bu problem də aradan qaldırılacaq.

# "İnstaqram"da yeni funksiya

**Testi keçirilən yeni funksiya vasitəsilə "İnstaqram" istifadəçisi öz hesabının yuxarı hissəsində bu və ya digər paylaşımı "bərkidə" biləcək. "Pin to your profile" adlı yeni funksiya artıq bəzi istifadəçilərə təqdim edilib.**



O, "Tviter" və "Tik-Tok"un analoqu kimi çalışacaq. Ayrı-ayrı paylaşımlar hesabın yuxarı hissəsində əks olunacaq və istifadəçi bu üsulla digərlərinin diqqətini vacib paylaşımlara çəkmək imkanı qazanacaq. Nəticədə həmin hesabın abunəçiləri vacib paylaşımı axtarmaq üçün əsas səhifəyə daxil olmayacaqlar.

"Meta" şirkəti bu funksiya üzərində çalışdığını rəsmi şəkildə təsdiqləyib. O, ilk dəfə bu ilin yanvarında istifadəyə verilmişdi. Bloqçular bu funksiyadan məşhur kontentlərin təşkilində istifadə edirlər. Buna misal kimi keçirilən sorğuları, baş tutmuş hər hansı bir tədbir barədə hesabatı və s. gətirmək olar.

Hazırda isə "İnstaqram" istifadəçiləri öz hesablarında yalnız "Stories" paylaşımlarını "bərkidə" bilirlər.

# Parkinsona çarə tapıldı

**Tarixdə ilk dəfə Böyük Britaniyada beyin implantının köməyilə pasiyent Parkinson xəstəliyindən azad olub. O, müalicə prosesindən keçmiş Toni Hovelsdir.**




Bristolda yerləşən Sautmid xəstəxanasında ona "Dərin beyin stimulyasiyası" (DBS) cihazı yerləşdirilib. Cihaz beynin zədələnmiş sahələrinə elektrik impulsu göndərir. Hovelsin sözlərinə görə, əməliyyatdan öncə o, küçədə normal şəkildə gəzməyə dəfələrlə cəhd göstərsə də, 200 metr yeriyə bilirdi. Əməliyyatdan sonra isə hər gün çox rahatlıqla 4 kilometrdən artıq yol qət edir.

Əməliyyatın məğzi kardiostimulyatora malik kiçik ölçüdəki batareyanın xəstənin sinə və ya mədə hissəsinə yerləşdirilməsindədir. Daha sonra batareyaya naqillər birləşdirilir və onlar xəstənin dərisinin altından beyindəki implanta kimi uzanır.

DBS cihazı indiyə kimi mövcud olanlar arasında ən kiçiyidir. Hazırda dünyada Parkinson xəstələyinin dərmanla tam müalicəsi mümkün deyil. Bu, sinir sisteminin degenerativ xəstəliyidir. Parkinson xəstəliyinin simptomları arasında qeyri-iradi bədən titrəyişi, hərəkət ləngliyi və əzələ süstlüyü var.

# Yeni smartfon

**Hindistanın "Lava" şirkəti "Z" seriyasından "Z1", "Z2", "Z4" və "Z6" smartfonlarını təqdim edib. Onlar orta büdcəli modellərdir. Lakin təqdimat çərçivəsində daha bir smartfon modeli də təqdim olunub. Bu, "Lava MyZ"dur. Əsas fərqi ondadır ki, o, dünyanın ilk ayarlana bilən texniki özəllliklərə sahib Android smartfonudur.**



"Lava MyZ" HD+ keyfiyyətli 6.5 düym IPS ekran, MediaTek Helio G35 prosessora malik və 5000 mAh enerji tutumlu batareya ilə təchiz olunub. İstifadəçi öz istəyinə uyğun olaraq, müxtəlif texniki parametrləri seçə bilər. Adətən alıcılar istehsalçı tərəfindən təqdim olunan versiyalardan birini seçə bilərlər. Həmin versiyalar isə öz aralarında RAM və daxili yaddaş həcmi üzrə fərqlənirlər. Bununla belə onların texniki özəlliklərinin müxtəlifliyinə heç cür təsir göstərmək mümkün deyil. Təqdim olunan "Lava MyZ"nin alışı zamanı isə hər kəs öz istəyinə uyğun olaraq RAM göstəricisini, daxili yaddaş həcmini, kameraların sayını və keyfiyyətlərini, o cümlədən smartfon gövdəsinin rəngini seçə biləcək.

Yeni model vasitəsilə bütün texniki göstəriciləri müxtəlif şəkildə kombinasiya etmək mümkündür. Sözügedən smartfon isə 66 müxtəlif kombinasiyada mövcuddur.

"Lava MyZ"nin qiyməti istifadəçi tərəfindən seçilmiş parametrlərdən asılı olaraq dəyişir.

# "Yutub" yerində saymır

**"Yutub" videoservisi qısa videolar üçün olan "Shorts" bölməsində reklam elanlarının testinə start verib. Qeyd etmək lazımdır ki, bu bölmə 2020-ci ildə istifadəyə verilmişdi və hələ də "Tik-Tok" və "İnstaqram" ilə uğurlu rəqabət aparır.**




"Yutub" təmsilçilərinin sözlərinə əsasən, videoservis "Shorts"dakı videoların monetizasiya üsullarını test edir. Belə ki, son zamanlar bu sosial şəbəkənin istifadəçi kütləsində artım müşahidə edilir və ümumilikdə istifadəçilər tərəfindən videoservisdə keçirilən zaman göstəricisi xeyli artıb. "Quql" məlumatlarına əsasən, "Yutub Shorts"un payına gündəlik 30 milyard baxış düşür. Bu göstərici ötən ilkindən dörd dəfə çoxdur.

Videoservisin reklamlarından əldə edilən gəlir bu ilin birinci rübündə 6,86 milyard dollara yüksəlib. Lakin əslində ekspertlərin gözləntisi daha yüksək idi.

Qeyd etmək lazımdır ki, bir müddət əvvəl "Yutub" qısa videoların yaradıcıları üçün 100 milyon dollar büdcəsi olan xüsusi fond yaradıb. Bu yolla da "Tik-Tok" kimi servislərin kontent yaradıcılarını və izləyicilərini öz tərəfinə çəkməyə çalışır.

# "Huawei Mate Xs2" təqdim edilib



**"Huawei" şirkəti qatlana bilən "Mate Xs2" smartfonunun təqdimatını keçirib. O, digər qatlana bilən smartfonlardan fərqlənir və bəzi unikal özəlliklərə sahibdir. Bundan əlavə, şirkət tətbiqlərin smartfon ekranının düzgün optimizasiya edilməsinə xüsusi diqqət ayırıb.**

"Mate Xs2" OLED ekran ilə təchiz olunub. Ekran xarici istiqamətə qatlanır və bu vəziyyətdə 6.5 düym ekrana sahib adi smartfona çevrilir.

"Mate Xs2"nin konstruksiyasında aviasiya sinfinə aid olan titan ərintisindən, ultra yüngül və bir o qədər də dözümlü olan poladdan və şüşə liflərindən istifadə edilib. Buna görə də çəkisi cəmi 255 qramdır. Bir ədəd ekrandan istifadə hesabına smartfonun əsas hissəsinin tam açıq vəziyyətdə qalınlığı cəmi 5.4 millimetrdir. Barmaq izi skanı texnologiyası yandırıb-söndürmə düyməsinə inteqrasiya edilib. O, "Snapdragon 888" prosessoru vasitəsilə çalışır. Lakin 5G dəstəyi mövcud deyil.

"Huawei" qatlana bilən yeni smartfonda istifadəçi interfeysinin avtomatik adaptasiya sistemini yaradıb. Ekranda əks olunan təsvirlər və mətnlər bu sistem vasitəsilə dəyişilən smartfon ekranına uyğun avtomatik adaptasiya olurlar. Qeyd etmək lazımdır ki, "Mate Xs2" özündə həmçinin kontaktsız ödənişlər üçün nəzərdə tutulmuş NFC çipini və stereo səsgücləndiriciləri birləşdirir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Dünyanın təhlükəli qida dərdi...

## Hər il bu səbəbdən həyatını itirən 420 min insanın 125 mini uşaqlardır

**Getdikcə daha da qloballaşan dünyada əsas problemlərdən biri olan qida təhlükəsizliyi bəşəriyyəti təhdid edir. Dünyada ərzaq-istehsalat-təchizat zəncirinin daha da mürəkkəbləşdiyi, qida ilə bağlı risklərin insanların sağlamlığı ilə yanaşı, dünya iqtisadiyyatına vurduğu mənfi təsirlər problemləri daha da qloballaşdırır.**



Hər il Ümumdünya Qida Təhlükəsizliyi Günü ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və bu qurumlara üzv ölkələr, digər aidiyyəti qurumlar ilə birgə müxtəlif hesabatlar təqdim edirlər. Artıq dördüncü dəfə qlobal səviyyədə qeyd olunan bu günün builki tədbirləri "Təhlükəsiz qida ilə daha sağlam həyat" şüarı ilə keçirilib.

Qeyd edilir ki, qida ilə yoluxan parazitar xəstəliklər həm kəskin, həm də xroniki sağlamlıq problemləri ilə nəticələnə bilər. Odur ki, bu məsələyə xüsusi diqqət yetirilməlidir. Təhlükəsiz qida istehsalı qida itkisini və tullantılarını azaldaraq planetə, eyni zamanda dünya iqtisadiyyatına fayda verə, səhiyyə sistemlərinin yükünü azalda bilər.

Ekspertlərin hesablamalarına əsasən, təhlükəli qida hər il təqribən 600 milyon yoluxma halına səbəb olur, insan sağlamlığını və iqtisadiyyatını təhdid edir, qeyri-mütənasib şəkildə həssas və təcrid olunmuş insanlara, xüsusən də qadınlara, uşaqlara, silahlı münaqişələrin fəsadlarından əziyyət çəkən əhaliyə, miqrantlara təsir göstərir. Hər il 420 min insanın mikroorqanizmlər və ya kimyəvi maddələrlə çirklənmiş qidaları qəbul etməsi səbəbindən öldüyü təxmin edilir. 5 yaşa qədər uşaqlar qida yoluxucu xəstəliklərinin yükünün 40 faizini təşkil edir və hər il 125 min uşaq qida yoluxucu xəstəliklərdən dünyasını dəyişir.

Hər il qeyd olunan Ümumdünya Qida Təhlükəsizliyi Günü bu problemə diqqəti cəlb etmək və qida ilə yoluxan xəstəliklərin qarşısının alınması, aşkar edilməsi və risklərinin azaldılması, ərzaq təhlükəsizliyinə, sağlamlığın qorunmasına, rifaha, kənd təsərrüfatının inkişafına, bazara çıxışın genişləndirilməsi, turizm artımı və ümumilikdə davamlı inkişafa töhfə verməyə yönəlmiş tədbirlərin həyata keçirilməsini təşviq etmək məqsədi daşıyır.

Kifayət qədər təhlükəsiz qidaya əlçatanlıq həyatı qorumaq və sağlam inkişaf üçün vacibdir. Ümumiyyətlə, bir qayda olaraq qida mənşəli xəstəliklər ya yoluxucu xəstəliklərdir, ya da ki, bədənə çirklənmiş su və ya qida ilə daxil olan bakteriya, virus və ya kimyəvi maddələrin yaratdığı zəhərlənmələr - intoksikasiyalardır.

Qida təhlükəsizliyi istehsal zəncirinin bütün mərhələlərində, istehsaldan məhsul yığımına, emalına, saxlanmasına, paylanmasına və hazırlanmasına, habelə istehlakına qədər bütün yollarda mühüm rol oynayır. Bu beynəlxalq gün süfrəmizdəki qidaların təhlükəsiz olmasını, qida təhlükəsizliyi məsələsinin ictimai gündəliyin ayrılmaz hissəsinə çevrilməsini və yoluxucu xəstəliklərin qlobal yükünün yüngülləşdirilməsini təmin etmək üçün hər cür səy göstərmək üçün fürsətdir. Tərkibində xəstəlik yaradan bakteriya, virus, parazit və ya zərərli kimyəvi maddələr olan təhlükəli qidalar ishaldan xərçəngə qədər 200-dən çox xəstəliyə səbəb olur.

Ən son hesablamalar göstərir ki, təhlükəli qidalanmanın nəticələri hər il aşağı və orta gəlirli ölkələrə əmək istehsalında itkilər şəklində 95 milyard dollar zərər verir.

Ərzaq və kənd təsərrüfatı sektorlarında lazımi gigiyena praktikası qida mənşəli xəstəliklərin baş verməsini və yayılmasını azaltmağa kömək edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Meymunçiçəyinin yayılma coğrafiyası böyüyür

## Azərbaycan da xəstəliyin diaqnozunu müəyyənləşdirəcək testlər sifariş verib

**Mayın 7-də ilk dəfə İngiltərədə aşkarlanan meymunçiçəyi virusu 1 aydır ki, yayılmaqda davam edir. Xəstəliyin yayılma tezliyi sürətli olmasa da, artıq bir çox ölkədə görünməkdədir.**



Ümumdünya Səhiyyə Təşkilatının son məlumatına görə, infeksiya 30-a yaxın ölkədə aşkarlanıb. Virusun təsdiqləndiyi və şübhəli halların üstünlük təşkil etdiyi isə Avropa ölkələridir və bu regionda indiyədək 911-dən çox yoluxma halı baş verib. Ən çox yoluxma halları qeydə alınan ölkələr arasında İngiltərə, İspaniya, Portuqaliya, Kanada, Almaniya, Fransa, Hollandiya və ABŞ yer alır.

### Xəstəliyin risk qrupuna kimlər daxildir?

Bədən temperaturunun yüksəlməsi, limfa düyünlərinin şişməsi, baş və əzələ ağrıları ilə müşahidə edilən bu xəstəlik xüsusi səpkilərlə seçilir. Səpkilər üzdən başlayaraq bədənin digər nahiyələrinə yayılır. Eyni zamanda səpkilər qaşındığı halda yaraya çevrilə və dəridə iz buraxa bilirlər. Xəstəliyin əsasən tənəffüs yolu, cinsi əlaqə ilə keçdiyi qeyd olunur.

Xəstəliyin yüksək yoluxduruculuq qabiliyyətinə malik olmadığı deyilsə də, bəzi ölkələr tərəfindən qabaqlayıcı tədbirlər görülüb. Mütəxəssislər xəstəliyin ölüm göstəricisinin aşağı olduğunu bildirirlər. Bununla yanaşı, virusun mutasiyaya uğramasına və geniş yayılmasına qarşı risklərin dəyərləndirilməsi tövsiyə olunur. Eyni zamanda xəstəliyə yoluxanların 14 gündən 21 günə qədər özünü təcrid etməsi məsləhət görülür.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov qəzetimizə açıqlamasında deyib ki, hər bir infeksion xəstəlikdə olduğu kimi, meymunçiçəyi virusuna yoluxanlarda da xəstəliyin müəyyən əlamətləri ortaya çıxır. Onun sözlərinə görə, yoluxan hər şəxsdə xəstəliyin əlamətləri eyni olmur, assimptomatik formalar yaranır. İnfeksiyanın ötürücülüyü barədə məlumat olmadığını deyən həkim qeyd edir ki, xəstəliyin inkubasiya dövrü qısadır.

Xəstəliyə yoluxanlarda ümumi əlamətlər - hərarət, baş və əzələ ağrıları və s. kimi simptomlar müşahidə edilir. Təxminən 1-5 gün ərzində səpkilər əmələ gəlir. Bunlar əvvəlcə ləkəli olur, sonra şişkinləşir, partladıqdan sonra isə möhtəviyyatı quruyur və qartmağa çevrilir. Səpkilərdən sonra izlərin qalması təbii ki, onların ölçüsündən, yayılma dərəcəsindən, ikincili infeksiyanın qoşulmasından asılıdır. Belə ki, bəzi xəstələrdə azsaylı səpki olsa da, digərlərində minlərlə səpki elementlərinə rast gəlinir. Digər tərəfdən, səpki nə qədər böyükdürsə, qaşıma vasitəsilə ikincili infeksiya daxil olubsa, sonradan müəyyən ölçüdə çapıq izləri qala bilər.

İnfeksionist qeyd edir ki, xəstəlik keçirənlərdə immunitet formalaşır. Ümumilikdə infeksiya nəticəsində ölüm göstəricisi az olsa da, ancaq son illərdə bu dəyişir. Xəstəliyə ən çox azyaşlılar və immun sistemində çatışmazlıq, ağır xroniki xəstəliyi olanlarda rast gəlinir.

Hazırkı ehtimallara görə, 1980-ci illərdə təbii çiçəyə qarşı aparılmış peyvəndləmə insanları müəyyən mənada qoruyur. Bu dövrdən sonra dünyaya gəlmiş insanlarda isə həssaslıq yüksəkdir, yəni bu şəxslərin xəstəliyi ağır keçirməsi mümkündür. Həkim bildirir ki, adətən təbii çiçəkdən sonra xəstələnmə hallarına nadir rast gəlinir, bu da yoluxmadan sonra yaranan davamlı immunitetlə bağlıdır.

### Şübhəli hallar olarsa...

İnfeksionistin sözlərinə görə, hazırda virusun yayılma arealı böyük deyil. Belə halda qabaqlayıcı tədbirlər kimi əhalinin maarifləndirilməsi və müəyyən epidemioloji tədbirlərin görülməsi lazımdır. İnfeksiyanı vaxtında aşkarlamaq, onun təmaslarını müəyyənləşdirib izolyasiya etmək vacibdir.

Respublikamızda meymunçiçəyi virusuna yoluxma hələ ki yoxdur, lakin buna baxmayaraq, aidiyyəti qurumlar bu məsələdə ilkin addımlar atıblar. İlk növbədə əhalinin maarifləndirlməsi üçün müxtəlif məlumatlar verilib, digər tərəfdən, xəstəliyin diaqnozunu qoymaq üçün xüsusi test sistemlərinin ölkəyə gətirilməsi üçün artıq ilk addımlar atılıb. Yəni şübhəli hallar müşahidə edilərsə, diaqnoz qoyulması mümkün olacaq. Əhaliyə hərarət, səpkilər olduğu halda dərhal həkimə müraciət etmək tövsiyə olunur. O qeyd edir ki, yalnız həkim müayinəsi sayəsində bu infeksiyanı digərlərindən ayırmaq olar. Xəstəliyin vaxtında aşkarlanması və təmasların müəyyənləşdirilməsi isə infeksiya ilə mübarizədə ən vacib vasitədir.

Deyilənlər, həmçinin COVID-19 pandemiyası ilə ikiillik mübarizə bir daha göstərir ki, ölkəmizdə hər şeydən öndə olan insanın sağlamlığıdır. Lakin xəstəlikdən qorunmaq üçün hər kəs özünə xüsusi diqqət yetirməlidir. Hər hansı xəstəliklə bağlı simptomları hiss etdiyiniz an ilk olaraq həkimə müraciət etməli və özünüzü təcrid etməlisiniz. Sağlamlığımızın qeydinə qalaraq, gigiyena qaydalarına əməl edərək pandemiya ilə mübarizədən üzüağ çıxsaq da, hər zaman belə hallara qarşı tədbirli olmalı, arxayınlaşmamalıyıq. Yaranan hər bir xəstəliyin daha çox yayılmasının qarşısını almaq insanların özündən çox asılıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



bakcell
**abunəçilərinin nəzərinə**

"Bakcell" MMC öz abunəçilərinin nəzərinə çatdırır ki, 21 iyun 2022-ci ildən etibarən "arxiv" kateqoriyasına aid bir sıra tariflərə aşağıda qeyd olunan dəyişikliklər ediləcək:

- SevimliCIN və GÜNBOYU 0 tariflərində şəbəkədaxili zənglərin tarifikasiya müddəti 60 saniyə, şəbəkədaxili zənglərin 1 dəqiqəsinin qiyməti isə 0.08 AZN təşkil edəcək;
- CINeration tarifində ölkədaxili zənglərin 1 dəqiqəsinin qiyməti 0.09 AZN, GəlirliCIN tarifində isə ölkədaxili zənglərin 1 dəqiqəsinin qiyməti 0.08 AZN təşkil edəcək;
- CIN 1 tariflərində:

Bakı və Abşeronda həftəlik abunə haqqı ödəndikdə ölkədaxili zənglərin 1 dəqiqəsi 0.08 AZN, ödənilmədikdə isə şəbəkədaxili zənglərin 1 dəqiqəsinin qiyməti 0.08 AZN təşkil edəcək;

Regionlarda həftəlik abunə haqqı ödəndikdə ölkədaxili zənglərin 1 dəqiqəsi 0.04 AZN, ödənilmədikdə isə şəbəkədaxili zənglərin 1 dəqiqəsi 0.04 AZN, şəbəkəxarici zənglərin 1 dəqiqəsinin qiyməti isə 0.08 AZN təşkil edəcək.


# "Azərişıq" ASC Almaniyanın Hannover şəhərində keçirilən "HANNOVER MESSE-2022" sərgisində təmsil olunub

**"HANNOVER MESSE-2022" beynəlxalq sərgisi dünya miqyasında qabaqcıl sənaye texnologiyalarının nümayişi üzrə ən əhəmiyyətli tədbirlərindən biridir.**












Bu sərginin əsas predmeti hazırda sənaye və biznesin sürətli inkişafı üçün açar meyarlar hesab olunan - rəqəmsallaşma və davamlılığa yönəldilmişdir. Sərgidə "Amazon Web Services" (AWS), "Baumüller Nürnberg", "Schneider Electric", "İnter Systems", "Smart Factory", "Siemens" və s. kimi qabaqcıl dünya şirkətləri iştirak edib.

"Azərişıq" ASC-nin təmsil etdiyi stenddə təqdim olunan istiqamətlər:

İşğaldan azad olunmuş ərazilərdə tətbiq olunan yeni texnologiyalar və innovasiyalar.

Şuşa şəhərində yeni Rəqəmsal İdarəetmə Mərkəzi və müasir ikipilləli 35/0,4kV-luq şəbəkənin tətbiqi, 110/35/0,4 kV-luq şəbəkələri tam əhatə edən müasir SK-11 SCADA dispetçer idarəetmə sisteminin tətbiqi və s.

"Azərişıq" ASC-nin fəaliyyəti, innovativ enerji həlləri və naliyyətləri.

Qurumun Mətbuat xidmətinin məlumatına görə, "Azərişıq" ASC-nin ölkə əhalisini fasiləsiz, keyfiyyətli elektrik enerjisi ilə təmin etmək və yüksəksəviyyəli xidmət göstərmək məqsədilə son illərdə həyata keçirdiyi yeni innovativ fəaliyyətin istiqamətləri, o cümlədən genişmiqyaslı yenidənqurma və təmir işləri, ağıllı (smart) sayğacların quraşdırılması, yeni yarımstansiyaların və transformator mərkəzlərinin tikintisi haqqında videoçarx və bülletenlər sərgi ziyarətçilərinə təqdim olunub.

Qeyd olunan sərgidə energetika sahəsinə dair rəqəmsal enerji, enerji səmərəliliyi, yaşıl enerji həlləri, neytral karbon istehsalı və enerji təchizatı, hidrogen və yanacaq məhsullarının istismarı kimi mövzular əhatə olunub.

Sözügedən tədbirdə "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti digər sərgi iştirakçıları Katko, Shandong, b2Eelectronics, Industria Metalurgica şirkətləri ilə eyni bölmədə yer alıb.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Daxili nəzarət və risklərin idarə edilməsi departamentinin direktoru Nəcbəddin Sofiyevə qayınatası

**MƏHƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5968
Sifariş 1577
Qiyməti 40 qəpik